RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 252 (9707) 16 noyabr 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# DÜZGÜN SİYASƏT və REAL İŞ

Ötən əsrin 80-ci illərinin sonlarından etibarən yenidən "Dağlıq Qarabağ problemi"ni qızışdıraraq erməni separatizminə rəvac verdilər, hayları silahlandıraraq torpaqlarımızın işğalına müxtəlif formada yardımlar göstərdilər.

**Bu elə bir dövr idi ki, Azərbaycan xalqı həqiqi rəhbəri Ulu Öndər Heydər Əliyevdən ayrı düşmüşdü.**

*Ölkəyə maymaqlar, qorxaqlar, səriştəsizlər və xəyanətkarlar rəhbərlik etdiyindən nə vaxtında ordu quruldu, nə də torpaqların müdafiəsi təmin olundu.*

Nəticədə Qarabağ və Şərqi Zəngəzur işğal edildi, bir milyonadək ölkə vətəndaşı məcburi köçkünə çevrildi, düşmən əlinə keçmiş yaşayış məntəqələri yerlə yeksan olundu, faydalı qazıntı yataqlarımız çapılıb talanaraq aparıldı.

**Otuz il ərzində ərazimizin iyirmi faizi ekosidə, urbisidə, kultrosidə, vətəndaşlarımız isə genosidə məruz qaldılar.**

*Nə dadımıza çatan oldu, nə də kömək əlini uzadan!*

* Torpaqların sülh yolu ilə geri qaytarılması üçün BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə icra olunmadı.

* ATƏT-in Minsk qrupu "sülh danışıqları" imitasiyası yaradaraq işğalı əbədiliyə çevirməyə çalışdı.

* Avropa İttifaqı heç bir faydası olmayan bəyanatlar verdi, qərarlar qəbul etdi, mənasız və nəticəsiz müzakirələr apardı.

* Beynəlxalq hüquq işləmədi, korrupsiyalaşmış senator və konqresmenlər riyakar və ikiüzlü mövqe nümayiş etdirdilər...

**Nəticədə Azərbaycan yalnız özünə güvənməli, öz problemlərini özü həll etməli oldu.**

❖ ❖ ❖

Bir milyondan çox qaçqın və məcburi köçkünü olan ölkə çoxsaylı problemlə qarşı-qarşıya qaldı.

*Amma dayanıb durmadı, qorxaraq geri çəkilmədi:*

* Sərbəst bazar iqtisadiyyatına keçidi başa çatdırdı;

* Özünə və bütün dünyaya fayda gətirən transmilli layihələri reallaşdırdı;

* Müstəqil daxili və xarici siyasət yürütdü, işsizliyi, yoxsulluğu 4-5 faizədək azaltdı;

* Ölkə əhalisinin sosial rifahını ciddi şəkildə yüksəltdi;

* 116 qaçqın şəhərciyi və yaşayış massivi saldı;

* Beynəlxalq nüfuzunu artırdı;

* Cənubi Qafqazın ən güclü dövlətinə, bölgədə söz sahibinə çevrildi;

* Bütün bunlarla yanaşı, yeni, modern ordu qurdu, onu ən müasir silahlarla silahlandırdı.

**Beynəlxalq hüququn gücsüzlüyünü, ikili standartlardan doğan ədalətsizliyi yaxşı bilən Prezident İlham Əliyev daim açıq şəkildə bəyan etdi:**

*"Azərbaycan bir qarış torpağını belə kimsəyə güzəştə getməyəcək, öz ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir".*

*Dedi və dediyini də etdi!*

**Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə 44 gün ərzində Ermənistan ordusu məhv edildi, düşmən qarşımızda diz çökdürüldü, kapitulyasiya aktını imzalamağa məcbur edildi!**

Təkbaşına otuzillik işğala son qoyan Azərbaycan bu gün Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirməklə məşğuldur!

*Həm də birnömrəli problemini zəfərlə həll etdikdən sonra dünyanın qarşılaşdığı iqlim dəyişmələri probleminin çözümünə də dəyərli töhfələrini verir.*

**İki yüz dövlətin dəstəyi ilə paytaxt Bakıda COP29-u böyük uğurla keçirərək iqlim dəyişmələrinin fəsadlarının qarşısının alınmasına dünya dövlətlərinin qüvvə və imkanlarını səfərbər edir.**

→ 5

## Azərbaycan-Rusiya strateji tərəfdaşlıq və müttəfiqlik əlaqələrinin hərtərəfli inkişafı təmin ediləcək



Noyabrın 15-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında dövlət başçıları Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin bu ilin avqustunda Azərbaycana dövlət səfəri zamanı əldə edilmiş razılaşmaları, həmçinin Rusiyanın Baş naziri Mixail Mişustinin bu günlərdə Bakıya səfəri zamanı təmaslarını nəzərə alaraq, sənaye və nəqliyyat sahələrində qarşılıqlı faydalı layihələrin praktiki olaraq həyata keçirilməsi məsələlərini müzakirə ediblər.

Tərəflər Azərbaycan-Rusiya strateji tərəfdaşlıq və müttəfiqlik əlaqələrinin hərtərəfli inkişafının davam etdirilməsinə dair qarşılıqlı maraqlarını bir daha ifadə ediblər.

Müzakirə olunan məsələlərin icrası məqsədilə müxtəlif səviyyələrdə təmasların davam etdirilməsi razılaşdırılıb.

***Prezidentin Mətbuat xidməti***

## Azərbaycan hər zaman Fələstin xalqının azadlığı və müstəqilliyini dəstəkləmişdir

### Fələstin Dövlətinin Prezidenti zati-aliləri cənab Mahmud Abbasa

Hörmətli cənab Prezident!

Fələstin Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan hər zaman Fələstin xalqının azadlığı və müstəqilliyini dəstəkləmişdir. Ölkəmiz münaqişənin Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olmaqla "iki dövlət" prinsipi əsasında sülh yolu ilə həllinin tərəfdarıdır. Biz bundan sonra da BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyi vasitəsilə və ikitərəfli əsasda Fələstinə humanitar dəstək göstərəcəyik.

İnanıram ki, xoş ənənələr üzərində qurulmuş dostluq əlaqələrimiz və əməkdaşlığımız bundan sonra da uğurla inkişaf etməyə davam edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Fələstin xalqına sülh və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 noyabr 2024-cü il*

## "Dünyanı birləşdirən Azərbaycan"




→ 10

## Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə

**Hörmətli İlham Heydəroğlu!**

COP29-un böyük uğurla keçirilməsi, Sizin bu tədbirdə parlaq çıxışlarınız ölkəmizin başını daha da ucaltdı. Bədxahlarımızın bütün cəhdlərinə baxmayaraq, dünya Azərbaycanı sanki kəşf etdi, yenidən tanıdı. Qədim tarixi, zəngin və əlvan mədəniyyəti olan, bu gün qurucu bir həyatla yaşayan, dini və milli dözümlülük, tolerantlıq amallarına daima sadiq qalan, otuz il işğal altında qalmış və vandallar tərəfindən xarabaya çevrilmiş torpaqlarını öz gücü ilə azad edən, ərazi bütövlüyünü son qarışınacan əbədi bərpa edən qürurlu və məğrur bir xalqın vətəni Azərbaycan - Ulu Öndərin dediyi kimi, dünyaya günəş kimi doğdu.

O da təsadüfi deyildir ki, müqəddəs dinimiz İslamın Yaşılı ilə Təbiətin rəmzi olan Yaşıl bir vəhdətdə - mənəvi və əxlaqi dəyərlər vəhdətində qovuşur.

Ayrı-ayrı insanlar içində paxıllar olduğu kimi, paxıl dövlətlər də var. Daha doğrusu, paxıl siyasətçilər tərəfindən idarə olunmağa məruz qalmış məmləkətlər. Füsunkar təbiətimizə, yeraltı sərvətlərimizə həsəd çəkənlər, hətta dənizimizə, küləklərimizə, bol-bol günəşli günlərimizə də qısqanclıqla yanaşırlar. Bizi təkləmək, tədbirimizi pozmaq cəhdləri də məhz bu gücsüz hiddətdən, aciz hikkədən doğur. Ölkəmizi təkləmək istəyənlərin arzuları ürəklərində qaldı. Özləri təkləndilər.

Fransız xalqı bəşəriyyətə ədəbiyyat, sənət, elm, maarif sahəsində dahi insanlar bəxş etmiş böyük millətdir. Amma bu ölkənin müstəmləkəçilik xumarından hələ də ayılmamış bədnam siyasətçiləri əzdikləri xalqların fəryadını, iqlim fəsadı ilə tamamilə yox olmaq təhlükəsinə görə çəkdikləri harayı eşitmək istəmirlər. Zəbt etdikləri xalqlara öz doğma dillərini unutdurub fransız dilini sırıyan müstəmləkəçilər bu məqsədlə hətta fransızca danışan ölkələr birliyi - frankofon təşkilatı yaradıblar. Amma indi nə XIX əsrdir, nə də XX yüzillik. XXI əsrdə bu təşkilatın yalnız iki üzvdən ibarət qalması reallıqdır - Fransanın özündən, bir də "frankofon" Ermənistandan.

**Hörmətli Prezidentim!**

44 günlük zəfər savaşından və 23 saatlıq antiterror əməliyyatından sonra COP29-un Bakımızda belə möhtəşəm keçirilməsi şəxsən Sizin, xalqımızın, müstəqil dövlətimizin Üçüncü tarixi qələbəsidir.

*Qələbələr qüruru və dərin minnətdarlıq hissi ilə*

***ANAR,***
***Azərbaycan Yazıçılar Birliyinin sədri***

*15 noyabr 2024-cü il*

COP29 Baku Azerbaijan

# Ali təhsildə yeni məzmunlu təhsil proqramlarının əhatə dairəsinin genişləndirilməsi və maliyyələşdirilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin müasirləşməsi məqsədilə ali təhsildə tətbiq olunan yeni məzmunlu proqramların əhatə dairəsinin və keyfiyyətinin artırılması üçün tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Bu baxımdan ali təhsildə tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə yaradılmış və 2014-cü ildən fəaliyyətə başlayan SABAH proqramı çərçivəsində ali təhsil sistemində yeni məzmunlu proqramların tətbiqi təcrübəsi özünü doğruldur. Bu proqram çərçivəsində tədrisin mütərəqqi forma və metodlarının tətbiqi, ixtisas üzrə kompetensiyalara tam yiyələnmənin təmin olunması, dərinləşdirilmiş xarici dil tədrisi, tələbələrə əlavə təqaüd verilməsi, onların xarici mübadilə proqramlarında iştirakı imkanlarının artırılması, tələbəyönümlü tədrisin və tədrisdənkənar fəaliyyətin təşkili kimi üstünlüklər gənclərin ali təhsilin yeni məzmunlu təhsil proqramlarına marağını daha da artırmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ali təhsil sistemində kəmiyyət əsaslı maliyyələşdirmədən keyfiyyət əsaslı maliyyələşdirməyə keçidin təmin olunması və maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. SABAH proqramının əhatə dairəsi 2025-2026-cı tədris ilindən başlayaraq mərhələlərlə 2028-ci ilədək genişləndirilsin.

2. SABAH proqramı ilə təhsil alan tələbələrin təhsil xərclərinin maliyyələşdirilməsi müvafiq illərin dövlət büdcəsində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi üçün nəzərdə tutulmuş məqsədli vəsaitlər hesabına təmin edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi:

4.1. mülkiyyət formasından asılı olmayaraq, ali təhsil müəssisələrində SABAH proqramının təşkili ilə bağlı tələbləri müəyyən etsin;

4.2. hər növbəti tədris ili üçün SABAH proqramı təşkil ediləcək ali təhsil müəssisələrinin siyahısını, təhsilalanların sayını, hər bir təhsilalana düşən illik təhsil xərcinin miqdarını və ilkin mərhələdə tədrisin təşkili ilə bağlı digər xərclərin (yeni məzmunlu təhsil proqramlarının hazırlanması, tədris infrastrukturunun və maddi-texniki bazanın formalaşdırılması və s.) maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin həcmini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla müəyyən etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2024-cü il*

# Baş nazir Əli Əsədov BMT-nin İnkişaf Proqramının administratoru ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 14-də BMT-nin İnkişaf Proqramının (UNDP) administratoru Axim Ştaynerlə görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüşdə Bakıda keçirilən COP29-un iqlim dəyişikliyinin təsirlərinin azaldılmasına və "yaşıl enerji"dən istifadəyə yönəlmiş qlobal təşəbbüslərin təşviqində mühüm rol oynayacağına əminlik ifadə olunub.

Azərbaycanla UNDP arasında uzunmüddətli səmərəli tərəfdaşlıq, o cümlədən Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşması istiqamətində işbirliyi, birgə həyata keçirilən layihələr nəzərdən keçirildi, ikitərəfli əməkdaşlığın gündəliyində duran məsələlər müzakirə edilib.

# Baş nazir Əli Əsədov Ümumdünya "Yaşıl İqtisadiyyat" Təşkilatının sədri ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 15-də Ümumdünya "Yaşıl İqtisadiyyat" Təşkilatının sədri Səid Məhəmməd Əl Tayerlə görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Bakıda keçirilən COP29-un önəmi qeyd edilib, tədbirdə qlobal miqyasda "yaşıl keçid"in sürətləndirilməsi ilə bağlı vacib qərarların qəbul ediləcəyinə əminlik ifadə olunub.

Ölkəmizdə "yaşıl iqtisadiyyat"ın genişləndirilməsi, ətraf mühitin sağlamlaşdırılması, istixana effekti yaradan qaz emissiyalarının azaldılması, işğaldan azad edilmiş ərazilərdə "netto sıfır emissiya" zonasının yaradılması istiqamətində aparılan işlər, həmçinin bərpaolunan enerji sahəsində həyata keçirilən uğurlu layihələr barədə məlumat verilib.

Söhbət əsnasında "yaşıl enerji"yə keçidlə bağlı əməkdaşlıq məsələləri müzakirə olunub.

# YAP nümayəndə heyətinin ÇKP Mərkəzi Komitəsinin departament direktoru ilə görüşü keçirilib





**Xəbər verildiyi kimi, Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdədir.**






Səfər çərçivəsində noyabrın 15-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) Beynəlxalq əlaqələr şöbəsinin Altıncı Departamentinin direktoru xanım Van Min ilə görüş keçirilib.

YAP nümayəndə heyətini salamlayan Van Min strateji tərəfdaşlıq səviyyəsinə yüksələrək keyfiyyətcə yeni mərhələyə qədəm qoyan Çin-Azərbaycan münasibətlərinin nümunəvi xarakter daşıdığını, ölkələr və partiyalararası çoxşaxəli əlaqələrin müsbət dinamikaya malik olduğunu və parlaq perspektivlər vəd etdiyini bildirib. Van Min qeyd edib ki, müasir beynəlxalq münasibətlər sistemində yüksək nüfuza malik iki dövlət arasında qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi Avrasiyada təhlükəsizlik və işbirliyi nöqteyi-nəzərindən mühüm əhəmiyyət daşıyır. O, Azərbaycan ilə Çinin milli maraqlara əsaslanaraq beynəlxalq platformalarda bir-birinə daim dəstək göstərdiklərini xüsusi vurğulayıb.

Ölkəsinin yüksələn güc mərkəzi kimi qlobal müstəvidə strateji hədəflərindən söz açan Van Min Çinin digər tərəfdaş dövlətlərlə olduğu kimi, dost Azərbaycanla da əməkdaşlığa böyük əhəmiyyət verdiyini və milli maraqların təmini istiqamətində ortaq siyasi iradənin mövcud olduğunu diqqətə çatdırıb.

Azərbaycanın bəşəriyyət üçün taleyüklü məsələlərin həllində fəal roluna diqqəti cəlb edən Van Min ölkəmizin daha bir mühüm beynəlxalq tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-a uğurla evsahibliyi etməklə dünyaya yeni müsbət nümunə təqdim edəcəyinə inamını ifadə edib.

Van Min YAP nümayəndə heyətinin səfəri çərçivəsində keçirilən məhsuldar görüşlərin, xüsusilə də iki hakim partiya arasında əməkdaşlıq memorandumunun imzalanmasının ölkələrarası strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə dəyərli töhfə verəcəyinə, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının əlaqələrində yeni səhifə açacağına əminliyini bildirib.

Səmimi qəbula görə təşəkkürünü bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan ilə Çinin diplomatik əlaqələrinin mövcud olduğu 30 ildən artıq müddətdə ikitərəfli qaydada və beynəlxalq platformalar çərçivəsində münasibətlərin uğurla inkişaf etdiyini və əhəmiyyətli nailiyyətlər qazanıldığını söyləyib.

Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyinin bərpasına nail olmaqla tarixi ədalətsizliyi aradan qaldırdığını vurğulayan YAP Sədrinin müavini Avrasiyanın mühüm geostrateji məntəqələrindən olan Cənubi Qafqazda yaranmış yeni reallıqlardan bəhs edərək postmüharibə dövründə ölkəmizin təşəbbüslərinin sülhə, sabitliyə, təhlükəsizliyə və inkişafa hədəfləndiyini bildirib. O, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri olan Çin Xalq Respublikasının Azərbaycanın beynəlxalq hüquq normalarına əsaslanan haqlı və ədalətli mövqeyinə birmənalı dəstəyinin xalqımız tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

"İstər Azərbaycan, istərsə də Çin müasir beynəlxalq münasibətlər sistemində milli maraqlara hörmət prinsipinə əsaslanan ədalətli və çoxqütblü siyasi nizamın tərəfdarıdır. Multilateralizm tərəfdarı kimi çoxtərəfli diplomatiyaya böyük əhəmiyyət verən, beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər yaradan hallara qarşı barışmaz mövqe sərgiləyən və ikili standartları rədd edən ölkələrimiz müstəqil, prinsipial və konstruktiv siyasət həyata keçirməklə qlobal miqyasda dialoq və əməkdaşlığı təşviq edirlər", - deyə Tahir Budaqov əlavə edib.

YAP Sədrinin müavini bəşəriyyətin sağlam və xoşbəxt gələcəyinə hədəflənmiş təşəbbüslər irəli sürən və məqsədyönlü tədbirlər həyata keçirən Azərbaycanın bu günlərdə COP29-a müvəffəqiyyətlə evsahibliyi etməsini diqqətə çatdıraraq Çinin bu istiqamətdə ölkəmizə dəstəyinin dostluq və tərəfdaşlıq örnəyi kimi təqdirəlayiq olduğunu söyləyib.

Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrinin yüksələn xətt üzrə inkişaf etdiyini bildirən Tahir Budaqov YAP-ın dost və tərəfdaş ölkələrin hakim partiyaları, o cümlədən Çin Kommunist Partiyası ilə səmərəli işbirliyinə malik olduğunu qeyd edib. "YAP və ÇKP arasında əməkdaşlıq memorandumun imzalanması ilə partiyalararası münasibətlərdə yeni mərhələnin əsası qoyuldu. Dostluğun, qarşılıqlı hörmət və etimadın təzahürü olan memorandum bir çox mühüm sahələri əhatə etməklə gələcəyə yönəlik əməkdaşlığımızın əsas istiqamətlərini müəyyənləşdirən mühüm yol xəritəsidir", - deyən YAP Sədrinin müavini birgə fəaliyyət nəticəsində yeni tarixi uğurlara imza atılacağına əminliyini ifadə edib.

Görüş zamanı partiyanın İdarə Heyətinin üzvləri, millət vəkilləri Hikmət Məmmədov, Pərvin Kərimzadə, Elnarə Akimova, Ülviyyə Həmzəyeva, Azər Badamov, YAP Təftiş Komissiyasının sədri, millət vəkili Sevinc Hüseynova, Təftiş Komissiyasının üzvləri, millət vəkilləri Elman Nəsirov, Vüqar İskəndərov, Naqif Həmzəyev, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, YAP Gənclər Birliyinin üzvü, millət vəkili Səbinə Xasayeva Azərbaycan-Çin strateji tərəfdaşlıq münasibətlərinin mühüm tərkib hissəsi olan YAP-ÇKP əməkdaşlığının hazırkı durumu və gələcək hədəflərlə bağlı fikirlərini bildiriblər.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparıblar.

Noyabrın 15-də YAP nümayəndə heyəti Çin Kommunist Partiyasının Beynəlxalq əlaqələr şöbəsinin, ÇKP Szyansu Vilayət Komitəsinin və BRICS Beyin Mərkəzləri Əməkdaşlığının Çin Şurasının birgə təşkilatçılığı ilə "Qlobal sivilizasiya təşəbbüsünün həyata keçirilməsi" mövzusunda keçirilən tədbirdə də iştirak edib. Eyni zamanda nümayəndə heyətinin Nankin şəhərinin tarixi məkanlarına, Qədim Çin Dövlət İmtahanları Muzeyinə və Konfutsi Məbədinə ziyarəti təşkil olunub.

COP29 Baku Azerbaijan

# COP29-un əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb



**Noyabrın 15-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Tanzaniya Birləşmiş Respublikası Milli Assambleyasının spikeri, Parlamentlərarası İttifaqın prezidenti Tulia Akson ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Parlamentlərarası İttifaq (PAİ) və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə keçiriləcək Parlament Görüşündə iştirak etmək üçün ölkəmizə səfər edən qonaqla görüşdə Azərbaycan və PAİ arasında əməkdaşlıq, Bakıda keçirilən COP29-un əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb.

Qonaq COP29-un yüksək səviyyədə təşkilinə görə məmnunluğunu bildirib. O qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin qonaqlarla ayrıca görüşməsi, onları dinləməsi və göstərilən diqqət yüksək qiymətləndirilir. PAİ prezidenti göstərilən qonaqpərvərliyə görə Azərbaycanın dövlət başçısına təşəkkürünü ifadə edib. Qonaq xüsusilə kiçik ada dövlətlərinin səsinin COP29-da eşidilməsinə şərait yaradıldığı üçün Azərbaycan tərəfinə minnətdarlığını bildirib.

Görüşdə Azərbaycanın kiçik ada dövlətlərinə göstərdiyi yardımlar, həmçinin ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövründə irəli sürdüyü təşəbbüslər haqqında da danışılıb. Qeyd edilib ki, kiçik ada dövlətləri iqlim dəyişikliyinə ən həssas olan ölkələrdir. Bu baxımdan COP29 çərçivəsində İqlim Dəyişikliyi üzrə İnkişaf etməkdə olan Kiçik Ada Dövlətlərinin Liderlər Zirvəsinin keçirilməsi, Prezident İlham Əliyevin sammitdə iştirakı, oradakı əhatəli nitqi və bu dövlətlərə verdiyi dəstək mühüm əhəmiyyətə malikdir.

Söhbət zamanı Sahibə Qafarova qonağa noyabrın 16-17-də Milli Məclisin Parlamentlərarası İttifaq ilə birlikdə COP29 çərçivəsində təşkil edəcəyi Parlament Görüşü haqqında da məlumat verib. Qeyd olunub ki, iclasda müxtəlif ölkələrin parlamentlərindən və beynəlxalq təşkilatlardan 330-dək nümayəndə iştirak edəcək.

Qonaq Azərbaycanın COP29 sədrliyinin uğurlu olacağına, bu çərçivədə görülən işlərin öz bəhrəsini verəcəyinə inamını ifadə edib.

Görüşdə Azərbaycan Respublikasının Milli Məclisi ilə Tanzaniya Birləşmiş Respublikası Milli Assambleyası arasında əlaqələrin inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə də müzakirələr aparılıb.

*"Azərbaycan"*

# Bu gün Bakıda COP29 çərçivəsində Parlamentlərarası İttifaq və Azərbaycan Milli Məclisinin birgə təşkilatçılığı ilə Parlament Görüşü öz işinə başlayır











**Xəbər verildiyi kimi, noyabrın 16-da və 17-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 çərçivəsində Parlamentlərarası İttifaq və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə Parlament Görüşü keçiriləcək.**

Parlament Görüşündə iştirak etmək üçün Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq, Tonqa Krallığı Qanunvericilik Məclisinin Sədri Lord Fatafehi Kinikinilau Fkafanua, Burundi Respublikası Senatının vitse-spikeri Fabrise Nkurunziza, Tanzaniya Birləşmiş Respublikası Milli Assambleyasının spikeri, Parlamentlərarası İttifaqın prezidenti Tulia Akson, Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası Sədrinin birinci müavini Andrey Yatskin və Rusiya Federasiyası Federal Məclisinin Dövlət Duması Sədrinin müavini Petr Tolstoy, Albaniya Respublikası parlamentinin Sədri Elisa Spiropali, Zimbabve Respublikası Milli Assambleyasının spikeri Jakob Francis Mudenda, Liviya parlamentinin vitse-spikeri Fouzi Salim ölkəmizə səfərə gəliblər.

*"Azərbaycan"*

# Azərbaycanın kiçik ada dövlətlərinə yardımı çox böyük əhəmiyyətə malikdir



**Milli Məclisin Sədri Sahibə Qafarova Tonqa Krallığının Qanunvericilik Məclisinin Sədri Lord Fkafanua Fatafehi ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, noyabrın 16-17-də COP29 çərçivəsində Milli Məclisin və Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə keçiriləcək Parlament Görüşündə iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan qonağı salamlayan spiker Sahibə Qafarova tədbirin əhəmiyyəti barədə fikirlərini çatdırıb.

Görüşdə iqlim dəyişikliyinin yaratdığı problemlərin bütün dövlətlərə mənfi təsirlərinin olduğu qeyd edilərək, bu istiqamətdə qlobal əməkdaşlığın vacibliyi vurğulanıb.

Söhbət zamanı Azərbaycanın Millətlər Birliyi ilə əməkdaşlıq məsələləri, bu təşkilat vasitəsilə kiçik ada dövlətlərinə göstərdiyi humanitar, texniki yardımlar barədə məlumat verilib.

Lord Fkafanua Fatafehi kiçik ada dövlətlərinin iqlim ədalətsizliyi ilə üzləşdiklərini diqqətə çatdıraraq deyib ki, iqlim dəyişikliyi onlar üçün təhlükəsizlik məsələsidir. O qeyd edib ki, Azərbaycan kimi yeni dostların bu dövlətlərə iqlim dəyişikliklərinə uyğunlaşmağa göstərdiyi yardım çox böyük əhəmiyyətə malikdir. Qonaq həmçinin Azərbaycanın COP29 çərçivəsində kiçik ada dövlətlərinin səsini prioritetləşdirdiyi və daha yüksək səviyyəyə qaldırdığı üçün minnətdarlığını bildirib. O, ümidvar olduğunu söyləyib ki, həm COP29, həm də Parlament Görüşü çərçivəsində keçirilən müzakirələr məhsuldar olacaq və iqlim dəyişikliyi ilə bağlı məsələlərin həllinə mühüm töhfələr verəcək.

Ölkələrimiz arasında münasibətlərin də nəzərdən keçirildiyi görüşdə Tonqa Krallığının Baş nazirinin ölkəmizə səfəri, Bakı Bəyannaməsi imzalanması məmnunluqla xatırlanıb.

Söhbət zamanı parlamentlərimiz arasında əməkdaşlıq imkanları barədə də fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova qonaqlara regionda vəziyyət, Azərbaycanın reallıqları, ölkəmizin işğaldan azad olunmuş ərazilərində görülən işlər haqqında da geniş məlumat verib.

*"Azərbaycan"*

# Böyük Britaniyanın sabiq Baş naziri Tereza MEY:

# "COP29 bütün dünyanın diqqətindədir"



**Milli Məclisin Sədri Sahibə Qafarova Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının 76-cı Baş naziri, Lordlar Palatasının üzvü, Baronessa Tereza Mey ilə görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Bakıda keçirilən COP29-da iştirak məqsədilə ölkəmizdə səfərdə olan qonağı səmimiyyətlə salamlayan spiker Sahibə Qafarova bu qlobal tədbirin əhəmiyyəti haqqında fikirlərini bildirib.**

Baronessa Tereza Mey belə vacib qlobal tədbirə evsahibliyi etdiyi üçün ölkəmizi təbrik edərək bildirib ki, 70 mindən çox adamın iştirak etdiyi COP29 bütün dünyanın diqqətindədir. Qonaq xatırladıb ki, əvvəlki dövrlərdə Qlazqo şəhəri də COP tədbirinə evsahibliyi etdiyi üçün onlar bu tədbirin təşkilinin nə dərəcədə böyük məsuliyyət olduğunu yaxşı anlayırlar. Baronessa Azərbaycanın COP29-u yüksək səviyyədə təşkil etdiyini bir daha vurğulayıb.

Spiker Sahibə Qafarova iqlim dəyişikliyinin təsirlərinə məruz qalan bir ölkə kimi Azərbaycanın hələ COP29 sədrliyindən əvvəl ətraf mühitin qorunması, o cümlədən bərpaolunan enerji mənbələrindən istifadə məsələlərinə hər zaman böyük diqqət göstərdiyini söyləyib. O, qonağa işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən "yaşıl enerji" layihələri barədə də danışıb.

Vurğulanıb ki, iqlim dəyişikliyi zəmanəmizin ən aktual problemidir və təxirəsalınmadan müvafiq addımların atılmasını tələb edir. Milli Məclisin Sədri bu kimi vacib məsələlərin müzakirə olunduğu tədbirin siyasiləşdirilməsinin yolverilməz olduğunu deyib. O, təəssüflə qeyd edib ki, tədbirdən əvvəl bəzi dövlətlər tərəfindən ölkəmizə qarşı siyasi hücumlar və təzyiq cəhdləri olub. Spiker bunu ölkəmizin öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsinə qarşı qısqanc münasibətlə əlaqələndirib.

Söhbət zamanı iqlim dəyişikliyi problemlərinə qarşı mübarizədə parlamentlərin vacib rolu da qeyd edilib. Bu mənada noyabrın 16-17-də COP29 çərçivəsində Milli Məclis və Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə keçiriləcək Parlament Görüşünün də əhəmiyyəti diqqətə çatdırılıb.

Görüşdə ölkələrimiz arasında əlaqələrin inkişafına mühüm təsir göstərən faktorlardan biri kimi, parlamentlərimiz arasında qarşılıqlı fəaliyyətin əhəmiyyəti barədə də fikir mübadiləsi aparılıb. Qonağa Azərbaycan Milli Məclisi haqqında məlumat verilib. Sahibə Qafarova özünün Birləşmiş Krallığa rəsmi səfərini məmnunluqla xatırlayaraq səfər zamanı keçirilən görüşlərin qanunvericilik orqanlarımız arasında münasibətlərə müsbət töhfə verdiyini bildirib.

Görüşdə gender bərabərliyi və qadın məsələləri ilə bağlı da fikir mübadiləsi aparılıb. Sahibə Qafarova qarşı tərəfə məlumat verib ki, ölkəmizdə qadın məsələlərinə xüsusi önəm verilir. Azərbaycan 1918-ci ildə əksər Qərb ölkələrini də qabaqlayaraq qadınlara seçmək və seçilmək hüququ verib. O, bu gün ölkəmizdə qadınların yüksək vəzifələrdə təmsil olunduğunu, o cümlədən parlamentimizdə qadın və gender məsələlərinə xüsusi diqqət göstərildiyini qeyd edib.

Söhbət zamanı Azərbaycanın Millətlər Birliyi ilə əməkdaşlıq məsələləri, bu təşkilat vasitəsilə kiçik ada dövlətlərinə göstərdiyi humanitar, texniki yardımlar, həmçinin ölkəmizin təşəbbüsü ilə COP29 çərçivəsində İqlim Dəyişikliyi üzrə İnkişaf Etməkdə olan Kiçik Ada Dövlətlərinin Sammitinin təşkili haqqında da məlumat verilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın Baş katibi ilə görüşüb



**Noyabrın 15-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqla görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkəmizin COP29 sədrliyindən irəli gələn məsələlər, həmçinin Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində Parlamentlərarası İttifaq və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə keçiriləcək Parlament Görüşünə hazırlıq istiqamətində görülən işlər haqqında fikir mübadiləsi aparılıb.

Martin Çunqonq COP29 kimi vacib qlobal tədbirə evsahibliyi etdiyi üçün ölkəmizi təbrik edib. Fikir mübadiləsi zamanı COP29-a hazırlıq işlərinin yüksək səviyyədə aparıldığı vurğulanıb və görülən işlər yüksək qiymətləndirilib.

Görüşdə iqlim dəyişikliyinin yaratdığı problemlərin bütün dövlətlərə mənfi təsirlər göstərdiyi diqqətə çatdırılaraq, bu istiqamətdə qlobal əməkdaşlığın vacibliyi qeyd edilib, Bakıda təşkil olunan COP29-un müzakirə olunan mövzuların aktuallığı, dünyada iqlim dəyişikliklərinin yaratdığı problemlərin aradan qaldırılmasına töhfələri baxımından çox mühüm beynəlxalq tədbir olduğu diqqətə çatdırılıb. Dünyanın müxtəlif ölkələrinin nümayəndələrinin iştirak etdiyi COP29-a böyük marağın göstərildiyi və tədbirdə 70 mindən çox qonağın iştirak etməsinin bunun bariz ifadəsi olduğu qeyd edilib.

Görüşdə Azərbaycan Milli Məclisi ilə Parlamentlərarası İttifaq arasındakı münasibətlər yüksək dəyərləndirilib, Azərbaycanın PAİ-nin tədbirlərində fəal iştirak etdiyi, tərəflər arasında uğurlu əməkdaşlığın mövcud olduğu bildirilib. Bu əməkdaşlığın nəticəsi olaraq, COP29 çərçivəsində keçiriləcək Parlament Görüşünün yüksək səviyyədə təşkil olunacağına inam ifadə olunub. Tərəflər konfransda müzakirə ediləcək məsələlərin əhəmiyyəti, iqlim dəyişikliklərinə qarşı atılacaq gələcək addımların müzakirəsi baxımından bu tədbirin vacibliyini qeyd ediblər.

*"Azərbaycan"*

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Çin pavilyonunda təşkil olunan paneldə iştirak edib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva noyabrın 15-də Kəmər və Yol Təşəbbüsü Yaşıl İnkişaf Koalisiyası (KYTYİK), Çin Ətraf Mühit və İnkişaf üzrə Beynəlxalq Əməkdaşlıq Şurası və Çin Qitələrarası Kommunikasiya Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutan "İqlim dəyişikliyi üzrə Cənub-Cənub əməkdaşlığı və yaşıl inkişaf: keyslər və təcrübələr" panel müzakirəsində iştirak edib.






AZƏRTAC xəbər verir ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən tədbirin açılışında çıxış edən Leyla Əliyeva Qlobal Cənub bölgəsi ölkələri arasında dayanıqlı inkişaf və ətraf mühitin mühafizəsi kimi sahələrdə əməkdaşlığın əhəmiyyətini və mövcud imkanları qeyd edib. Leyla Əliyeva eyni zamanda vurğulayıb ki, Azərbaycan Respublikası bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi istiqamətində mühüm addımlar atır.

Sonra Leyla Əliyeva tədbir iştirakçılarına IDEA İctimai Birliyi tərəfindən ətraf mühitin mühafizəsi, ekoloji balansın təmin olunması, eləcə də iqlim dəyişmələri ilə mübarizə sahəsində görülən işlər barədə ətraflı məlumat verib. IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri həyata keçirilən ağacəkmə və təmizlik aksiyaları, vəhşi təbiətin bərpası və mühafizəsi, eləcə də bir sıra digər layihə və tədbirlərin nəticələrinə toxunub.

Yekunda Leyla Əliyeva iqlim dəyişmələri ilə mübarizə və "yaşıl inkişaf" naminə qlobal həmrəylik və əməkdaşlığın rolunu xüsusi vurğulayıb.

Qeyd edək ki, tədbir çərçivəsində Çinin ekologiya və ətraf mühit nazirinin müavini Jao Yinqmin, KYTYİK-in həmsədri, Bezos Yer Fondunun prezidenti və baş icraçı direktoru Endryu Stir, KYTYİK İdarə Heyətinin vitse-prezidenti Erik Solheym, ABŞ-nin Kolumbiya Universitetinin professoru Cefri Saks və digər rəsmi nümayəndə, ekspert və özəl sektor təmsilçiləri iştirak ediblər.

# COP29 çərçivəsində IDEA və "Clean Air Fund" tərəfindən panel müzakirələri təşkil olunub

## Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə iştirak edib










**IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyi və "Clean Air Fund" (CAF) təşkilatının tərəfdaşlığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycan pavilyonunda "Təmiz havanın uşaq və yeni doğulan körpələrin sağlamlığı üçün əhəmiyyəti" mövzusunda panel müzakirəsi təşkil edilib.**



AZƏRTAC xəbər verir ki, tədbirin açılışında çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva aparılacaq müzakirələrin uşaqların rifahına verə biləcəyi töhfəni qeyd edib.

Hava çirklənməsi probleminin nəticəsi olaraq hər il milyonlarla insanın həyatını itirdiyini vurğulayan Leyla Əliyeva qeyd edib ki, adıçəkilən problemin aradan qaldırılması üçün qlobal həmrəylik və dayanıqlı texnologiyalardan istifadə əhəmiyyətli rol oynayır.

Sonra Leyla Əliyeva Azərbaycan Respublikası tərəfindən görülən tədbirlər, o cümlədən dayanıqlı ictimai nəqliyyat vasitələri, hibrid və elektroavtomobillərdən istifadənin genişləndirilməsi istiqamətində atılan addımlar barədə tədbir iştirakçılarına məlumat verib.

IDEA İctimai Birliyi tərəfindən həyata keçirilən müxtəlif layihə və tədbirlər barədə də danışan Leyla Əliyeva ötən 13 il ərzində təşkilatın təşəbbüsü ilə 5 milyondan çox ağacın əkildiyini qeyd edib. Bununla bərabər, "Məktəb bağları" layihəsi çərçivəsində Bakı şəhəri və bölgələrdə yerləşən 300 məktəbin həyətində 20 mindən çox ağacın əkildiyi panel müzakirələri iştirakçılarının diqqətinə çatdırılıb.

Qeyd edək ki, tədbirdə həmçinin Azərbaycanın səhiyyə naziri Teymur Musayev, CAF-ın baş icraçı direktoru Jane Burston, BMT-nin Uşaq Fondunun (UNICEF) Sağlam Uşaqlar üçün Sağlam Ətraf Mühit Qlobal Proqramının rəhbəri Abheet Solomon, Botnar Fondunun vitse-prezidenti, "Partnership for Maternal, Newborn & Child Health" təşkilatının İdarə Heyətinin üzvü Flavia Bustreo və gənc ətraf mühit fəalı Francisco Vera iştirak ediblər.

# Leyla Əliyeva "Seaspiracy" sənədli filminin nümayişində iştirak edib






Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Fighting for International Nautical Species" (FINS) təşəbbüsünün pavilyonunu ziyarət edib. Pavilyon dəniz canlılarının qorunması, eləcə də bu sahədə beynəlxalq səylərin artırılmasının əhəmiyyətinə həsr olunub.

AZƏRTAC xəbər verir ki, FINS pavilyonunda həyata keçirilən silsilə tədbirlər çərçivəsində Leyla Əliyeva "Seaspiracy" sənədli filminin nümayişində iştirak edib.

Sözügedən filmdə balıqçılıq sənayesinin ətraf mühitə, ekosistemlərə və dəniz heyvanlarına təsirinə dair məlumat verilir və dayanıqlı balıqçılığın yaratdığı imkanlar qeyd olunur.

Tədbirin yekununda "Seaspiracy" layihəsinin rəhbəri İzabella Kavalletti iştirakçıları maraqlandıran sualları cavablandırıb.

# Leyla Əliyeva COP29 çərçivəsində "Ecumene" Qlobal Forumunun plenar iclasında iştirak edib

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva noyabrın 15-də "Ecumene" Qlobal Forumu tərəfindən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində təşkil olunan plenar iclasda çıxış edib.**

AZƏRTAC xəbər verir ki, ölkəmizin evsahibliyi etdiyi COP29-un qlobal ekoloji problemlərin həllində rolu barədə danışan Leyla Əliyeva qəbul ediləcək qərarların dayanıqlı gələcək naminə beynəlxalq həmrəyliyin möhkəmləndirilməsinə töhfə verəcəyinə inamını ifadə edib.







Leyla Əliyeva çıxışında Azərbaycanda su resurslarının dayanıqlı idarə edilməsinə dair bir sıra məqamlara toxunub. Ölkəmiz tərəfindən həyata keçirilən bir sıra tədbirlər, o cümlədən yaxın illər ərzində yaradılması nəzərdə tutulan 10 su anbarı barədə plenar iclas iştirakçılarına məlumat verilib.

Xəzər dənizində su səviyyəsinin son illər ərzində endiyini qeyd edən IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Xəzərdə biomüxtəlifliyin qorunmasının əhəmiyyətini vurğulayıb. Eyni zamanda Xəzər suitilərinin populyasiyasının XX əsrin əvvəli ilə müqayisədə 6 dəfədən çox endiyi bildirilib. Leyla Əliyeva qeyd edib ki, "Blue Marine Foundation" təşkilatı ilə əməkdaşlıq çərçivəsində Qızılağac Milli Parkı Xəzər dənizində ilk dənizkənarı mühafizə olunan ərazi kimi seçilib.

Bununla yanaşı, Leyla Əliyeva çıxışında IDEA İctimai Birliyi tərəfindən su resurslarının mühafizəsi istiqamətində görülən tədbirlərə toxunub. Bildirilib ki, "Zəngin hövzələr" layihəsi çərçivəsində müxtəlif növ milyonlarla balıq körpəsi ölkə ərazisində yerləşən bir sıra su hövzələrinə buraxılıb. "Bir damcı" layihəsinin nəticəsi olaraq ictimaiyyətə suyun səmərəli istifadəsinin əhəmiyyəti barədə geniş məlumat verilib.

Qeyd edək ki, plenar iclasda həmçinin BMT Baş katibinin iqlim fəaliyyəti və ədalətli keçid üzrə xüsusi məsləhətçisi Selvin Çarlz Hart, Dünya İqtisadiyyatının Təhlili Mərkəzinin direktoru Ramon Piks-Madruqa, BMT-nin Ətraf Mühit Proqramının keçmiş icraçı direktoru Erik Solheym, Rusiya Federasiyası Prezidentinin köməkçisi, Prezidentin iqlim məsələləri üzrə xüsusi nümayəndəsi Ruslan Edelgeriyev, Çeçenistan Respublikası başçısının və hökumətinin administrasiyası rəhbərinin birinci müavini - Çeçenistan Respublikasının naziri Xədicat Kadırova və Ümumrusiya təbiətin mühafizəsi cəmiyyətinin Mərkəzi Şurasının sədri Vyaçeslav Fetisov iştirak ediblər.

COP29 Baku Azerbaijan

# COP-ların ən mükəmməli 29-cusu oldu




## DÜZGÜN SİYASƏT və REAL İŞ

**Ən yaxşı siyasət real iş görməkdir!**

**Azərbaycan Prezidenti cənab İlham Əliyevə məxsus kəlamdır.**

*Hamı yaxşı bilir ki, təkcə istəməklə, arzulamaqla nəyəsə nail olmaq mümkün deyil!*

*Bunun üçün çalışmalısan, zəhmət çəkməlisən, əməli iş görməlisən.*

Əlbəttə, işə başlamazdan əvvəl məqsədə çatmağın düzgün yolunu, görəcəyin işlərin maliyyə mənbəyini, qarşıya çıxa biləcək mümkün çətinlikləri bilib nəzərə almağı və aradan qaldırmağın üsul və vasitələrini də tapmağı bacarmalısan.

**Bax o zaman zəhmətin hədər getməz, istədiyinə çata, düzgün siyasətin və real işin bəhrəsini görə bilərsən.**

❖ ❖ ❖

*Çətinlik, məhrumiyyət, ağır sınaqlar, maliyyə çatışmazlığı, kənar təzyiqlər - bütün bunlar Azərbaycan xalqına və dövlətinə yaxşı tanışdır.*

Dəfələrlə onlarla üzləşmiş, özünə güvənərək dəf etmiş, çiyinlərindəki ağır yükü mənzil başına çatdıraraq qəddini düzəltmişdir.

Bütün bu təlatümlər isə qırmızı imperiyanın süqutu, Azərbaycan xalqının müstəqillik arzusunu reallaşdırmaq istəməsi bu istiqamətdə əməli addımlarını atması ilə başlandı.

Ötən əsrin 80-ci illərinin sonlarından etibarən yenidən "Dağlıq Qarabağ problemi"ni qızışdıraraq erməni separatizminə rəvac verdilər, hayları silahlandıraraq torpaqlarımızın işğalına müxtəlif formada yardımlar göstərdilər.

**Bu elə bir dövr idi ki, Azərbaycan xalqı həqiqi rəhbəri Ulu Öndər Heydər Əliyevdən ayrı düşmüşdü.**

*Ölkəyə maymaqlar, qorxaqlar, səriştəsizlər və xəyanətkarlar rəhbərlik etdiyindən nə vaxtında ordu quruldu, nə də torpaqların müdafiəsi təmin olundu.*

Nəticədə Qarabağ və Şərqi Zəngəzur işğal edildi, bir milyonadək ölkə vətəndaşı məcburi köçkünə çevrildi, düşmən əlinə keçmiş yaşayış məntəqələri yerlə yeksan olundu, faydalı qazıntı yataqlarımız çapılıb talanaraq aparıldı.

**Otuz il ərzində ərazimizin iyirmi faizi ekosidə, urbisidə, kultrosidə, vətəndaşlarımız isə genosidə məruz qaldılar.**

*Nə dadımıza çatan oldu, nə də kömək əlini uzadan!*

* Torpaqların sülh yolu ilə geri qaytarılması üçün BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə icra olunmadı.

* ATƏT-in Minsk qrupu "sülh danışıqları" imitasiyası yaradaraq işğalı əbədiliyə çevirməyə çalışdı.

* Avropa İttifaqı heç bir faydası olmayan bəyanatlar verdi, qərarlar qəbul etdi, mənasız və nəticəsiz müzakirələr apardı.

* Beynəlxalq hüquq işləmədi, korrupsiyalaşmış senator və konqresmenlər riyakar və ikiüzlü mövqe nümayiş etdirdilər...

**Nəticədə Azərbaycan yalnız özünə güvənməli, öz problemlərini özü həll etməli oldu.**

❖ ❖ ❖

Bir milyondan çox qaçqın və məcburi köçkünü olan ölkə çoxsaylı problemlə qarşı-qarşıya qaldı.

*Amma dayanıb durmadı, qorxaraq geri çəkilmədi:*

* Sərbəst bazar iqtisadiyyatına keçidi başa çatdırdı;

* Özünə və bütün dünyaya fayda gətirən transmilli layihələri reallaşdırdı;

* Müstəqil daxili və xarici siyasət yürütdü, işsizliyi, yoxsulluğu 4-5 faizədək azaltdı;

* Ölkə əhalisinin sosial rifahını ciddi şəkildə yüksəltdi;

* 116 qaçqın şəhərciyi və yaşayış massivi saldı;

* Beynəlxalq nüfuzunu artırdı;

* Cənubi Qafqazın ən güclü dövlətinə, bölgədə söz sahibinə çevrildi;

* Bütün bunlarla yanaşı, yeni, modern ordu qurdu, onu ən müasir silahlarla silahlandırdı.

**Beynəlxalq hüququn gücsüzlüyünü, ikili standartlardan doğan ədalətsizliyi yaxşı bilən Prezident İlham Əliyev daim açıq şəkildə bəyan etdi:**

*"Azərbaycan bir qarış torpağını belə kimsəyə güzəştə getməyəcək, öz ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir".*

*Dedi və dediyini də etdi!*

**Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə 44 gün ərzində Ermənistan ordusu məhv edildi, düşmən qarşımızda diz çökdürüldü, kapitulyasiya aktını imzalamağa məcbur edildi!**

Təkbaşına otuzillik işğala son qoyan Azərbaycan bu gün Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirməklə məşğuldur!

*Həm də birnömrəli problemini zəfərlə həll etdikdən sonra dünyanın qarşılaşdığı iqlim dəyişmələri probleminin çözümünə də dəyərli töhfələrini verir.*

**İki yüz dövlətin dəstəyi ilə paytaxt Bakıda COP29-u böyük uğurla keçirərək iqlim dəyişmələrinin fəsadlarının qarşısının alınmasına dünya dövlətlərinin qüvvə və imkanlarını səfərbər edir.**

❖ ❖ ❖

Təkcə 2024-cü ilin əvvəlindən indiyədək dünya dəfələrlə təbii fəlakətlərlə üzbəüz qalmış, böyük dağıntılar və itkilər yaşamışdır.

Planetimizin müxtəlif yerlərində baş verən zəlzələlər, qasırğalar, leysanlar, subasmaları nəticəsində çoxsaylı yaşayış məntəqələri dağılmış, ciddi insan tələfatları baş vermiş, sürüşmələr nəticəsində bütöv kəndlər, qəsəbələr torpaq altında qalmışdır.

*Azərbaycan xalqı yaxşı bilir:*

* Dağıntı nədir, doğmaların itkisi nədir.

* Evsiz, yurdsuz qalan insanlar hansı əziyyət və mənəvi iztirablar çəkirlər.

* Quraqlıq, susuzluqdan məhsul itkisi necə olur.

* Köməksizlikdən, yoxsulluqdan və imkansızlıqdan hansı çətinliklər və problemlər yaşanır.

* Ekoloji fəlakətlər, meşələrin vəhşicəsinə qırılması, çayların zəhərlənməsi, göllərin qurudulması necə fəsadlara səbəb olur.

*Azərbaycan həm də:*

* Öz vətəndaşlarının qədrini bilir, onu çətinliklər məngənəsində tək qoymur.

* Nəhəng layihələri reallaşdırmağı, ən çətin problemlərin çözülməsinə haradan başlayıb harada bitirməyi dəfələrlə sınaqdan çıxarıb.

* Böyük çətinliklər qarşısında qalan dövlətlərə, insanlara dəfələrlə kömək əlini uzadıb, onları problemlər məngənəsində sıxılmağa qoymayıb.

* Hamıya fayda gətirən gərəkli işləri görməyin, imkanları səfərbərliyə almağın yollarını yaxşı bilir.

* Ən böyük tədbirləri uğurla təşkil etməyi, mütəşəkkil qaydada və yüksək səviyyədə keçirməyi məharətlə bacarır.

**Bu gün isə COP29 münasibətilə dünyanı Bakıya toplamaqla dünya dövlətlərini çətin duruma salan ekoloji fəlakətlərin qarşısının alınması üçün zəruri tədbirlərin görülməsini, maliyyə imkanlarının səfərbər olunmasını nizama salır.**

❖ ❖ ❖

Yaxın illərdə baş verən hadisələr aydın şəkildə göstərir ki, Azərbaycan ən çətin vəziyyətdə qalanlara daim kömək göstərib, bu yolda şəxsi vəsaitini belə əsirgəməyib.

**Prezident İlham Əliyevin Qoşulmama Hərəkatına dördillik sədrliyi dövründə Azərbaycan 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərmişdir.**

*COVID-19-un tüğyan etdiyi dövrdə "vaksin millətçiliyi"ni ifşa edərək güclü dövlətlərin tamahkarlığı nəticəsində peyvənd materialları əldə edə bilməyən üçüncü dövlətlərə yardım əlini uzatmışdır.*

**COP29-dakı çıxışı zamanı cənab İlham Əliyev ölkəmizin daha bir xeyirxah addımı ilə bağlı açıqlama verdi:** *"Biz Millətlər Birliyinin kiçik ada dövlətlərindəki birgə layihələrini dəstəkləmək üçün 10 milyon ABŞ dolları məbləğində vəsait ayırırıq. Ətraf mühitin monitorinqi və qiymətləndirilməsi üçün Azərbaycanın Kosmos Agentliyi - "Azərkosmos"dan peyk məlumatlarından istifadə etmək üçün Millətlər Birliyi ilə anlaşma memorandumu imzalanmışdır".*

Yeri gəlmişkən, COP29 çərçivəsində noyabrın 13-də Bakıda keçirilən inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) sammitində də bu məsələlərə geniş yer verildi.

**Cənab İlham Əliyev Azərbaycanın yardımlarını xatırladaraq dedi:** *"Biz fəlakət qarşısında zəif olan bir sıra ölkələrə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaq üçün yardım göstərmişik. Biz həmçinin su təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrinə dəstək vermişik".*

**Sammitin iştirakçılarını da bu xeyirxah işdə iştiraka dəvət etdi:** *"Kiçik ada dövlətlərinin səsi qlobal arenada eşidilməlidir. Mən inkişaf etmiş bütün ölkələrə, xüsusən də müstəmləkə keçmişi olan ölkələrə müraciət edirəm ki, kiçik ada dövlətlərinə maddi və texniki dəstək göstərsinlər ki, onlar ölkələrini iqlim dəyişmələrinin fəsadlarından qoruya bilsinlər".*

❖ ❖ ❖

Fransa Polineziyası ərazisində Fransanın 1966-1996-cı illər ərzində apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitə dəyən ziyanı ciddi şəkildə tənqid edən cənab İlham Əliyev Fransanın daşıdığı məsuliyyəti də göstərdi, eyni zamanda onun törətdiyi əməllərinə görə həm Avropa Komissiyası, həm Avropa Parlamenti, həm də ki, Avropa Şurası Parlament Assambleyası tərəfindən pislənilmədiyini diqqətə çəkdi: *"Bu, siyasi riyakarlıqdır. Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat - Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə Prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşür. Fransadakı bütün siyasi məhbuslar dərhal azad olunmalıdır".*

**BMT-nin Baş katibi Antonio Quterreş öz çıxışında Azərbaycan Prezidenti İlham Əliyevin dediklərinə dəstəyini ifadə etdi:** *"Siz - kiçik ada dövlətləri nümayiş etdirirsiniz ki, iqlim ambisiyaları özünü necə büruzə verir. Siz cavab tədbirlərini görən ilk tərəfsiniz. Dünya sizi dəstəkləməli, ilk növbədə, temperatur artımının 1,5 dərəcədə saxlanılması üçün yorulmadan çalışmalıdır".*

*"İş burada və indi başlayır. Bizə inkişaf etməkdə olan ölkələrin ehtiyac duyduğu trilyonlarla dollarlıq vəsaitləri toplayan yeni iqlim maliyyə məqsədi lazımdır və imtiyazlı dövlət vəsaitlərində xeyli artım olmalıdır".*

❖ ❖ ❖

* Bu gün dünya müharibə alovuna bürünüb və bu alovlar şiddətlənərək genişlənə bilər.

* Bu gün dünyada ədalətsizliklər baş alıb gedir, "Avropa demokratiyasının beşiyi" statusunu itirən Fransa hələ də kolonializm siyasəti yürüdür.

* Bu gün bir sıra dünya dövlətlərinin və bütövlükdə dünyanın özünün köməyə ehtiyacı var!

* Bu gün dünyanın xilası naminə ağıllı, qabaqlayıcı tədbirlər görülməsinə ehtiyac var!

* Bu gün dünyanın pis niyyətlilərdən, ambisiyalı dövlətlərin yaramaz əməllərindən qorunmasına ehtiyac var!

*Yoxsa məhvərindən çıxar, ona edilən nankorluqların, bəd əməllərin əvəzini qasırğalarla, daşqınlarla, zəlzələ və leysan yağışları ilə qaytarar.*

**Azərbaycan bu gün bütün dünyanı Bakıya toplayaraq bu məsələləri müzakirə edir, səmərəli və dəyərli təkliflər verir, bəşəriyyətin ekoloji fəlakətlərdən qorunması üçün əlindən gələni əsirgəmir.**

*Onun əl-ayağına dolaşmaq, mane olmaq istəyənlər isə gülünc vəziyyətdə qaldılar.*

**Xoşniyyətli, düz-əməlli, həqiqət carçısı Azərbaycan öz istədiyinə nail olaraq dünyadakı hörmət və şöhrətini daha da artırır.**

**Bəxtiyar SADIQOV**




COP29 Baku Azerbaijan

# Azərbaycanla BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi arasında əməkdaşlıq müzakirə olunub

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsinin icraçı direktoru Qada Vali ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, görüşdə transmilli cinayətkarlıq, xüsusilə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə istiqamətində əməkdaşlıq məsələləri, habelə ölkəmizin COP29 sədrliyi çərçivəsində mümkün əməkdaşlıq perspektivləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov ölkəmizin müvafiq qurumları ilə BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi arasında əməkdaşlığın, habelə COP29 çərçivəsində həyata keçirilən birgə tədbirlərdən bəhs edib.

Transmilli cinayətlərlə mübarizə üzrə təlim-tədris məsələlərinin əhəmiyyəti diqqətə çatdırılıb, bu istiqamətdə müxtəlif qurumların əməkdaşları üçün birgə layihələrin faydalı ola biləcəyi bildirilib.

Ölkəmizin COP29 sədrliyi çərçivəsində bir sıra əhəmiyyətli təşəbbüslərlə çıxış etdiyi, bu istiqamətdə iqlim dəyişikliyi və beynəlxalq sülh arasında əlaqəyə vurğu edən "Atəşkəs çağırışı"nın xüsusilə təqdirəlayiq olduğu qeyd olunub.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ceyhun Bayramov NATO Baş katibinin köməkçisi ilə görüşüb

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində NATO Baş katibinin innovasiya, hibrid və kibermәsələlər üzrə köməkçisi Jan-Şarl Ellermann-Kinqomb ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, görüşdə Azərbaycan və NATO arasında mövcud tərəfdaşlıq məsələləri, COP29 sədrliyimiz çərçivəsində əməkdaşlıq perspektivləri müzakirə olunub. Nazir Ceyhun Bayramov bu il ölkəmizlə NATO arasında əməkdaşlığın əsasını qoyan "Sülh Naminə Tərəfdaşlıq" Proqramının 30 illiyinin qeyd edildiyini, bu çərçivədə qarşılıqlı əməkdaşlıq şəraitində bir sıra birgə layihələrin həyata keçirildiyini məmnunluqla qeyd edib.

Tərəfdaşlığımızın 30 ili müddətində Azərbaycanın NATO-nun sülhməramlı əməliyyatlarında nümunəvi iştirakı, habelə NATO çərçivəsində qarşılıqlı faydalı əməkdaşlıqda aktiv iştirakının ölkəmizin inamlı tərəfdaş kimi tanınmasına gətirib çıxardığı bildirilib.

COP29 sədrliyimiz çərçivəsində həmçinin iqlim fəaliyyətinin irəlilədilməsi istiqamətində NATO ilə əməkdaşlıq etməyə hazır olduğumuz diqqətə çatdırılıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# BMT mina təhdidi ilə mübarizədə Azərbaycanın gördüyü işləri təqdirəlayiq qiymətləndirib

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində BMT Baş katibinin qanunun aliliyi və təhlükəsizlik institutları üzrə köməkçisi Aleksandr Zuyev ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, görüşdə Azərbaycan və BMT arasında mövcud əməkdaşlıq gündəliyindən irəli gələn məsələlər, habelə COP29 sədrliyimiz müzakirə olunub.

COP29-un uğurlu təşkilində Azərbaycan və BMT arasında əməkdaşlığın əhəmiyyəti qeyd olunub.

Nazir Ceyhun Bayramov COP29-un təşkilati hissəsi ilə yanaşı, məzmun baxımından faydalı olmasının əsas prioritetlərimizdən biri olduğunu qeyd edərək sessiyanın gedişatı, danışıqlar prosesində əldə olunmuş irəliləyişlər barədə ətraflı məlumat verib. Baş katibin köməkçisi Aleksandr Zuyev COP29-un yüksək səviyyədə təşkil olunduğunu qeyd edib, bu münasibətlə ölkəmizə təbriklərini çatdırıb və sədrlik prosesi çərçivəsində uğurlar arzu edib.

COP29 çərçivəsində təşkil olunmuş yüksəksəviyyəli tədbirlərdə iştirak etdiyini qeyd edən Aleksandr Zuyev müxtəlif mövzulara həsr olunmuş tematik toplantıların fikir mübadiləsi baxımından faydalı olduğunu qeyd edib.

Mina təhdidi ilə mübarizə istiqamətində ölkəmiz tərəfindən görülən işlərin təqdirəlayiq olduğu, xüsusilə humanitar minatəmizləmə fəaliyyətinin 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi kimi elan olunmasının bu beynəlxalq təhdidlə mübarizədə örnək olduğu vurğulanıb.

Humanitar minatəmizləmə fəaliyyəti ilə yanaşı, mina qurbanlarının reabilitasiyası istiqamətində birgə layihələrin həyata keçirilməsinin əhəmiyyəti qeyd edilib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# İqlim dəyişikliyi ilə mübarizədə Azərbaycan-İƏT əməkdaşlığı müzakirə edilib

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Əsəd Məcid Xan ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, görüşdə Azərbaycan və İƏT arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, iqlim dəyişikliyi ilə mübarizə istiqamətində əməkdaşlığın perspektivləri, habelə ölkəmizin COP29 sədrliyi müzakirə olunub. Tərəflər arasında BMT Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində keçirilən görüş xatırlanıb, bu kimi təmasların əməkdaşlıq məsələlərinin müzakirəsi baxımından faydalı olduğu diqqətə çatdırılıb. İƏT çərçivəsində ətraf mühitin qorunması, "yaşıl enerji" kimi təşəbbüslərin irəlilədilməsinin əhəmiyyəti qeyd olunub.

Qarşı tərəf COP29-un uğurla təşkil olunmasının İƏT üçün qürurverici olduğunu bildirib, bu xüsusda ölkəmizi təbrik edib, sədrlik fəaliyyətində uğurlar arzulayıb.

COP29 çərçivəsində birgə təşəbbüslərin həyata keçirilməsinin regional və qlobal iqlim səyləri baxımından əhəmiyyəti qeyd olunub.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# COP29: "İqlim və Sülh: heç kimi arxada qoymamaq naminə birgə fəaliyyət" adlı panel iclas keçirilib

**Azərbaycanın COP29 sədrliyi çərçivəsində yaradılmış Birgə Təşəbbüs Qrupunun - Azərbaycan, Misir, Almaniya, İtaliya, Uqanda, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya və Beynəlxalq Miqrasiya Təşkilatının (İOM) təşkilatçılığı ilə noyabrın 15-də "İqlim və Sülh: heç kimi arxada qoymamaq naminə birgə fəaliyyət" adlı yüksəksəviyyəli panel iclas keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə COP29 sədrliyinin iqlim dəyişikliyi sahəsində konkret həlləri nəzərdə tutan təşəbbüsləri, eləcə də İqlim və Sülh Fəaliyyəti üzrə Bakı konsepsiyası, həmçinin beynəlxalq sülhə iqlimlə əlaqəli təhlükələrin qarşısının alınması sahəsində əməli addımları ehtiva edən "Bakı İqlim üçün Sülh Çağırışı" ilə bağlı müzakirələr aparılıb.

İtaliya, Misir, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri, Almaniya və Uqanda nümayəndələri, eləcə də Beynəlxalq Miqrasiya Təşkilatı, BMT-nin İnkişaf Proqramı və digər beynəlxalq təşkilatların nümayəndələri Azərbaycanın səylərini gələcəyin təhdidlərinə qarşı əməli addımlar kimi yüksək qiymətləndirib, ölkəmizin təşəbbüslərinə dəstəklərini ifadə ediblər. Eyni zamanda bu sahədə əməkdaşlığın vacibliyi vurğulanıb. Bildirilib ki, Bakının bu çağırışı intensiv əməkdaşlıq tələb edir. Buna töhfə vermək üçün hər kəsi səyləri birləşdirməyə çağırıblar. Bakı COP-u iqlim dəyişikliyi ilə mübarizə sahəsindəki işlərdə, həqiqətən də, irəliləyişlərə nail olub.

Diqqətə çatdırılıb ki, sülhü təmin etmək üçün bu gün iqlimlə bağlı məsələlərə maliyyənin yönləndirilməsi olduqca vacibdir. İqlim təhlükəsizliyinin təmin edilməsi Afrikadan başlayır. Yerli aktorlarla, müxtəlif tərəfdaşlarla əməkdaşlıq şəraitində işləmək lazımdır.

İclasda çıxış edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov iqlim dəyişikliyi və münaqişələr arasında mövcud əlaqə, iqlim dəyişikliyi nəticəsində meydana gələn qida, su qıtlığı, torpaq deqradasiyasının insanların həyat və sağlamlığını təhdid etdiyi, biomüxtəlifliyin pozulması kimi fəsadlar verdiyi və nəticə etibarilə sülh, dayanıqlı inkişafa hədə törətdiyini bildirib. Bu baxımdan COP29 sədrliyinin artıq 130 ölkə və ümumilikdə 1200 aktor tərəfindən dəstəklənən "Atəşkəs Çağırışı" təşəbbüsünün əhəmiyyəti vurğulanıb. Çıxışda indiyədək keçirilən COP-lar tarixində ikinci dəfə Sülh, Sabitlik və Bərpa Gününün təsis olunması və Almaniya, Misir, İtaliya, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Uqanda ilə iqlim və sülh üzrə birgə tərəfdaşlığın qurulması, habelə iqlim dəyişikliyinin kritik nəticələri ilə bağlı həll yollarını təklif edən Sülh, Sabitlik və Bərpa üçün İqlim Fəaliyyəti üzrə Bakı çağırışının elan edilməsinin vacibliyi qeyd olunub. Bu istiqamətdə mövcud təklifləri konkret addımlara çevirmək baxımından Bakı İqlim və Sülh Fəaliyyəti Mərkəzinin yaradılmasının, habelə maliyyə və digər texniki resursların səfərbərliyinin xüsusilə kiçik ada, həmçinin az inkişaf etmiş dövlətləri dəstəkləmək baxımından inklüziv nəticələr verəcəyinə dair əminlik ifadə edilib.

Ceyhun Bayramov Azərbaycanın COP29 sədrliyinin prioritetlərində əks olunduğu kimi iqlim dəyişikliyinin nəticələrinin aradan qaldırılması, habelə sülh və inkişafın dəstəklənməsi istiqamətində ən həssas qrupları bundan sonra da dəstəkləməyə davam edəcəyimizi vurğulayıb.

Tədbirdə davamlı sülh üçün birgə fəaliyyətin əhəmiyyətinə toxunulub və Azərbaycan sədrliyinin irəli sürdüyü təşəbbüslərin həyata keçirilməsində birgə fəaliyyətin vacibliyi vurğulanıb.

İclas mövzu ətrafında müzakirələrlə davam edib.

# COP29 çərçivəsində Qlobal Cənub əməkdaşlığı vasitəsilə iqlim fəaliyyətinin inkişafında QHT-lərin roluna dair müzakirələr aparılıb

**COP29 çərçivəsində noyabrın 15-də "Qlobal Cənub əməkdaşlığı vasitəsilə iqlim fəaliyyətinin inkişafı: QHT-lərin rolu" mövzusunda genişmiqyaslı tədbir keçirilib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə Qoşulmama Hərəkatına üzv ölkələrin, inkişaf etməkdə olan dövlətlərin və ada ölkələrinin vətəndaş cəmiyyəti nümayəndələri fəal iştirak ediblər. Tədbirə həmçinin müxtəlif beynəlxalq təşkilatların, aparıcı QHT-lərin, dövlət qurumlarının nümayəndələri, elm adamları və iqlim sahəsində fəaliyyət göstərən ekspertlər də qatılıblar.

Əvvəlcə Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizədə gördüyü işləri və əldə etdiyi nailiyyətləri əks etdirən videoçarx nümayiş olunub.

Videoçarxda ölkəmizin həyata keçirdiyi "yaşıl enerji" layihələri, bərpaolunan enerji mənbələrinin istifadəsinin genişləndirilməsi və karbon emissiyalarının azaldılması istiqamətində atılan addımlar təqdim olunub. Nəticə etibarilə ölkənin iqlim dəyişikliklərinə qarşı mübarizədə regionda və dünyada nümunəvi bir model kimi çıxış etdiyi diqqətə çatdırılıb.

COP29-un prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev videoçarx vasitəsilə tədbir iştirakçılarına müraciət edərək müzakirə olunan mövzunun əhəmiyyətinə diqqət çəkib: "Bugünkü toplantımız iqlim dəyişikliyinə qarşı mübarizədə ümumi öhdəliyimizin daha bir göstəricisidir. Bu problem sərhədlər, mədəniyyətlər və inanclarla məhdudlaşmır, hər birimizə və bütün planetimizə təsir edir. İqlim dəyişikliyinin insanlara və təbiətə təsirlərini azaltmaq, həm də gələcək nəsillər üçün bu dünyanı qoruyub saxlamaq bizim kollektiv məsuliyyətimizdir. Qlobal istiləşməni 1,5 dərəcə ilə məhdudlaşdırmaq həm iddialı məqsəd, həm də konkret fəaliyyət tələb edir. Bu, həll etməli olduğumuz bir sınaqdır və planetimizdəki həyatın gələcəyini müəyyən edəcək. Bu çağırışda heç bir ölkə və ya sektor təkbaşına hərəkət edə bilməz. Bu, hər bir ölkənin və hər bir sektorun birgə əməkdaşlığını tələb edir. İnkişaf etməkdə olan iqtisadiyyat kimi biz də qarşılaşdığınız çətinlikləri anlayırıq, çünki biz də eyni problemləri yaşayırıq. İqtisadi inkişafı iqlim fəaliyyəti ilə balanslaşdırmaq, iqlim dəyişikliyinin artan təsirləri ilə mübarizə aparmaq çətinlikləri ilə tanışıq. Biz illərdir bu istiqamətdə əməkdaşlıq və paylaşma təcrübəsini gücləndiririk. İnkişaf etməkdə olan ölkələrin tərəqqiyə nail olması üçün vətəndaş cəmiyyəti mühüm rol oynayır. Bu qurumlar iqlim fəaliyyətini irəli aparmaq üçün yeni perspektivlər, ideyalar və strategiyalar gətirir, eyni zamanda icmaların səslərini qorumağa töhfə verir. Mən buradan bütün iştirakçılara və tərəfdaşlara müraciət edərək, razılaşmaların ruhunu şərəfləndirməyə çağırıram. Bu razılaşma qeyri-rəsmi sənəddən daha artıqdır. Bu, insanların və planetin qorunması üçün bizim ümumi məsuliyyətimizi simvollaşdırır. Bu sənəd bizə fərqlərimizi kənara qoyaraq bir araya gəlməyimizi, bizi birləşdirə biləcək həll yollarına diqqət yetirməyimizi xatırladır. Qlobal iqlim böhranı hər kəsə təsir edir və yalnız birgə səylərimizlə bu problemin öhdəsindən gələ bilərik".

COP29-un iqlim dəyişmələri üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai videoçarx vasitəsilə müraciətində diqqətə çatdırıb ki, milli hökumətlər, inkişaf siyasətləri, iqlim liderləri və yerli xalqların nümayəndələri qarşısında duran çağırış iqlim dəyişikliyidir: "Bu dövrün ən mühüm sınağı olan iqlim dəyişikliyi bütün cəmiyyətin iştirakını tələb edir. Bu, hər birimizin öhdəlik, imkanlar və güclü əməkdaşlıq göstərməsini şərtləndirir. Bu problem yalnız tərəfdaşlıq və genişmiqyaslı əməkdaşlıq sayəsində həll edilə bilər. Çoxsaylı regionlarda müxtəlif öhdəliklərimiz və təşəbbüslərimiz iqlim fəaliyyəti sahəsində irəliləyişin mümkün olduğunu sübut edir. Bununla belə, iqlim dəyişikliyinin təsirləri yalnız məsafələr və sərhədlərlə məhdudlaşmır. Bu problem təbii resursların tükənməsi və qlobal həyatın ən böyük çətinlikləri ilə üz-üzə qalmağımıza səbəb olur. Dünyada iqlimin dəyişməsi artıq göz önündədir, biz bu dəyişiklikləri hiss edirik və onların ölkələrə, icmalara, eləcə də fərdlərə necə təsir etdiyini görürük. Gələcək nəsillər üçün daha yaxşı dünya qurmaq məqsədilə birgə fəaliyyətimizi davam etdirməliyik".

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru, COP29 Təşkilat Komitəsinin üzvü Aygün Əliyeva, COP29 Təşkilat Komitəsinin üzvü Nigar Məmmədova, BMT-nin QHT şöbəsinin rəhbəri Vuk Cin Çanq, "Təmiz Torpaqlar" təşəbbüsünün yaradıcısı, 2023-cü il Dünya Ərzaq Mükafatının laureatı Heidi Kuhn və başqaları iqlim məsələləri ilə bağlı daha sıx əməkdaşlıq platformalarının yaradılmasının zəruriliyini vurğulayıblar.

İştirakçılar həmçinin Azərbaycanın iqlim dəyişikliklərinə qarşı həyata keçirdiyi layihələr və QHT-lərə verdiyi dəstək barədə də məlumatlandırılıb.

Tədbir müxtəlif regionlardan olan nümayəndələrin birgə fəaliyyət strategiyalarının müzakirəsi ilə davam etdirilib.

COP29 Baku Azerbaijan

# Azərbaycanla BMT arasında mövcud əməkdaşlığın gündəliyi müzakirə edilib

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində BMT Baş katibinin müavini və BMT-nin layihə xidmətləri ofisinin icraçı direktoru Jorge Moreira da Silva ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, görüşdə Azərbaycan və BMT arasında mövcud əməkdaşlıq gündəliyində duran, habelə COP29 sədrliyimizdən irəli gələn məsələlər, əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov COP29-a hazırlıq işləri barədə ətraflı məlumat verərək, bu çərçivədə BMT ilə sıx əməkdaşlığın əsas prioritetlərimizdən biri olduğunu diqqətə çatdırıb. COP29 çərçivəsində aparılan danışıqlar prosesindən bəhs olunub, əldə edilən uğurların, habelə COP29 çərçivəsində təşkil olunan digər yüksəksəviyyəli tədbirlər zamanı gedən aktiv müzakirələrin iqlim fəaliyyətinə töhfə olacağına dair inam ifadə olunub. Ölkəmizin milli səviyyədə "yaşıl enerji" və inkişaf təşəbbüsləri, xüsusilə işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri çərçivəsində "yaşıl texnologiyalar"ın geniş tətbiq edildiyi qeyd olunub. Ölkəmizin bölgədəki bərpa və quruculuq səylərinə əsas hədələrdən birinin davam edən mina təhdidinin olduğu, vətəndaşlarımızın həyat və sağlamlığını təhdid edən mina təhlükəsi ilə mübarizədə beynəlxalq əməkdaşlığın vacibliyi diqqətə çatdırılıb.

Qarşı tərəf Azərbaycanın COP29-un təşkil edilməsi zamanı məhz BMT ilə yaxından əməkdaşlıq yanaşmasını tətbiq etməsinin təqdirəlayiq olduğunu və sessiyanın yüksək səviyyədə təşkil edildiyini diqqətə çatdırıb, sədrlik fəaliyyətində ölkəmizə uğurlar arzu edib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ceyhun Bayramov Karib Ölkələri Birliyinin Baş katibi ilə görüşüb

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Karib Ölkələri Birliyinin (CARICOM) Baş katibi Karla Barnet ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb. Görüşdə Azərbaycan və CARICOM arasında əməkdaşlıq perspektivləri, habelə ölkəmizin COP29 sədrliyi çərçivəsində həyata keçirilə biləcək təşəbbüslər müzakirə olunub.

Nazir Ceyhun Bayramov CARICOM tərəfindən ölkəmizə ilk səfərin Azərbaycanın Birliklə əməkdaşlığının inkişaf etdirilməsi üçün yaxşı fürsət olduğunu qeyd edərək, əməkdaşlıq üçün mövcud imkanların müzakirəsi baxımından bu kimi təmasların artırılmasının vacibliyini diqqətə çatdırıb. Xüsusilə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə ölkəmiz tərəfindən 20 kiçik ada dövləti daxil olmaqla, ümumilikdə 80-dən artıq ölkəyə humanitar yardım göstərildiyi, bu ölkələr sırasında CARICOM-a üzv 12 dövlətin də olduğu qeyd edilib. Azərbaycan və CARICOM-a üzv dövlətlər, habelə xalqlarımız arasında əlaqələrin inkişaf etdirilməsinin vacibliyi qeyd olunub, bu istiqamətdə təhsil sahəsində əməkdaşlığın, ölkəmiz tərəfindən həyata keçirilən təqaüd proqramlarının əhəmiyyəti diqqətə çatdırılıb. Azərbaycanın COP29 sədrliyi, əsas prioritet və istiqamətlərdən ətraflı bəhs edən nazir Ceyhun Bayramov ölkəmizin təşəbbüslərinə, xüsusilə inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitinin keçirilməsinə göstərilən dəstəyə görə CARICOM-a təşəkkür edib, sədrliyimiz dövründə iqlim dəyişikliyi ilə mübarizə sahəsində daha yaxından əməkdaşlıq etməyə hazır olduğumuzu bildirib.

Baş katib Karla Barnet COP29 sədrliyinin kifayət qədər mürəkkəb və məsuliyyət tələb edən platforma olmasına baxmayaraq, ölkəmiz tərəfindən sessiyanın yüksək səviyyədə təşkil olunduğunu qeyd edib və bu münasibətlə ölkəmizi təbrik edib, sədrlik dövründə uğurlar arzu edib. Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ceyhun Bayramov Maldiv Respublikasının xarici işlər naziri ilə görüşüb

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Maldiv Respublikasının xarici işlər naziri Abdulla Xəlil ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, görüş zamanı Azərbaycan və Maldiv arasında bir sıra, o cümlədən iqtisadi, investisiyalar, turizm, humanitar və s. sahələr üzrə əməkdaşlıq perspektivləri, habelə COP29 sədrliyimizdən irəli gələn məsələlər müzakirə edilib. Nazir Ceyhun Bayramov COP29 çərçivəsində Maldiv Respublikasından ölkəmizə yüksəksəviyyəli nümayəndə heyətinin səfərinin əhəmiyyətini qeyd edərək, bu kimi təmasların ikitərəfli və çoxtərəfli əməkdaşlıq perspektivlərinin müzakirəsi baxımından vacib olduğunu diqqətə çatdırıb. Ölkələrimiz arasında iqtisadiyyat, investisiyalar, ticarət istiqamətləri üzrə əməkdaşlığın mühüm perspektivlərinin mövcud olduğu, bu imkanlardan istifadə etməklə qarşılıqlı ticarət dövriyyəsinin artırılmasının əhəmiyyəti vurğulanıb. Xalqlarımız arasında qarşılıqlı təmasların gücləndirilməsi baxımından turizm sahəsində mövcud imkanların nəzərdən keçirilməsinin, qarşılıqlı viza sadələşdirilməsi məsələlərinə baxılmasının vacibliyi qeyd olunub. Nazir Ceyhun Bayramov həmçinin COP29 sədrliyimiz barədə qarşı tərəfi ətraflı məlumatlandırıb, sədrlik dövründə qarşılıqlı faydalı əməkdaşlıq edəcəyimizə dair inamını ifadə edib. Nazir Abdulla Xəlil Azərbaycanı COP29-a sədrliyi münasibətilə təbrik edib, ölkəmizin iqlim dəyişikliyi ilə mübarizə səylərinə rəhbərliyində uğurlar arzu edib. Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Daha sonra nazirlər arasında "Azərbaycan Respublikası Hökuməti ilə Maldiv Respublikası Hökuməti arasında diplomatik, xidməti və rəsmi pasport sahiblərinin qarşılıqlı viza tələbindən azad edilməsi haqqında Saziş" və "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Maldiv Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun imzalanması baş tutub.

# COP29 enerji təşəbbüsləri rəsmi olaraq elan edilib

**COP29 sədrliyi tərəfindən beynəlxalq iqlim konfransının Enerji Günü çərçivəsində COP29-un enerji təşəbbüsləri üzrə nazirlər görüşü keçirilib. Tədbirdə üç mühüm enerji təşəbbüsü - COP29 qlobal enerji saxlama və şəbəkələr vədi, COP29 "yaşıl enerji" vədi: "Yaşıl enerji" zonaları və dəhlizləri və COP29 Hidrogen Bəyannaməsi rəsmi olaraq təqdim edilib.**




COP29 qlobal enerji saxlama və şəbəkələr vədi 2030-cu ilə qədər qlobal enerji saxlama sistemlərinin 1 500 QVt gücünə çatdırılmasını və 25 milyon kilometr, 2040-cı ilə qədər isə əlavə 65 milyon kilometr elektrik şəbəkəsinin qurulması və ya təmiri öhdəliyini daşıyır. Bu vəd bərpaolunan enerji mənbələrinin istifadəsini təşviq edərək qlobal enerji sistemlərinin dayanıqlılığını təmin etmək məqsədinə xidmət edir.

COP29 "yaşıl enerji" zonaları və dəhlizləri vədi çərçivəsində qitələrarası və regionlararası "yaşıl enerji" zonalarının yaradılması nəzərdə tutulur. Bu təşəbbüs BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə uyğundur və iqtisadi inkişafı təşviq edir, resurslardan səmərəli istifadəni dəstəkləyir.

Hidrogen haqqında COP29 Bəyannaməsi isə təmiz hidrogen istehsalının artırılması, mövcud hidrogen istehsalında karbon tullantılarının sıfıra endirilməsi istiqamətində qlobal səyləri gücləndirməyə çağırır. Bu təşəbbüs "yaşıl iqtisadiyyat"a keçid prosesində qlobal bazarı stimullaşdırmaq və beynəlxalq standartların inkişafına dəstək vermək məqsədini daşıyır.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən energetika naziri Pərviz Şahbazov deyib: "Dünyanın iqlim və enerji yolunda taleyüklü bir mərhələyə daxil olduğu bir vaxtda, Azərbaycanın "yaşıl enerji" zonaları, "yaşıl enerji" dəhlizləri, enerji saxlama, şəbəkə infrastrukturu və hidrogen sahəsindəki təşəbbüsləri qlobal iqlim hədəflərinə çatmaq üçün həlledici rol oynayır. Bu təşəbbüslər Azərbaycanı bərpaolunan enerjinin inkişafı və ixracında lider mövqeyə yüksəltməklə yanaşı, genişmiqyaslı ötürmə, uzaq potensial enerji mənbələrinin istehlak mərkəzləri ilə əlaqələndirilməsi, enerji təchizatı ilə tələbat arasında tarazlığın təmin edilməsi və böyük həcmdə "yaşıl enerji" güclərinin şəbəkəyə inteqrasiyası ilə qlobal miqyasda təmiz enerjinin inkişafını sürətləndirmək üçün unikal imkanlar yaradır. COP29 hər birimizi bu öhdəliklərə qoşulmağa, enerji keçidimizi və iqlim fəaliyyətimizi gücləndirməyə və dünyamız üçün davamlı bir gələcək qurmaq naminə birliyə çağırır. Gəlin, COP29-u əlamətdar bir dönüş nöqtəsinə çevirək və qlobal iqlim və enerji səylərimizi yeni zirvələrə qaldıraq".

COP29 çərçivəsində qlobal səviyyədə enerji sektorunun karbonsuzlaşdırılması səylərinə dəstək məqsədilə hazırlanmış və qlobal iqlim hədəflərinə uyğun olaraq istixana qazı tullantılarının azaldılmasını hədəfləyən bu təşəbbüslər bir sıra beynəlxalq təşkilatlarla, o cümlədən IRENA, IEA, UNIDO, UNECE və UNESCAP ilə əməkdaşlıq çərçivəsində formalaşdırılıb.

Nazirlər görüşündə ABŞ-nin energetika naziri Cennifer Qranholm, Avropa İttifaqının (Aİ) energetika məsələləri üzrə komissarı Kadri Simson da daxil olmaqla 20-dən çox ölkə, 16 beynəlxalq təşkilat və maliyyə institutları təmsil olunub.

# Ölkəmizdə səfərdə olan xarici media nümayəndələri üçün mediatur təşkil edilib





**Noyabrın 15-də Medianın İnkişafı Agentliyi və COP29 Əməliyyat Şirkətinin birgə təşkilatçılığı ilə ölkəmizdə səfərdə olan xarici media nümayəndələri üçün mediatur təşkil olunub.**



Medianın İnkişafı Agentliyindən AZƏRTAC-a bildiriblər ki, mediatur qədim zamanlardan bu günədək Azərbaycan tarixini əks etdirən Milli Azərbaycan Tarixi Muzeyindən başlayıb. Xarici jurnalistlər muzeyin ekspozisiyası, ölkəmizin keçmişini özündə canlandıran müxtəlif arxeoloji, etnoqrafik materiallar və eksponatlarla yaxından tanış olublar.

Heydər Əliyev Mərkəzində davam edən turda xarici media nümayəndələrinə mərkəzin fəaliyyəti haqqında ətraflı məlumat verilib. "Azərbaycan inciləri" sərgisi ilə də tanış olan qonaqlara burada ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatların nümayiş etdirildiyi bildirilib.

Sonda XII əsrə aid divarlarla əhatə olunmuş, Şərq memarlığı və tarixi ilə zəngin, UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş İçərişəhər ziyarət olunub. Tur zamanı jurnalistlərə qeyri-adi memarlıq özəllikləri ilə seçilən Qız qalası və Bakının tarixi tikililəri arasında mühüm yer tutan Şirvanşahlar Sarayı Kompleksi də daxil olmaqla, İçərişəhərin qədim küçələri və abidələri barədə geniş məlumat verilib.

# COP29 çərçivəsində "Karbon idarəçiliyi" mövzusunda nazirlərin görüşü keçirilib

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Sazişinin Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Karbon idarəçiliyi" mövzusunda nazirlərin görüşü keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən müxtəlif xarici dövlətlərin rəsmiləri qeyd edib ki, karbon idarəçiliyi qlobal istiləşmə ilə mübarizənin və planetin temperaturunun 1,5 dərəcə səviyyəsində saxlamağın açarıdır.

İştirakçılar bildiriblər ki, COP29 sədrliyi tərəfindən iqlim fəaliyyəti ilə dayanıqlı inkişaf məqsədləri arasında əlaqəni ehtiva edən, "yaşıl enerji" dəhlizləri, "yaşıl enerji" saxlancları, iqlim dayanıqlılığı üçün harmoniya, təmiz hidrogen, orqanik tullantılarda metanın azaldılması, yaşıl rəqəmsal fəaliyyət və digər mövzuları əhatə edən 14 təşəbbüs irəli sürülüb.

"İqlim maliyyəsinin yaradılması əsas prioritet olmaqla yanaşı, hamını bir araya gətirməklə 1,5°C öhdəliyinin yerinə yetirilməsinə töhfə verəcək", - xarici dövlətlərin rəsmiləri bildiriblər.

Qeyd edilib ki, Dünya Bankının ESMAP proqramı vasitəsilə Təmiz Enerji İnnovasiya Proqramının bir hissəsi olan Sənaye Dekarbonizasiyası Fondu inkişaf etməkdə olan ölkələrdə təmiz enerji innovasiyalarını təkmilləşdirməyi hədəfləyir. Bildirilib ki, proqram enerji təhlükəsizliyini yaxşılaşdıracaq və emissiyaları azaldacaq, təmiz enerji texnologiyalarının inkişafına kömək edəcək.

COP29 Baku Azerbaijan

# COP29 çərçivəsində Enerji keçidi üzrə İnvestisiya Forumu keçirilib

**Energetika Nazirliyi və Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (IRENA) tərəfindən regionda bərpaolunan enerjinin tətbiqini sürətləndirmək və "yaşıl sənaye"ləşməni təşviq etmək məqsədilə Mərkəzi Asiyada Enerji keçidi üzrə İnvestisiya Forumu keçirilib.**






AZƏRTAC xəbər verir ki, COP29 çərçivəsində təşkil edilən forumda Azərbaycanla yanaşı, Qazaxıstan, Qırğız Respublikası, Tacikistan, Özbəkistan və Birləşmiş Ərəb Əmirliklərindən olan nazirlər, nazir müavinləri iştirak ediblər.

Forumda Mərkəzi Asiya ölkələrində artan enerji tələbatını ödəmək, enerji mənbələrinin müxtəlifliyini təmin etmək, iqtisadi artımı dəstəkləmək və iqlim məqsədlərinə nail olmaq üçün "yaşıl enerji"dən istifadəni artırmağın yolları müzakirə edilib. Bu məqsədlərə çatmaq istiqamətində "Mərkəzi Asiyada Sürətləndirilmiş Bərpa Olunan Enerji Tərəfdaşlığı" (APRECA) adlı proqram təsis edilib. Proqram Mərkəzi Asiya ölkələrinin potensialını səfərbər edərək regional əməkdaşlıq çərçivəsində investisiyaların genişləndirilməsini, regionlararası əlaqələrin gücləndirilməsini və sosial-iqtisadi faydaların artırılmasını hədəfləyir.

Energetika naziri Pərviz Şahbazov qeyd edib ki, Mərkəzi Asiya üzrə Enerji Keçidi İnvestisiya Forumu regionda dayanıqlı enerji transformasiyasını sürətləndirmək, bərpaolunan enerji sahəsində əməkdaşlığı dərinləşdirmək və strateji layihələrin reallaşdırılması üçün investorları cəlb etmək baxımından mühüm platformadır: "Azərbaycan Mərkəzi Asiya ölkələri ilə "yaşıl enerji" keçidində güclü əməkdaşlığa böyük önəm verir. Bu çərçivədə ölkələrimizin enerji təhlükəsizliyini və enerji təchizatında strateji mövqeyini gücləndirmək üçün Mərkəzi Asiya-Azərbaycan "Yaşıl Enerji" Dəhlizinin qurulması istiqamətində işbirliyinə başlamışıq. COP çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında imzalanan "yaşıl enerji" tərəfdaşlığı sazişi, Səudiyyə Ərəbistanın üçtərəfli layihəyə qoşulması bu istiqamətdə atılan strateji addımlardan biridir və beynəlxalq enerji əməkdaşlığına, "yaşıl investisiya"ların cəlbinə güclü təkan verəcək. Biz bu forum vasitəsilə bütün investorları və potensial tərəfdaşları bu tarixi dəyişikliyin bir hissəsi olmağa dəvət edirik".

IRENA-nın baş direktoru Francesco La Camera bildirib ki, Mərkəzi Asiya XXI əsr iqtisadiyyatının ön sıralarında mövqe tutmaq və sürətlə dəyişən enerji mənzərəsində özünü göləcəyə hazırlamaq üçün həm bərpaolunan enerji, həm də kritik mineral resurs potensialına malikdir. O əlavə edib ki, APRECA regionun öz potensialını səfərbər etməsi üçün hərtərəfli, ölkələrin rəhbərlik etdiyi, ambisiya, planlaşdırma və icranı birləşdirən mühüm bir fürsət təqdim edir.

Forum Mərkəzi Asiyada enerji keçidinə dair investisiya və maliyyə siyasətləri, maliyyə ehtiyacları və prioritetləri, iqlim maliyyəsi üçün çərçivələr və digər maliyyə alətlərinə dair müzakirələrlə iki gün davam edəcək. Keçiriləcək xüsusi sessiyalar arasında Enerji Keçidlərinə dair Maliyyələşdirmə Dialoqu, IRENA-nın Mərkəzi Asiya üçün Layihə Asanlaşdırma Alətləri üzrə İnteraktiv Sessiyası və Mərkəzi Asiya üzrə Regional Seminar yer alır. Hər bir sessiya iştirakçılara maliyyələşdirmə sahəsində innovativ həll yolları və ən yaxşı təcrübələr haqqında geniş məlumatlar təqdim edəcək.

# Qlobal "Yaşıl artım portalı" təqdim edilib

**COP29 çərçivəsində İqtisadiyyat Nazirliyinin və Harvard Universitetinin "Growth Lab" Beynəlxalq İnkişaf Mərkəzi arasında əməkdaşlıq əsasında hazırlanmış qlobal "Yaşıl artım portalı"nın təqdimatı keçirilib.**




AZƏRTAC xəbər verir ki, tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov portalın dayanıqlı inkişafa nail olmaq üçün qlobal əməkdaşlıqda əhəmiyyətini vurğulayıb. Bu təşəbbüs vasitəsilə iqtisadiyyatda "yaşıl keçid" strategiyalarının fundamental tədqiqatlara əsaslanacağı diqqətə çatdırılıb. Qeyd olunub ki, "Yaşıl artım portalı" qlobal enerji keçidi iştirakçılarına hər bir ölkənin "yaşıl inkişaf" imkanlarını müəyyən etməyə və ondan faydalanmağa kömək edəcək.

İqtisadiyyat naziri iqlim məsələlərinin iqtisadi planlaşdırmada əhəmiyyətindən danışaraq qeyd edib ki, iqtisadi planlaşdırma siyasətlərinin və təchizat zəncirinin inteqrasiyasına ehtiyac var və bu məsələ COP prezidentliyinin büdcələri və əhatə dairəsi ilə irəli sürülən təşəbbüslərdə öz əksini tapıb.

SOCAR-ın vitse-prezidenti Kənan Nəcəfov şirkətin "xalis sıfır" hədəfi götürdüyünü vurğulayıb. Bu məqsədlə karbonsuzlaşma, enerji keçidi və aşağı karbon həllərinin tətbiqi üzrə görülən işlər barədə məlumat verilib. Yeni portalın SOCAR-ın enerji transformasiyasına da töhfə verəcəyi qeyd olunub.

Harvard Universitetinin "Growth Lab" Beynəlxalq İnkişaf Mərkəzinin təsisçisi və direktoru Rikardo Hausmanın tədbir iştirakçılarına videomüraciəti dinlənilib. Qlobal iqlim dəyişikliyi ilə mübarizədə karbon emissiyalarının azaldılmasının, bərpaolunan enerjinin təşviqinin mühüm rolu vurğulanıb. "Yaşıl artım portalı"nın "yaşıl texnologiya" üzrə təchizat zəncirləri və texnoloji həllərin sistemləşdirilməsi vasitəsilə "yaşıl keçid"in iqtisadi faydalarını maksimum dərəcədə artırmağı hədəflədiyi qeyd olunub.

"Growth Lab" Beynəlxalq İnkişaf Mərkəzinin baş tədqiqat meneceri Timoti Çeston "Yaşıl artım portalı" barədə iştirakçılara məlumat verib. Onlayn portalın Harvard Universitetinin 250 ölkə və iqtisadi regionu, həmçinin 1,7 milyon istifadəçini əhatə edən "İqtisadi Mürəkkəblik Atlası"na (Atlas of Economic Complexity) inteqrasiyası nəzərdə tutulub. Burada beynəlxalq təşkilatlar və müxtəlif ölkələrdən əldə edilən məlumatlara əsasən hazırlanmış təhlillər və müqayisəli məlumat bazaları öz əksini tapacaq.

Layihənin 2025-ci ildə tam olaraq fəaliyyətə başlaması planlaşdırılır. Portaldan istifadə ödənişsiz olacaq.

Dövlət, özəl sektor, beynəlxalq təşkilatlar, biznes assosiasiyaları, akademik dairələr və maliyyə institutlarının nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə fikir mübadiləsi aparılıb və suallar cavablandırılıb.

# Esvatininin Baş naziri "ASAN xidmət"də olub

**Esvatini Krallığının Baş naziri Drossel Mmiso Dlamini "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub.**



O, Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak məqsədilə Azərbaycanda səfərdədir.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev ona Dövlət Agentliyinin müxtəlif fəaliyyət istiqamətləri, o cümlədən Prezident İlham Əliyevin təşəbbüsü əsasında yaradılmış "ASAN xidmət" mərkəzləri və sosial innovasiyalar istiqamətində həyata keçirilən layihələr barədə ətraflı məlumat verib.

Baş nazir "ASAN xidmət" təcrübəsinin öyrənilməsində, burada həyata keçirilən yeniliklərin ölkəsində də tətbiqində maraqlı olduğunu bildirib. Bununla əlaqədar yaxın müddətdə anlaşma memorandumunun imzalanacağı diqqətə çatdırılıb.

Drossel Mmiso Dlamini "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, Səyyar ASAN xidmət, "ABAD" publik hüquqi şəxsin fəaliyyəti ilə də yaxından tanış olub.

# İqlim dəyişikliyi ilə mübarizəyə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi müzakirə olunub
















**Bakıda COP29 çərçivəsində müxtəlif ölkələrin hüquq-mühafizə orqanlarının iştirakı ilə "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksəksəviyyəli sessiya keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə baş prokuror Kamran Əliyev, COP29-un prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Baş nazirinin müavini, daxili işlər naziri Şeyx Saif bin Zayed əl-Nəhyan və digər rəsmilər iştirak ediblər.

Azərbaycan Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsinin (BMTNCİ) təşkil etdiyi, həmçinin BƏƏ Daxili İşlər Nazirliyinin həmsədri olduğu sessiyada ölkə rəsmiləri ekoloji cinayətlər üzrə aparılan tədbirlər barədə məlumat veriblər.

K.Əliyev və M.Babayev Azərbaycanda hüquq-mühafizə orqanlarının ekoloji cinayətlərə qarşı mübarizəsinə toxunublar.

Rusiyanın baş prokuroru İqor Krasnov ölkəsinin ekoloji hadisələrlə bağlı gördüyü işlər barədə məlumat verib, hüquq-mühafizə orqanlarının birgə səylərinin vacibliyi bildirilib.

Braziliyanın baş prokuroru Hindenburq Çatebriand bildirib ki, ölkəsi də iqlim dəyişikliyindən əziyyət çəkir. O, ətraf mühitin qorunması, bu məqsədlə təşəbbüslərin irəli sürülməsinə töhfə vermək üçün çağırış edib.

Keniyanın baş prokuroru, Afrika Prokurorlar Assosiasiyasının prezidenti Renson İnqonqa ölkəsində müşahidə edilən iqlim dəyişikliyi ilə bağlı problemlərdən danışıb. "Interpol"un rəhbəri Əhməd Nasir əl-Rəisi ətraf mühitin qorunması üçün qlobal tədbirləri gücləndirməyin əhəmiyyətini vurğulayıb, hüquq-mühafizə orqanlarının bu işdəki rolundan bəhs edib.

Avropa Şurasının İnsan hüquqları və qanunun aliliyi üzrə direktoru Gianluka Esposito çıxışında ekoloji cinayətin bir ölkəyə deyil, bütün dünyaya təsir göstərdiyini deyib. Ona görə də qurumların əməkdaşlığı vacibdir.

Baş prokuror Kamran Əliyev sonda bütün tədbir iştirakçılarına təşəkkür edib: "Təşəbbüslərimizi daha da birləşdirməliyik. Cəmiyyətin qanunlarını da, təbiətin qanunlarını da pozmaq cinayətdir. Qlobal cameə olaraq Bakıda toplanmağımız önəmlidir".

# "SOCAR-da dekarbonizasiya üzrə tərəqqi: çətinliklər və nailiyyətlər" mövzusunda tədbir keçirilib

**Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "SOCAR-da dekarbonizasiya üzrə tərəqqi: çətinliklər və nailiyyətlər" mövzusunda tədbir keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycanın iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov, SOCAR-ın prezidenti Rövşən Nəcəf, SOCAR-ın vitse-prezidenti Əfqan İsayev, Boston Consulting Group (BCG) Xəzər regionu və MBD üzrə icraçı direktoru Anton Kosach, Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankının region direktoru Hayaşi Nobimitsu və başqaları iştirak ediblər.

İqtisadiyyat naziri M.Cabbarov çıxış edərək nəzərə çatdırıb ki, Azərbaycan dövləti karbonsuzlaşdırmanı enerji siyasətinin prioritet sahəsi hesab edir və atmosferə karbon qazının atılmasının azaldılması istiqamətində irimiqyaslı tədbirlər həyata keçirir: "Bu tədbirlər sırasında "yaşıl enerji"yə keçidi qeyd etmək olar. "Yaşıl enerji"yə keçid üçün Azərbaycanın böyük potensialı var. Bu potensialdan istifadə həm daxili tələbatı ödəməyə, həm də əldə olunan "yaşıl enerji"ni ixrac etməyə imkan verir. Hazırda işğaldan azad edilən Qarabağda "yaşıl enerji" istehsalı üçün genişmiqyaslı işlər görülür. Hazırda Azərbaycan nəinki "yaşıl enerji" istehsalı üzərində çalışır, eyni zamanda "yaşıl enerji"nin Avropaya ixracı üçün Özbəkistan və Qazaxıstan kimi ölkələrlə yaxın əməkdaşlıq edir. Bu ölkələrin də geniş "yaşıl enerji" istehsalı potensialı var. Azərbaycan Mərkəzi Asiyadakı partnyorları ilə Xəzər dənizinin dibi ilə kabel çəkib bu region ölkələrində istehsal olunan enerjini tranzit olaraq Avropaya ixrac etməyi planlaşdırıb. COP29 çərçivəsində hər 3 dövlət bu barədə sənəd imzaladı. Bu əməkdaşlıqla Xəzər dənizi ilə Qara dəniz arasında geniş enerji dəhlizi yaradılacaq".

SOCAR-ın prezidenti R.Nəcəf isə çıxışında bildirib ki, enerji transformasiyasına nail olmaq üçün şirkət sərmayə yatırmağa və "yaşıl enerji" istehsalını artırmağa çalışır: "Bu istiqamətdə beynəlxalq təşkilatlar və təcrübəli şirkətlərlə əməkdaşlıq əlaqələri qurulub".

SOCAR-ın vitse-prezidenti Əfqan İsayev şirkətin enerji transformasiyası istiqamətində həyata keçirdiyi işlərin təqdimatını keçirib.

Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankının region üzrə direktoru Hayaşi Nobimitsu isə bildirib ki, dekarbonizasiyaya nail olmaq üçün iri banklar sərmayə yatırımının həcmini artırmalı, günəş, külək və dağ çayları bol olan ölkələri müəyyən etməlidirlər. Digər çıxış edənlər də karbonsuzlaşmanın azaldılması üçün "yaşıl enerji"yə keçidin zəruri olduğunu bildiriblər. Nəzərə çatdırılıb ki, Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankı bu istiqamətdə Azərbaycan ilə əməkdaşlıq edir: "Azərbaycan kimi təbiəti zəngin olan ölkələr enerji keçidini uğurla başa çatdıra bilərlər. Bu işin müsbət nəticələnməsi üçün həm dövlət, həm də qeyri-dövlət bankları sərmayə yatırmalı və yeni texnologiyalardan səmərəli istifadə etməlidirlər".

Daha sonra müzakirələr baş tutub və məruzəçilər iştirakçıların suallarını cavablandırıblar.

COP29 Baku Azerbaijan

# Kütləvi iştirak, böyük ictimai maraq, peşəkar təşkilatçılıq














## Enerji, Sülh, Relyef və Bərpa Günü

### COP29-un beşinci günü "mavi zona"da dünyanın qlobal problemlərinin həlli istiqamətində vacib panel müzakirələri keçirildi

**COP29-un beşinci günü də bir sıra əhəmiyyətli tədbirlərlə yadda qaldı. "Mavi zona"da diqqətçəkən, fərqlənən Sinqapur pavilyonunda olduq. Pavilyonun mərkəzində Sinqapurun milli çiçəyi olan Vanda Miss Joaquimdən ilhamlanan bir əsər yer alıb. Ondan davamlılıq və innovasiya motivi kimi istifadə olunub.**

3D çap texnologiyası ilə hazırlanmış bu quraşdırmada keçən ilin pavilyonundan təkrar istifadə olunan metaldan hazırlanmış naqillər və təkrar emal edilmiş materiallardan ibarət əsas struktur istifadə olunub. Bu innovativ dizayn texnoloji avtomatlaşdırmanı sənətkarlıqla birləşdirərək proqramlaşdırılan maşın istehsalının "ağıllı" tətbiqlərini və ənənəvi əl qaynağı texnikalarını nümayiş etdirir.

### Tropik yaşıllığın unikal qarışığı

Şəhər infrastrukturu və tropik yaşıllığın unikal qarışığı olan Sinqapur Təbiətdə Şəhər olmaq üçün transformativ səyahətdədir. Bu səyahətə Sinqapur "Yaşıl Planı 2030" vasitəsilə 1,5 dərəcənin canlı saxlanılması daxil olmaqla, iqlim məqsədlərinə nail olmaq üçün davamlı öhdəlik daxildir. Bundan əlavə, Sinqapur dekarbonizasiya və iqlimə uyğunlaşma sahəsində innovativ həllər hazırlamaq üçün canlı iqlim aktorları şəbəkəsi ilə işləyir. İnsanları, ideyaları və hərəkətləri birləşdirən etibarlı tərəfdaş kimi Sinqapur regional və qlobal əməkdaşlığı inkişaf etdirir. Pavilyonu ziyarət edənlərə Vanda Miss Joaquim çiçəyinin nişanı hədiyyə olunur.

Biz də Sinqapur orxideyasının sehrinə düşərək xeyli müddət pavilyonda qaldıq. Günün proqramına görə təşkil olunan bir sıra sessiyalarda iştirak etdik.

Beynəlxalq konfransın beşinci - Enerji, Sülh, Relyef və Bərpa Günündə "mavi zona" sədrliyində bərpaolunan enerji, relyef istiqamətində vacib panel müzakirələr keçirildi, eyni zamanda pavilyonlarda sessiyalar təşkil olundu.

Tematik günə uyğun olaraq noyabrın 15-də COP29 çərçivəsində Enerji keçidi üzrə İnvestisiya Forumu, İqlim və Sülh mövzusunda Yüksəksəviyyəli panel, "Yaşıl Enerji", Hidrogen və Qlobal Enerji Ehtiyatı və Şəbəkələrinə həsr olunmuş yüksəksəviyyəli "dəyirmi masa", COP29 sədrliyi və Azərbaycan Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə mədəniyyət əsaslı iqlim fəaliyyəti üzrə 2-ci yüksəksəviyyəli nazirlər dialoqu, həmçinin karbon idarəçiliyi mövzusunda nazirlərin görüşü və digər tədbirlər baş tutdu.

### Gələcəyin təhdidlərinə qarşı əməli addımlar atılır

Azərbaycanın COP29 sədrliyi çərçivəsində yaradılmış Birgə Təşəbbüs- Azərbaycan, Misir, Almaniya, İtaliya, Uqanda, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya və Beynəlxalq Miqrasiya Təşkilatının birgə təşkilatçılığı ilə "İqlim və Sülh: heç kimi arxada qoymamaq naminə birgə fəaliyyət" adlı yüksəksəviyyəli panel iclasında Azərbaycanın səyləri gələcəyin təhdidlərinə qarşı əməli addımlar kimi yüksək qiymətləndirilərək, ölkəmizin təşəbbüslərinə dəstək ifadə edildi. Qeyd olundu ki, Bakı COP-u iqlim dəyişikliyi ilə mübarizə sahəsindəki işlərdə həqiqətən də, irəliləyişlərə nail oldu.

Çin pavilyonunda günümüzdə üstünlük verilən elektrikli avtomobillərin gələcəyi, istifadəsinin genişləndirilməsinin ətraf mühitə təsirləri barədə müzakirələr də aparıldı. Azərbaycan hökuməti tərəfindən elektromobillərə keçid istiqamətində son illərdə bir çox stimullaşdırıcı tədbirlər görülüb. Nəticədə, yeni nəsil elektrik avtomobillərdən istifadə genişlənib. Paytaxtda, eyni zamanda regionlarda bu tip maşınlar üçün şarj stansiyalarının da sayı artırılıb.

### "Uşaqların sağlamlığı naminə təmiz hava"

Həmçinin COP29 ərəfəsində ölkəmizə yeni elektrik avtobusları və taksiləri gətirilib. Həmin ekobuslar Çin istehsalı olan elektrik mühərrikli BYD markalı avtobus və TX5 markalı taksi nəqliyyat vasitələridir. Müzakirələrdə elektrik avtobusları ilə bağlı Azərbaycan və Çin arasında əməkdaşlığın dərinləşməsi, inkişafı məsələlərinə də toxunuldu. Azərbaycan ekoavtobusların və taksilərin sayının artırılması istiqamətində gələcəkdə də belə şirkətlərlə əməkdaşlıqda maraqlıdır. Karbon emissiyasının azaldılmasının qlobal hədəfə çevrildiyi bir vaxtda Azərbaycan buna çatmaq üçün prioritetlərini müəyyənləşdirib. "Yaşıl texnologiya"lardan istifadə bu istiqamətdə atılan addımlardandır. Ekobus layihəsi isə "yaşıl texnologiya"lardan istifadənin genişləndirilməsi məqsədi daşıyır.

Bundan başqa, COP29 məkanında ərazicə ən böyük Azərbaycan pavilyonunda da bir sıra diqqətçəkən sessiyalar və tədbirlər keçirildi.

Bu pavilyonda keçirilən tədbirlər tematik günə uyğun olaraq təşkil edilmişdi. Əsas mövzular "yaşıl iqtisadiyyat", bərpaolunan enerji, təmiz hava idi.

Azərbaycan pavilyonunda baş tutan, günümüzün aktual mövzularından birinə həsr olunan tədbirlərdən biri də "İqlim və sülh təşəbbüsü" çərçivəsində Beynəlxalq Beyin Mərkəzlərinin birinci toplantısı idi. Bundan başqa, pavilyonda gələcəyimiz olan uşaqlar üçün "Uşaqların sağlamlığı naminə təmiz hava" mövzusunda IDEA və Təmiz Hava Fondu tərəfindən sessiya keçirildi.

Beləliklə, Bakı COP-u daha uğurlu bir günü geridə qoydu. Qarşıdakı günlərdə də tematik gündəliyə uyğun həm "yaşıl", həm də "mavi zona"nın gündəliyini əhatə edən plenar iclas və sessiyalar keçiriləcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*































COP29 Baku Azerbaijan

# Beynəlxalq media COP29-dan yazır

# "Dünyanı birləşdirən Azərbaycan"

**Azərbaycanda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçirilir. Dövlətimiz bu mötəbər tədbiri yüksək səviyyədə təşkil edib. Azərbaycanın belə nəhəng tədbirləri təşkil etmək üçün müasir infrastruktura və təhlükəsizliyə malik olması dünya ictimaiyyətinin diqqətindən yayınmır.**

Dünyanın nüfuzlu aparıcı media orqanlarında yayımlanan məqalələr və reportajlarda qeyd olunur ki, Bakıda keçirilən tədbir qlobal iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verəcək xüsusi hadisələr və təşəbbüslərlə yadda qalmaqdadır. Onlardan bəzilərini təqdim edirik.

Tanınmış politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham baş qərargahı Nyu York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının **"Foreign Policy Association"** saytında dərc olunmuş "COP29 siyasiləşdirilməməlidir" başlıqlı məqaləsində yazıb ki, dünyanın iqlimlə bağlı ciddi təhlükələrlə üzləşdiyi şəraitdə beynəlxalq ictimaiyyət nəzərini məhz bu məsələlərə yönəltməli, başqa məsələlərlə diqqəti yayındırmamalıdır.

Vurğulanıb ki, Azərbaycanın keçmişdə Ermənistanla hərbi münaqişədə olması indiki vəziyyətə təsir etməməlidir. Vacib olan odur ki, hazırda iki ölkə arasında münaqişənin yekun həlli üçün sülh prosesi gedir. Azərbaycan öz qonşuları ilə sülh şəraitində ümumi rifah naminə, "yaşıl gələcək" qurmaqda qərarlıdır. Bildirilib ki, hazırda Azərbaycana təzyiq etmək sözügedən sülh prosesini irəlilətmir və eyni zamanda ABŞ-nin regiondakı maraqlarına ziddir, çünki iqlim dəyişikliyi kimi çox vacib məsələlərdə Azərbaycan və ABŞ arasındakı strateji əməkdaşlığa xələl gətirir. Yazıda həmçinin qeyd olunub ki, sözügedən davranışla ABŞ konqresmenləri beynəlxalq ictimaiyyətin iqlim dəyişikliyinin həll yollarını axtaracağı mühüm konfransı siyasiləşdirirlər. Azərbaycanın belə bir qlobal əhəmiyyətli tədbirə evsahibliyi etməsi ona siyasi təzyiq üçün istifadə olunmamalıdır.

**"Reuters" agentliyi** Bakının evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) birinci günü ilə bağlı reportaj yayımlayıb. Reportajda Bakı Olimpiya Stadionunun COP29-un əsas məkanı olduğu, 200-dək ölkənin tədbirdə dövlət və hökumət başçıları, ekspertlər və digər nümayəndələrlə təmsil edildiyi bildirilir. Qeyd edilib ki, iştirakçılar karbon qazı emissiyalarının məhdudlaşdırılması və qlobal istiləşmə səviyyəsinin azaldılması yollarını müzakirə edəcəklər. Agentliyin müxbirinin hazırladığı xüsusi reportajda qeyd edilib ki, COP29-da təbii fəlakətlər və əhalinin üzləşdiyi təhlükəsizlik böhranları ilə mübarizə aparmaq üçün maliyyə yardımını ildə 20 milyard dollardan çox artırmağa çalışılır.

İngiltərənin məşhur **"The Guardian" nəşri** isə dərc etdiyi məqalədə qeyd edilib ki, COP29 iqlim sammitində ölkələr bazar ertəsi günü istixana qazı emissiyalarını azaldan layihələri maliyyələşdirəcək BMT-nin dəstəklədiyi qlobal karbon bazarının işə salınması üçün vacib olan karbon krediti keyfiyyət standartlarına icazə verdilər.

Meksikanın ən çox oxunan nəşrlərindən olan **"El Universal" qəzetində** Bakının evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ilə bağlı məqalə dərc edilib. Manşetdə təqdim edilən məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin çıxışına xüsusi yer ayrılıb, orada səslənən fikirlər maraqla qarşılanıb. Prezident İlham Əliyevin və BMT-nin Baş katibi Antonio Quterreşin COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışlarına istinad edilərək "yaşıl enerji"yə keçid zamanı karbohidrogen ehtiyatlarına malik inkişaf etməkdə olan ölkələrin üzləşdiyi reallıqdan bəhs edilib.

Yazıda Prezident İlham Əliyevin sözlərinə istinadla qeyd edilib ki, neft və qaz Tanrının bəxş etdiyi təbii sərvətdir və ölkələr malik olduqları təbii sərvətlərə görə günahlandırılmamalı və onları bazara çıxardıqlarına görə suçlanmamalıdır. Dövlətimizin başçısının çıxışından sitat gətirilərək, Avropa İttifaqının özünün bundan iki il əvvəl qaz ixracının ikiqat artırılmasını tələb etdiyi bildirilib.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitində iştirakı zamanı Küveyt Dövlətinin vəliəhdi Şeyx Sabah Xalid əl-Həməd əl-Sabahın Azərbaycan Prezidenti İlham Əliyev ilə noyabrın 12-də görüşü, sözügedən sammitdə Küveyt vəlihəhdin çıxışı, habelə onun küveytli danışıqçılar qrupu ilə toplantısı bu ölkənin aparıcı media orqanlarında - **"əl-Nahar", "əl-Qabas", "əl-Siyasə", "əl-Ray", "əl-Ənba",** ingilis dilində nəşr olunan "**Times-kuwait" qəzetlərində, www.q8-press.com** və **dasmannews.com elektron xəbər portallarında,** habelə onların sosial şəbəkələrdəki səhifələrində geniş işıqlandırılıb.

**"Kuwaittimes" qəzeti** yazıb ki, COP29-un prezidenti Muxtar Babayev ambisiyaları artırmaq, 1,5 dərəcə hədəfinə nail olmaq və iqlim dəyişmələrinə qarşı fəaliyyətə imkan yaratmaq üçün konfransın aydın baxışa malik olduğunu diqqətə çatdırıb. Bildirilib ki, Küveytin kritik iqlim problemlərinin həllində səyləri yüksək qiymətləndirib. Qeyd olunub ki, Azərbaycan noyabrın 22-dək davam edəcək COP29 konfransına evsahibliyi edir və burada əsas prioritet iqlimin maliyyələşdirilməsi üçün yeni hədəfin razılaşdırılması olacaq.

**"Arabtimes" qəzetində** isə qeyd edilib ki, COP29 iqlim dəyişikliyi ilə mübarizəyə yönəlmiş siyasətlərin müzakirəsi və həyata keçirilməsi üçün əvəzsiz platformadır. Dünyanı birləşdirən Azərbaycanda konfransın iştirakçıları iki həftə ərzində qlobal dekarbonizasiya hədəfi üçün yeni maliyyə resursları barədə müzakirələr aparacaqlar. COP29-un əsas məqsədləri sırasında istixana qazlarının emissiyalarının azaldılması, qlobal istiləşmənin dramatik təsirlərinə uyğunlaşmaqda ən həssas ölkələrə dəstək olmaq üçün yeni maliyyələşdirmə mexanizmlərinin yaradılması var. Konfrans bir çox bölgədə təbii fəlakətlərə təkan verən qlobal temperaturun həyəcanverici artımına cavab vermək üçün unikal fürsət kimi qiymətləndirilib.

**"Əl-Cəridə" qəzetində** isə dünya liderlərinin COP29 konfransında toplaşdıqları barədə xəbərlər diqqət çəkib. BMT-nin illik iqlim konfransının inkişaf etməkdə olan ölkələrə istixana qazlarının emissiyalarını azaltmaq və iqlim dəyişikliyinə uyğunlaşmaq üçün yeni maliyyə yardımının hədəflənməsi ilə yekunlaşmalı olduğu vurğulanıb. Bildirilib ki, yeni hədəf 2009-cu ildə qarşıya qoyulan və 2022-ci ildə çətinliklə reallaşdırılan yüz milyard dollarlıq hədəfi əvəz edəcək.

Azərbaycanda COP29 çərçivəsində Solomon adaları sahillərində dünyanın ən böyük mərcanının tapılması ilə bağlı elanın dərci Türkiyə mətbuatında geniş işıqlandırılıb. Qardaş ölkənin media strukturları **"National Geographic" nəşrinin** dəniz bioloqlarının Sakit okeanda tapılan mərcanın yaşının 300 ildən çox, ölçüsünün isə "mavi balina" uzunluğuna çatması ilə bağlı hesablamalarına diqqət çəkib: "Bakıda yeni kəşf. Mərcanın eni 34 metrdir ki, bu da beş tennis kortu ilə müqayisə edilə bilər. Onun diametri 32 metr, hündürlüyü isə 5,5 metrdir. Belə iri mərcanların çoxalma potensialı var ki, bu da onları qlobal istiləşmə şəraitində dağılan qayaların bərpasında mühüm elementə çevirir".

Türkiyənin **"Anadolu" Xəbər Agentliyi, "Haber Türk" qəzeti, "NTV" kanalı** və digər media resurslarında yayımlanan xəbərlərdə qeyd edilir ki, tədqiqatçılar mərcanın sağlam göründüyünü və canlı rənglərə malik olduğunu bildiriblər. Solomon adalarının ətraf mühit naziri Trevor Manemahaqa deyib: "Biz istəyirik ki, dünya bizim ölkənin xüsusi bir bölgədə yerləşdiyini başa düşsün".

Rusiyanın **"Vestnik kavkaza" portalının** hazırladığı məqalədə COP29-da iştirak etmək üçün Bakıya gələn FIFA prezidenti Canni İnfantinonun dəvətə görə Prezident İlham Əliyevə təşəkkür etdiyini oxucularla bölüşüb. Yazılıb ki, funksioner Azərbaycana səfəri ilə bağlı sosial şəbəkə hesabında video paylaşıb. Ali futbol qurumunun rəhbəri bildirib ki, dünya liderlərinin iqlim dəyişikliyi ilə bağlı qlobal problemi həll etmək məqsədilə toplaşdığı COP29-a dəvət almaq onun üçün şərəfdir. C.İnfantino Prezident İlham Əliyev və digər dövlət başçıları, hökumət nümayəndələri ilə planetin, eləcə də futbolun gələcəyi barədə müzakirələr apardığını vurğulayıb: "FIFA beynəlxalq təşkilat olaraq, ətraf mühitin və iqlimin qorunmasına ciddi yanaşır. Biz yüksəkkeyfiyyətli müxtəlif beynəlxalq sertifikatlaşdırılmış layihələrə investisiyalar etməklə iqlimlə bağlı fəaliyyətə dəstək olmaq, eləcə də bu mübarizəyə töhfə vermək məqsədilə proqramlar həyata keçirmişik. Bu tədbirdə iştirak edən hər kəsin ortaq məqsədi var: uşaqlarımız və onların birgə gələcəyi".

Braziliyanın **"Brazil Agent" portalında** yer alan xəbərdə isə qeyd edilib ki, hər bir millətin iqlim dəyişikliyinin azaldılması ilə məşğul olması vacibdir: "Braziliya nəhəng bir ölkədir. Bu səbəbdən düşünürəm ki, biz bu problemlə mübarizədə həll yolları taparaq digər ölkələrlə əməkdaşlıq edə bilərik. Braziliyanın fərqli iqlimi var. Biz kənd təsərrüfatı məsələlərində əməkdaşlıq edərək iqlim dəyişikliyini azalda və yumşaldıcı tədbirlər görə bilərik".

Gürcüstanın **"Gaxa.ge" informasiya portalının** yaydığı materialda deyilir ki, dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən biri hesab edilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında 5-ci gün geridə qalıb. Noyabrın 22-dək Bakı Stadionunda davam edəcək COP29 Azərbaycanın indiyə qədər təşkil etdiyi ən nəhəng tədbirdir və regionda ilk dəfə Azərbaycanda baş tutur. Materiallarda COP29-dan əsas gözləntinin iqlim maliyyəsi ilə bağlı ədalətli və ambisiyalı Yeni Kollektiv Kəmiyyət Hədəfinin (NCQG) razılaşdırılmasından ibarət olduğu qeyd edilir.

*Hazırladı:*
*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*



# Dünya Bakıda birləşir








## COP29 önəmli qərarların alınacağı konfrans kimi tarixə düşəcək

**"Azərbaycanda dünyanın ən mötəbər tədbiri iqlim dəyişmələri ilə bağlı COP29 keçirilir. Bu günlərdə dünyanın nəbzi ölkəmizdə vurur".**

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Tural Gəncəliyev deyib. O vurğulayıb ki, Azərbaycan bu beynəlxalq konfransı Bakıda keçirməklə dünyanın diqqətini bir daha özünə cəlb etdi. Tərəflər Konfransı qlobal, ümumbəşəri problem olan iqlim dəyişiklikləri məsələlərini müzakirə edən platformadır. Bu, elə bir problemdir ki, bütün bəşəriyyət bu problemlərdən əziyyət çəkir və hamını narahat edir. Burada xüsusilə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında illərdir davam edən karbon qazı emissiyalarının atmosferə buraxılması, bu məsələlərlə bağlı məsuliyyətin bölüşdürülməsi məsələləri dayanır. "İqlim dəyişikliyi ilə bağlı məhz Azərbaycanda keçirilən konfrans çərçivəsində taleyüklü qərarların alınması çox önəmlidir. Beləliklə, Azərbaycan dünyanın diqqətini bir daha özünə cəlb etməklə etibarlı tərəfdaş, nüfuzu güclü olan ölkə olduğunu göstərir. Təbii ki, Prezident İlham Əliyevin dünya səviyyəsindəki nüfuzu, ölkəmizin siyasətinə verilən dəyərin nəticəsidir ki, bu konfrans ölkəmizdə keçirilir. Dünya liderləri Azərbaycana səfər edirlər", - deyə deputat əlavə edib.



Siyasətçi qeyd edib ki, Avropa İttifaqında olan bəzi ermənipərəst dairələrin COP29-la bağlı həqarətləri, əsassız bəyanatları onların Azərbaycanın müvəffəqiyyətlərini həzm edə bilməməsindən qaynaqlanır. Azərbaycan öz yolunu seçib, dinamik inkişaf edərək yeni geosiyasi reallıq yaradıb. Dünyanın ən mötəbər tədbirlərinə evsahibliyi edib və yeni güc mərkəzinə çevrilib.

T.Gəncəliyev bildirib ki, COP29 konfransı ilə Azərbaycanın dünya səviyyəsindəki nüfuzu daha da artacaq: "İqlim dəyişiklikləri ilə bağlı konkret təklif və təşəbbüslərlə bu konfransı keçiririk. Dünya buna göz yummamalı, hər kəs bu məsələlərə həssas yanaşmalıdır. Azərbaycanda keçirilən tədbirin önəmli qərarların alınacağı konfrans kimi tarixə düşəcəyinə hər kəs əmindir. Heç kəs yaxasını çəkib kənarda dayanmamalı, hamı məsuliyyətini dərk etməlidir. İspaniyada baş vermiş böyük fəlakət bir daha göstərdi ki, iqlim dəyişikliyi daim gündəmdədir. Odur ki, belə konfransa ehtiyac var".

O qeyd edib ki, alternativ enerji ilə bağlı məsələlərin də konfransda müzakirə edilməsi önəmlidir. Bərpaolunan enerji mənbələrinə ayrılan vəsaitlərin artırılması, bunun xüsusən inkişaf etmiş ölkələrlə yanaşı, inkişaf etməkdə olan ölkələrə münasibətdə tətbiq edilməsi məsələsi baxımından Bakıda keçirilən konfrans böyük əhəmiyyətə malikdir. Ən önəmli isə maliyyə vəsaitlərinin ayrılması və dünya ölkələrinin, ictimaiyyətinin bu məsələlərə etinasız və biganə qalmamasıdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*









## Azərbaycan yaxın gələcəkdə "yaşıl enerji" nəqlində də mühüm tranzit ölkəsi olacaq

**Dünyanın ölkəmizdə keçirilən COP29-dan gözləntiləri çoxdur. Çünki bəşəriyyətin iqlim dəyişikliyi ilə bağlı problemlərinin artması fonunda artıq "dur" deməyin vaxtıdır. Geciksək, planetimizi xilas etmək daha çətin olacaq.**

Bu bəşəri problemin həlli bütün dövlətlərdən və imkanlı şəxslərdən həm də səxavətli olmağı tələb edir. Təmiz ətraf mühit üçün yeni texnologiyalara və müasir texnikalara ehtiyac var. Üstəlik, onlardan istifadə edilməsinə də vəsait xərclənməsi tələb olunur. Mütəxəssislərin hesablamalarına görə, dünyada 1,5 emissiyaya nail olmaq üçün 2050-ci ilə qədər milyardlarla vəsaitin xərclənməsi lazım gələcək.

COP29-un bir məqsədi də bu vəsaitin mənbəyini tapmaqdır. Bununla bağlı BMT və Azərbaycan tərəfi birlikdə çox iş görüb. Məqsədləri bəşəriyyəti xilas etmək üçün onun maddi təminatını yaratmaqdır. Birləşmiş Millətlər Təşkilatı Ətraf Mühit Proqramının nümayəndəsi Erik Peter Uşer deyir ki, COP29 çərçivəsində iqlim dayanıqlığı innovasiyalarının maliyyə sahəsindəki razılaşmadan yüksək nəticələrə nail olacağını gözləyir. BMT-nin nümayəndəsi COP29-la bağlı çox ümidli olduğunu bildirir: "Bu üzdən həmin qitəni təmsil edən ölkələr Azərbaycanda keçirilən COP29-a ümid bağlayıblar. Burada bütün ölkələrdən və bir çox şirkətdən insanlar iqlim məsələlərini müzakirə etmək üçün toplaşıblar. Müzakirələr iqlim dəyişikliyinin fəsadlarını aradan qaldırmaq istiqamətindədir. Azərbaycandan yüksək gözləntilərimiz var. Ümid edirəm tədbirin sonunda dövlətlər bir araya gələrək maliyyə məsələlərində konkretləşməyə nail ola biləcəklər".







Məlumdur ki, dövlətlərin inkişafı, onların elmi və maddi potensialı eyni deyil. Afrika qitəsi bu sahədə xeyli geri qalıb. Qitədəki ölkələr imkansızlıq üzündən öz problemlərini təkbaşına həll etməyə qadir deyillər. Çad Respublikasının Ekologiya Nazirliyinin nümayəndəsi Mberqoqu Melom Patrisia deyib ki, ölkəsi iqlim dəyişikliyindən çox əziyyət çəkir: "Sevindirici haldır ki, COP29-da iştirak edən liderlər planetin qlobal problemindən danışırlar. Onlar iqlimdən ziyan çəkən Afrikanı bərpa etmək niyyətində olduqlarını söyləyirlər. Bu, bizim ümidimizi artırır".

COP29 çərçivəsində ölkəmizdə qonaq olan afrikalı nümayəndə, biznesin inkişafı üzrə baş məsləhətçi Barbro Mutombo da deyir ki, COP29 tədbirindən gözləntiləri olduqca böyükdür: "Xüsusən Afrika üçün başlıca hədəflərimiz arasında bərpaolunan enerji mənbələrinə yönəlmiş konkret addımlar yer alır". Onun sözlərinə görə, iqlim maliyyəsinə daha geniş çıxış imkanı Afrika ölkələri üçün həyati əhəmiyyətlidir. Qonaq bildirir: "COP28 çərçivəsində 2030-cu ilə qədər Afrikada 5 giqavat bərpaolunan enerji istehsal etmək öhdəliyi götürmüşük və bu istiqamətdə irəliləyişə nail olmağı arzulayırıq". Afrikalı nümayəndə həmçinin Azərbaycanın COP29 sessiyasına evsahibliyini yüksək dəyərləndirib təşkilatçılıqdan məmnunluğunu ifadə edərək ölkəmizə təşəkkür edib.

Məlum olduğu kimi, Azərbaycan Avropa, eləcə də dünya bazarlarına neft-qaz nəqlində mühüm tranzit ölkəsi sayılır. Gələcəkdə isə "yaşıl enerji"nin nəqli sahəsində ölkəmiz mühüm tranzit ölkəsi kimi xüsusi əhəmiyyət daşıyacaq. Azərbaycan yaxın gələcəkdə "Yaşıl enerji platforması"nın mühüm halqası olacaq. Ölkəmizin energetika naziri Pərviz Şahbazov da COP29 çərçivəsində keçirilən Enerji Keçidi üzrə İnvestisiya Forumunda çıxışı zamanı vurğulayıb ki, Azərbaycan Mərkəzi Asiya, Cənubi Qafqaz və Xəzər regionlarının vahid geosiyasi məkana çevrilməsi, ölkələrimiz arasında strateji tərəfdaşlıqların qurulması və möhkəmləndirilməsinə əsaslanan əməkdaşlıqda bərpaolunan enerji sahəsində əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*







## COP29-a qubalıların töhfəsi

### Rayon ərazisində ağacəkmə aksiyası daha kütləvi hal alıb

**Təbiətin bol-bol gözəllik bəxş etdiyi bölgələrimizdən biri də Qubadır. Dağlıq ərazidə yerləşən bu qədim yaşayış məskənimiz meşələri, yamacları, bulaqları təmiz dağ havası ilə məşhurdur. Odur ki, Qubanı bir dəfə görən bura bir də gəlmək arzusunda olur.**

Qubalılar təbiətin verdiyi bu gözəlliyi qorumağı, yaşıllıqları artırmağı, ekoloji tarazlıq yaratmağı özlərinin vəzifəsi hesab edirlər. Rayon icra hakimiyyəti hələ ilin əvvəlində Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı xüsusi tədbirlər planı hazırlayıb. Bu planda göstərilən vəzifələrin icrası çərçivəsində Susay, Rustov, Qamqam, Nügədi, Təngaltı və digər kəndlərdə iqlim şəraitinə uyğun minlərlə ting əkilib.



Payızın oğlan çağıdır. Qızılı fəsil isə yığım mövsümü və gələcək məhsulun təməlinin qoyulduğu dövrdür. Elə ağaclar da payızda əkilir. Odur ki, oktyabr ayından başlayaraq Qubanı qonşu rayonlarla bağlayan yolların kənarlarında ağacların əkilməsinə başlanıb. Quba-Xaçmaz magistral avtomobil yolunun rayonun ərazisindən keçən hissəsində bir müddət əvvəl yol çəkilməsi nəticəsində ətrafdakı yaşıllıqlar hərəkət zolağına düşdüyündən məhv olmuşdu. İndi əvəzində həmin ərazidə yolkənarı minlərlə ağac əkilib. Eyni zamanda Quba-Bakı magistral avtomobil yolunun kənarında yerli iqlim şəraitinə uyğun ağac tingləri hesabına yaşıllıq salınıb. Yeri gəlmişkən, qeyd edək ki, Qubanın iqlimi soyuq olduğundan burada hər ting tutmur, quruyur. Ona görə Qubada əkmək üçün istər meyvə, istərsə də bəzək ağacları olsun, xüsusi seçilir və onlara texniki qaydada qulluq edilir.

Ağacəkmə könüllülük əsasında həyata keçirilir. Buna baxmayaraq, sakinlər ağacəkmədə məmnunluqla iştirak edirlər. Kənddə yaşayan Səmayə Qarayeva deyir ki, rayon mərkəzinə ev əşyaları almaq üçün gəlib. Avtovağzalda belə bir aksiyanın keçiriləcəyini eşidib və iştirakçılara qoşulub. Gültəpə və Nügədidən gələnlər də ağacəkmədə həvəslə iştirak ediblər. Mehparə Hacıəhmədova, Akif Bəşirov, Elmira Zülfiyyeva belə aksiyaların ekoloji tarazlığın qorunmasına, təbiətin və ətraf mühitin saflaşdırılmasına xidmət etdiyini bildirirlər. Deyirlər ki, bu torpaq bizimdir, əkini də, biçini də bizlikdir, gözəlliyi də adımızadır. "Vaxt gələr, illər sonra yaşıllıq altında dincələnlərə fəxrlə deyərik ki, o ağacları biz əkmişik".

Turizm bölgəsi olan Qubanın qarşıdakı illərdə daha geniş yaşıllıq zonasına çevriləcəyinə şübhə yoxdur. Bir də, bizə belə gəlir ki, ölkəmizdə COP29 kimi qlobal iqlim tədbirinin keçirildiyi bu günlər ağac əkməkdən yaxşı iş ola bilməz. Qoy bu ağaclar qubalıların həmin tədbirə töhfəsi olsun.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

COP29 Baku Azerbaijan

# Heydər Əliyev Mərkəzində MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsi və "Öz töhfəni ver!" sərgisi açılıb

**Noyabrın 14-də Heydər Əliyev Mərkəzində ətraf mühitin qorunmasına çağırış edən MAMA "Ana təbiət" (Mother Nature) beynəlxalq incəsənət layihəsi və "Öz töhfəni ver!" (Participate!) sərgisinin açılış mərasimi keçirilib.**


















AZƏRTAC xəbər verir ki, sərgilərin açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və ailə üzvləri iştirak ediblər.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) günlərində fəaliyyətə başlayan MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsinin ideya müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevadır. Layihə çərçivəsində nümayiş olunan ekspozisiya IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyi və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə təqdim edilir.

Ətraf mühitin mühafizəsi mövzusunda açılan "Öz töhfəni ver!" sərgisi isə Birləşmiş Millətlər Təşkilatının Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovaya və IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyevanın birgə təşəbbüsü ilə Heydər Əliyev Mərkəzi və İsveçrə Qadın və Gücləndirmə Assosiasiyası (Association of Swiss Women & Empowerment) tərəfindən təşkil olunub.

Tədbirdə çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva nümayiş olunan əsərlərin izləyicilərə müsbət enerji verəcəyinə ümidvar olduğunu bildirib. O, sərginin ərsəyə gəlməsində iştirak edən hər kəsə təşəkkürlərini çatdırıb.

Leyla Əliyeva ölkəmizin evsahibliyi etdiyi COP29-da Azərbaycanda aparılan işlər nəticəsində bir çox müsbət nəticələrin əldə olunacağına inamını ifadə edib.

Heydər Əliyev Fondunun vitse-prezidenti son dövrlərdə planetimizdə iqlim dəyişikliyi nəticəsində meydana gələn problemlərdən bəhs edib, hava, torpaq, suyun çirklənməsinin bir sıra mənfi təsirlərindən danışıb. Leyla Əliyeva iqlim dəyişikliyi və çirklənmə məsələsinin, həmçinin Azərbaycanın ekosisteminə ciddi təsir göstərdiyini bildirib, mövcud problemlərin həllinə çox nikbinliklə və kreativ üslubda yanaşıldığını diqqətə çatdırıb. O, 2011-ci ildə təsis edilmiş IDEA İctimai Birliyinin fəaliyyətinin məhz ətraf mühit problemlərinin həllinə yönəldiyini də qeyd edib.

Sonra çıxış edən türkiyəli rəssam Seval Özcan möhtəşəm beynəlxalq sərginin təşkilinə görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya dərin minnətdarlığını bildirib. Diqqətə çatdırılıb ki, təbiətin insanlara deyil, insanların təbiətə ehtiyacı var və dünyamız bu gün böyük təhlükə altındadır. S.Özcan bu cür çətinliklərin olduğu bir dövrdə Bakıda iqlim dəyişikliyi ilə bağlı təşkil edilən tədbirlərin çox əhəmiyyətli olduğunu vurğulayıb.

Birləşmiş Millətlər Təşkilatının Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovaya tədbir iştirakçılarına videomüraciətində iqlim dəyişmələrinin qarşısını almaq və daha "yaşıl dünya"ya nail olmaq məqsədilə göstərdiyi qlobal səylərə, iki layihənin ərsəyə gəlməsinə görə Leyla Əliyevanın rəhbərliyi ilə IDEA İctimai Birliyinə, həmçinin Heydər Əliyev Fonduna və İsveçrə Qadın və Gücləndirmə Assosiasiyasına təşəkkürünü bildirib.



"Bu iki sərgi "Gələcək Naminə Pakt"da əks olunmuş üzv dövlətlərin öhdəliyi, COP29 müzakirələrinin əsas mövzusunu təşkil edəcək işlər ilə həmahəngdir. Həmçinin bu sərgilər qəlbimə xüsusən bağlıdır, çünki onlar incəsənət, texnologiya və ətraf mühit öhdəliyinin kəsişən məqamlarını əks etdirir. Bizi düşündürən bu cür işlər laqeydliyin fəsadlarını xatırladır və hər tamaşaçını planetimizdə carçı rolunda düşünməyə vadar edir. Həmin sərgilər bizi hərəkətə səsləyir və hamımızı seçimlərimizin təsiri, eləcə də gələcək nəsillərə hansı mirası qoyacağımız barədə düşündürür", - deyə Tatyana Valovaya videomüraciətində qeyd edib.

Sonra qonaqlar MAMA "Ana təbiət" və "Öz töhfəni ver!" sərgilərinə baxış keçiriblər.

Sərgi ilə tanış olan qonaqlar öz təəssüratlarını AZƏRTAC-la bölüşüblər. İşa Xeyriyyə Fondunun təsisçisi, məşhur hindistanlı yoqin Sadhquru (Caqqi Vasudev) dünyamıza və xüsusilə incəsənətə qayğının mütləq olduğunu bildirib. Onun sözlərinə görə, incəsənətə qayğının ən gözəl ifadəsində sənət, musiqi də istifadə edilməlidir. Əks halda, insanların ruhuna toxuna bilmərik.

Rəssam Kamran Məmmədov sərgidə nümayiş etdirilən əsərində peşəsindən asılı olmayaraq, hər kəsin planetimizə, təbiətimizə qayğı göstərməyin əhəmiyyətinə diqqət cəlb etdiyini deyib.

Heykəltaraş Ömər Eldarov isə sərginin çoxşaxəli olduğunu, bütün növ sənət nümunələrini əhatə etdiyini deyib. O, sərgidə həm təbiətin gözəlliyinin nümayiş olunduğunu, həm də onu qorumaq üçün çağırışların edildiyini diqqətə çatdırıb.

MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsi Azərbaycan da daxil olmaqla, 28 ölkədən - ABŞ, Almaniya, Böyük Britaniya, Braziliya, Cənubi Koreya, Gürcüstan, Hindistan, İspaniya, İsrail, Latviya, Pakistan, Rusiya, Türkiyə, Ukrayna və digərlərindən 55 fərqli sənətkarı bir araya gətirərək incəsənət vasitəsilə planetimizi gələcək nəsillər üçün qorumağa çağırır. Fərqli ölkə və millətlərdən olan müəlliflər əsərləri ilə iqlim dəyişikliyi mövzusunda insanların şüuruna təsir göstərməyə cəhd edirlər.

Ekspozisiyada rəqəmsal instalyasiya, rəsm, qrafika və heykəltaraşlıq nümunələri daxil olmaqla, ümumilikdə 127 əsər təqdim olunur.

"Öz töhfəni ver!" sərgisi isə ətraf mühitin mühafizəsi, ekoloji maarifləndirmə və ekomədəniyyətin təbliğinə həsr olunub. Layihə insanların ekoloji maarifləndirilməsini artırmağa, uşaq və yeniyetmələri ekoloji gündəliyə cəlb etməyə, onların ekoaktivliyini populyar formatlarda dəstəkləməyə hədəflənib.

Sərgi üç hissədən ibarətdir. "Əvvəllər belə idi. Bundan sonra nə olacaq?" adlı birinci hissədə XIX-XX əsrlərin bir sıra görkəmli rəssamlarının müxtəlif qitələrin mənzərələrini əks etdirən əsərləri və süni intellekt texnologiyasının imkanları ilə həmin mənzərələrin qlobal istiləşmə nəticəsində necə dəyişəcəyi göstərilir. Burada Klod Monenin "Su zanbağı gölməçəsi", Pol Sezanın "Sent-Viktuar dağı", Albert Birştadın "Syerra-Nevada arasında, Kaliforniya" və digər müəlliflərin əsərlərindəki mənzərənin ətraf mühitə mənfi təsirlərin nəticəsində hansı dəyişikliklərə uğrayacağı təsvir edilir. Tamaşaçıya "Qlobal istiləşmənin qarşısı alınmazsa, həmin mənzərələr nə hala düşəcək? Növbəti nəsillər onları görə biləcəkmi?" sualları ünvanlanır.

Sərginin ikinci hissəsi "17 dayanıqlı inkişaf məqsədi" adlanır. Burada 2015-ci il sentyabrın 25-də 193 ölkənin iştirakı ilə BMT Baş Assambleyası tərəfindən qəbul edilən və "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" adlı sənədə daxil olan davamlı inkişafın hər üç komponenti - iqtisadi, sosial və ekoloji tarazlığın təmini nümayiş etdirilir.

Ekspozisiyanın "Öz töhfəni ver!" adlı üçüncü hissəsi isə insanları səyləri birləşdirərək təbiətin qorunmasında iştiraka səsləyir. Ziyarətçilər ekoloji təhlükəsizliyin təmin edilməsi istiqamətində maraqlı, qeyri-standart, yaradıcı ideya və təşəbbüslərini bədii şəkildə, əlvan boyalarla təsvir etmək imkanı qazanır. Layihə təşkilatçıları insanları tərəddüd etmədən ətraf mühitin qorunması, planetimizin xilası naminə hərəkətə keçməyə çağırır.

Xatırladaq ki, sərgi Azərbaycan ilə BMT arasında əməkdaşlıq çərçivəsində reallaşdırılan ilk layihə deyil. 2022-ci ilin iyununda BMT-nin Cenevrədəki bölməsində "Mənim dənizlərim, mənim okeanlarım"(My Seas, My Oceans) fotosərgisi, 2022-ci ilin oktyabrında Bakıda Heydər Əliyev Mərkəzində "Çağırışın 17 siması" ("17 Faces of Action") fotosərgisi təşkil edilib.

COP29 Baku Azerbaijan

# MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsi və "Öz töhfəni ver!" sərgisi




COP29 Baku Azerbaijan

## Bakıdan dünyaya ədalət çağırışı









# Bu gün müstəmləkəçiliyə yer olmamalıdır

## COP29 çərçivəsində keçirilən inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammitinin başlıca tələbi budur

**Həm iştirakçı dövlətlərin rəsmi şəxsləri, həm də dünyanın aparıcı media orqanları tərəfindən təşkilatçılığı yüksək qiymətləndirilən COP29, iqlim dəyişmələri ilə yanaşı, bəşəriyyət üçün aktual olan bir çox problemlərin müzakirəsi baxımından da ən səmərəli platformadır. Müasir dünyanın qlobal çağırışlarının, o cümlədən ekoloji problemlərin fəsadları aparıcı iqtisadiyyatlara malik dövlətlərdən daha çox inkişaf etməkdə olan ölkələrə zərər vurur.**

Onların sırasında özlərini sivil dünyanın "sütun"ları hesab edən dövlətlərin müstəmləkələrini xüsusilə qeyd etmək lazımdır. Siyasi diktə nəzarətində sərvətləri talan edilən belə kiçik ərazilər iqlim dəyişmələri kimi problemlərdən ciddi ziyan görürlər. Çünki bir tərəfdən istismar edilirlər, digər tərəfdən isə əziyyət çəkdikləri ekoloji fəsadlardan qurtulmaq üçün yardıma ciddi ehtiyacları olur.









### Hədəfə varmış sammit

COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitinin keçirilməsi Bakı konfransında böyük rəğbətlə qarşılandı. Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bu ölkələrlə münasibətlərin daha yüksək səviyyədə olduğunu bildirdi. Onların səsinin qlobal arenada eşidilməsinə hər cür şəraitin yaradılmasının vacibliyini söylədi və belə dövlətlərə bütün maddi və texniki dəstəyin göstərilməsini vurğuladı. Bu gün elə etmək lazımdır ki, həmin ölkələr özlərini iqlim dəyişmələrindən qoruya bilsinlər. "Azərbaycan kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini nümayiş etdirir. Biz fəlakət qarşısında zəif olan bir sıra ölkələrə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaq üçün yardım göstərmişik. Biz, həmçinin su təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrinə dəstək vermişik. Ondan çox kiçik ada dövləti Azərbaycan universitetlərində təhsil almaq üçün tələbə təqaüdü proqramımızdan yararlanıb. Qoşulmama Hərəkatında dördillik sədrliyimiz dövründə biz 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərmişik", - Azərbaycan Prezidenti sammitdəki çıxışında dedi.

Bu gün həmin ölkələrin üzləşdiyi çağırışların aradan qaldırılması COP29-da Azərbaycanın göstərdiyi səylərin əsasını təşkil edir. Dövlətimizin başçısı onu da bildirdi ki, bu ilin mayında COP-la bağlı planlarını müzakirə etmək üçün Baham adalarının, Tonqanın və Tuvalunun rəhbərləri Azərbaycana səfər etmişdilər. Qəbul olunmuş Bakı Kommünikesində COP29-da həm sərfəli nəticələrin əldə olunmasına çağırış edilir, həm də əlçatan iqlim maliyyəsinin vacibliyi göstərilir. Bir faktı da qeyd edək ki, bu ilin sentyabrında İtki və Zərərə Cavab Fondunun fəaliyyətə başlaması ilə bağlı Bakıda ciddi irəliləyiş əldə olunmuşdur. Hazırda proses ehtiyac duyan ölkələrə, xüsusən də kiçik ada dövlətlərinə maliyyənin verilməsi üçün tamamlanmalıdır. Daha sonra dövlətimizin başçısı vurğuladı ki, biz Millətlər Birliyinin kiçik ada dövlətlərindəki birgə layihələrini dəstəkləmək üçün 10 milyon ABŞ dolları məbləğində vəsait ayırırıq. Ətraf mühitin monitorinqi və qiymətləndirilməsi üçün Azərbaycanın Kosmos Agentliyi - "Azərkosmos"dan peyk məlumatlarından istifadə etmək üçün Millətlər Birliyi ilə anlaşma memorandumu imzalanmışdır.

### "Yaşıl dünya" və fəaliyyət gündəliyi

İqlim dəyişmələri bütün qitələrin ölkələrinə təsir edir. Lakin inkişaf etməkdə olan kiçik ada dövlətləri bu təsirlərə daha həssasdır. Onların yaşayışını pozur və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində tərəqqiyə mane olur.

Bu sahədə Azərbaycan da istisna deyil. Biz hər il çaylarda suyun səviyyəsinin azaldığının, Xəzər dənizinin isə səviyyəsinin aşağı düşdüyünün şahidi oluruq. Azərbaycan su qıtlığı problemi ilə də üzləşir. Ölkəmiz bu təhdidlərin öhdəsindən gəlmək üçün təbii ki, cəsarətli addımlar atır. İlk növbədə milli səviyyədə "təmiz ətraf mühit və yaşıl artım" üzrə sosial-iqtisadi prioritetimizi uğurla reallaşdırırıq. Zəngin külək və günəş enerjisi potensialı bizə bərpaolunan enerji gündəliyini inkişaf etdirməyə imkan verir. "Yaşıl enerji" zonaları elan edilmiş işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur kifayət qədər bərpaolunan enerji mənbələrinə malikdir.

Azərbaycan eyni zamanda neft və qaz hasilatından əldə etdiyi gəlirləri "yaşıl enerji"yə yatırır. Bu, aydın şəkildə göstərir ki, qazıntı enerji növləri ilə zəngin olmağımız "yaşıl gündəliy"i təşviq etmək istiqamətində addımlarımıza mane olmur. Qlobal istixana qazı emissiyalarında payının cəmi 0,1 faiz təşkil etdiyi Azərbaycan nümunəvi ölkə kimi daha kiçik emissiya payına sahib dövlətlərin iqlim dəyişmələri ilə mübarizəyə əhəmiyyətli töhfələr verə biləcəyini nümayiş etdirir.

Sammitin təşkilindəki yüksək peşəkarlıq, istismara məruz qalan xalqların haqq səsinin ucaldılmasına münbit şəraitin yaradılması və təbii ki, Azərbaycan Prezidenti İlham Əliyevin neokolonializmi, onun təmsilçilərini sərt tənqid etməsi gözlənildiyi kimi, Qərbin bəzi ölkələrində və dairələrində ciddi narahatlığa səbəb oldu. Dövlətimizin başçısının çıxışında müasir müstəmləkəçiliyin simvollarına çevrilmiş Fransa və Niderlandın kəskin tərzdə və tutarlı faktlarla tənqid edilməsi müasir reallığa əsaslanır. "Fransa və Niderlandın xüsusən də Karib dənizi və Sakit okean regionundakı dırnaqarası dəniz əraziləri iqlim dəyişmələrinin ən ciddi təsirinə məruz qalanlar sırasındadır. Artan dəniz səviyyəsi, kəskin hava şəraiti və biomüxtəlifliyin pozulması həmin regionlara ciddi təhlükə yaradır. Həmin icmaların səsi bir çox hallarda onların metropoliyalarındakı rejimləri tərəfindən susdurulur" - dedi Azərbaycan Prezidenti.

Fransa və Niderland kimi dövlətlər özlərini sivil dünyanın aparıcı üzvləri, demokratiyanın vətəni, insan haqlarının carçısı kimi göstərməyə çalışsalar da, bu, belə deyil: bu gün hər iki ölkəni müstəmləkəçilik baxımından Orta əsrlər Fransa və Niderlandından fərqləndirən heç bir əsas yoxdur. Ola bilsin ki, kolonial keçmişə əsaslanan müasir müstəmləkəçilik bir qədər fərqli simaya malikdir. Ancaq metodlar ənənəviliyini qoruyub saxlamaqdadır - təbii sərvətlərin mənimsənilməsi, iqtisadi ekspansiya və siyasi repressiya rejimi. Prezident İlham Əliyevin müasir müstəmləkəçilərin total tabeçiliyində olan əraziləri bir-bir sadalaması Azərbaycanın humanizm ideyaları və konfransa sahiblik edən dövlətin rəhbəri olaraq kiçik xalqların problemlərini diqqətdə saxlamasının parlaq nümayişidir: "Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis və Futuna, Korsika, Reunion, Qvadelupa, Martinika, Fransa Qvianası, Sen-Pyer və Mikelon, Sent-Mert və Sent Varfolomey kimi Fransa müstəmləkələrinin xalqları, eləcə də Niderlandın Aruba, Kurasao, Sənt-Maarten, Boneyr, Sent Yefstaxiy və Saba kimi müstəmləkələrinin xalqları - gəlin həmin ərazidəki xalqları alqışlayaq - bu gün XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkirlər. Hazırda Fransa Polineziyası və Yeni Kaledoniya 1946-1947-ci illərdə BMT tərəfindən qeyri-özünü idarə edən ərazilər kimi tanınır. Bununla belə, onların dekolonizasiya prosesi hələ də yubanır".

### Kiçik xalqların problemləri dünyanın gündəmindədir

COP29 çərçivəsində uğurla keçirilmiş sammitin əsas mövzusu olan kiçik ada dövlətləri onlara nəzarət edən metropoliyalar tərəfindən təkcə siyasi sıxıntılara məruz qalmırlar. Bu ərazilərə və orada yaşayan kiçik xalqlara ciddi ekoloji ziyan da dəyir ki, bunun fəsadlarının aradan qaldırılması, yaxud təsirinin azaldılması faktiki olaraq heç kimi düşündürmür. Azərbaycanın bu istiqamətdə ciddi addımlar atmasını, Prezident İlham Əliyevin kiçik xalqların problemlərini dünyanın gündəminə gətirməsini dövlətimizin və xalqımızın bəşəriyyət qarşısındakı tarixi xidməti hesab etmək lazımdır. "1966-1996-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib. Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Radiasiya səviyyəsi 4900 faizi keçib. Əgər buna Fransanın Əlcəzairdə illər boyu işğalı zamanı həyata keçirdiyi 17 nüvə sınağını əlavə etsək, biz həmin ölkə tərəfindən planetin ekosisteminə hansı zərərin vurulduğunu görərik", - deyən dövlət başçısı haqlı olaraq vurğulayıb ki, Fransanın dırnaqarası dəniz ərazilərində törətdiyi cinayətlər, Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoyulması, 169 nəfərin yaralanması, 1700 insanın həbs edilməsi nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də ki, Avropa Şurasının Parlament Assambleyası tərəfindən pislənildi. Buradan belə nəticəyə gəlmək olar ki, "Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat - Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə Prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşür. Fransadakı bütün siyasi məhbuslar dərhal azad olunmalıdır".

Yeri gəlmişkən, COP29-da təşkil olunmuş sammitdə və Azərbaycan Prezidentinin bəyanatında adıçəkilən şəxslərdən biri də Avropa diplomatiyasının rəhbəri, ermənipərəst və qatı anti-Azərbaycan mövqeyi ilə tanınan Cozep Borel olub. Sammitdə bu diplomatın ünvanına dövlətimizin başçısı tərəfindən haqlı irad bildirildi: "Əgər Avropanın əsas diplomatı Cozep Borel Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! Əgər biz cəngəllikiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kiçik ada dövlətlərinə dəstək verib, COP29-un sədri kimi onları dəstəkləyəcək və gələcəkdə dostlarımızı dəstəkləməkdə davam edəcək".

### Dəstəyimiz davam edəcək

COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitinin keçirilməsi, Azərbaycanın bu tədbirin yüksək səviyyədə baş tutması istiqamətində səyləri və Prezident İlham Əliyevin tədbirdə iştirakı ölkəmizin kiçik xalqların müzakirə mövzusu olan problemlərinə diqqətin yönəldilməsi istiqamətində ilk töhfəsi deyil. Dövlətimiz dünyanın BMT-dən sonra miqyasca ikinci ən böyük təşkilatı - Qoşulmama Hərəkatına rəhbərliyi ərzində müstəmləkə ərazisi olan və müxtəlif problemlərdən əziyyət çəkən kiçik ölkələrin problemlərini daim diqqətdə saxlamışdır. Azərbaycanın bu həssas yanaşması özünü daha çox COVID-19 pandemiyası dövründə büruzə vermişdir. Belə ki, rəsmi Bakı pandemiyadan əziyyət çəkən və imkanları məhdud olan dövlətlərə və xalqlara həm maddi baxımdan yardım etmiş, həm də vaksinlərlə təminatına kömək göstərmişdir.

Eyni zamanda kiçik ada dövlətlərinin müstəmləkə reallıqları da dövlətimizin diqqətindən kənarda qalmamış və qalmayacaq. Müasir dünyanın acı reallığı olan neokolonializmi xarakterizə edən amillərdən biri də budur ki, Fransa və Niderland kimi dövlətlər çoxsaylı əraziləri və xalqları istibdad şəraitində saxlamaqla yanaşı, həm də müstəqil siyasət yürütmək istəyən, xalqının qayğısına qalan dövlətlərə qarşı da qarayaxma kampaniyasının əsas iştirakçılarıdırlar. Məsələn, həmin Paris və Amsterdam uzun illər boyu Azərbaycan ərazisində kök salmış aqressiv etnik separatizmi müxtəlif platformalarda dəstəkləmişlər. İndinin özündə də Fransa Azərbaycanın ərazi bütövlüyünü təmin etməsini və qanuni torpaqlarını işğaldan qurtarmasını həzm edə bilmir. Bu baxımdan, Azərbaycanın bu kontekstdəki siyasəti tək xalqımızın mənafelərinə deyil, həmçinin dünyanın əzilən xalqlarının maraqlarına cavab verir.

Sammitin panel iclaslarında kiçik ada dövlətlərinin rəhbər şəxsləri Azərbaycana minnətdarlığını ifadə etdilər, iqlim dəyişmələrinin bu ölkələrə fəsadlarından danışdılar, iqlim maliyyəsinə əlçatanlığın vacibliyini vurğuladılar. Commonwealth-in baş katibi Patrisiya Skotland Azərbaycan Hökumətinin və "Azərkosmos"un Commonwealth ilə imzaladığı 2 memoranduma görə təşəkkürünü bildirdi. Sammitin nəticəsi olaraq Kiçik Ada Dövlətlərinin Səslərinin Gücləndirilməsinə dair Bakı Bəyannaməsi qəbul olundu.

Bununla da aydın şəkildə bildirildi ki, XXI əsr dünyasında kolonializmə yer olmamalıdır. COP29 çərçivəsində keçirilən inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitinin başlıca tələbi də məhz budur.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

COP29 Baku Azerbaijan

# Dünya ekoloqlarının Bakı sammiti





## COP29 ekoloji problemlərin həllinə qlobal miqyasda mühüm töhfədir

**Bəşəriyyət qarşısında duran qlobal problemlərdən biri də dünyanın ekoloji durumudur. Əsrlərdir təbiətdən istifadəyə ənənəvi baxışlar, yanaşmalar davam etdiyi üçün insanlığı narahat edən ekoloji böhran sürətlənərək fəsadları lokal və regional səviyyələrdən çıxaraq qlobal xarakter almış, nəticədə onu aradan qaldırmağı çətinləşdirmişdir.**



Problemlərin sürətlə artan miqyası, dağıdıcı təsiri qlobal sosial-iqtisadi inkişafda da özünü daha sərt şəkildə göstərmişdir. Təəssüf ki, tropik meşələrin məhv edilməsi, meşə biogeosenozlarına antropogen müdaxilə meşələrin təkcə yayılma arealına deyil, onların növ tərkibinə, formasiyalararası və formasiyalardaxili təbii-tarixi struktur münasibətlər kompleksinə də təsir göstərmişdir. Bundan başqa, su və atmosfer hövzələrinin çirklənməsi, stratosfer və troposferdə ozon təbəqəsinin vəziyyəti ilə bağlı problemlər, qlobal iqlim dəyişmələri, səhralaşma, biomüxtəlifliyin azalması arzuolunmaz həddə çatmışdır.

Planetimizin təbii sərvətlərindən istifadədə səmərəli beynəlxalq nəzarətin olmaması səbəbindən mövcud problemlər zaman-zaman dərinləşməkdədir. Düzdür, bioloji müxtəlifliyin qorunmasının vacibliyini nəzərə alaraq BMT-in Rio-de-Janeyro konfransında "Bioloji müxtəliflik haqqında" Konvensiya qəbul edilmişdir. Respublikamız da bu konvensiyaya qoşulmuş ölkələr sırasındadır. Ümummilli Liderimiz Heydər Əliyev sözügedən konvensiya üzrə Azərbaycan Respublikasının öz üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsini, torpaq, bitki, heyvan və mikroorqanizmlərin genetik ehtiyatlarının yox olması təhlükəsinin qarşısını almaq üçün kompleks tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə "Bioloji müxtəlifliyin genetik ehtiyatları üzrə Dövlət Komissiyasının yaradılması barədə" sərəncam imzalamışdır. Ancaq istər dünya miqyasında, istərsə də respublikamızda ekoloji problemlərin həlli yollarının tapılması, ilk növbədə, bu problemlərə və bütövlükdə təbiətə düzgün münasibətin, yəni ekoetik baxışın formalaşdırılmasından asılıdır. Çünki insan və təbiətin qarşılıqlı əlaqələri müasir cəmiyyətin bütün daxili münasibətlər sisteminə, o cümlədən insanın mənəvi həyatına təsir göstərən ümumi böhranın mühüm bir hissəsidir və onun qarşısı yalnız insanın zəkasının gücü və bəşəri birliyin köməyi ilə alına bilər. Bu problemlər cəmiyyətlə təbiət münasibətlərindəki mənəvi dəyərlərin korlanması zəminində ortaya çıxdığından insanlarda təbiətə qayğı göstərmək vərdişi, təbiət-cəmiyyət münasibətlərini harmoniyalaşdırmaq istəyi, ekoloji düşüncə, bir sözlə, təbiətə ekoetik münasibət və ekoloji mədəniyyət formalaşdırmaq lazımdır. Başqa sözlə, ekoloji problemlər etik məzmun kəsb etdiyindən ona ekoetik problemlər kimi yanaşmaq lazımdır.

Ümumiyyətlə, ekoetika son illər real elmi tutum və sanbal qazanmış istiqamətdir. Onun elmi, hüquqi və mənəvi aspektlərini şərh edən tədqiqatlara böyük ehtiyac yaranmışdır. Bu məqsədlə müəllifi olduğum "Ecoethic problems of Azerbaijan: scientific, legal, moral aspects" adlı kitabın nəşr olunması ekoloji problemlərə ekoetik yanaşmanın nəzəri əsaslarının öyrənilməsinin önəmindən irəli gəlir.

Azərbaycanın ekoloji problemlərinə ekoetik yanaşdıqda onun qlobal və milli tərəflərinin elmi şərhinə böyük ehtiyac yaranır. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyasının birgə əməkdaşlığı ilə işıq üzü görmüş "Qırmızı Kitab"ın ötənildəki III nəşrində nadir, nəsli kəsilmək təhlükəsi altında olan 152 onurğalı, 89 onurğasız olmaqla, 241 fauna və 383 ali, 15 ali sporlu, 6 mamır, 14 şibyə, 5 yosun olmaqla, 460 flora növünün əks olunması dünyanın biomüxtəlifliklə zəngin bir hissəsində - Azərbaycanda nadir və nəsli kəsilməkdə olan heyvan və bitki növlərinin mühafizəsi və bərpasına xüsusi diqqət göstərildiyinə bariz sübutdur.

Sevindirici haldır ki, artıq ekoloji problemlər bütün dünyanı düşündürən siyasi, iqtisadi, hüquqi və mənəvi məzmun kəsb etməyə başlayıb və ortaya çıxan risklər öz kəskinliyini artırdıqca onların yeni tərzdə dərk edilməsi, eləcə də həlli yollarının tapılması üçün ciddi addımlar atılmaqdadır. Bu baxımdan Azərbaycanda keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası - COP29-dan böyük gözləntilər var. Qeyd edək ki, COP29 sədrliyi İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun yaradılması, iqlim dayanıqlılığı üçün harmoniya, təmiz hidrogen, orqanik tullantılarda metanın azaldılması, "yaşıl enerji" dəhlizləri, saxlancları, "yaşıl rəqəmsal" fəaliyyət, "COP atəşkəsi" və digər mövzuları özündə ehtiva edən on dörd təşəbbüs irəli sürüb. İnanırıq ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə keçirilən COP29 iqlim dəyişikliyinə qlobal miqyasda mühüm bir töhfə olacaq.

***Qərib MƏMMƏDOV,***
***akademik***

## Naxçıvanda alternativ və bərpaolunan enerji istehsalı artır

**Alternativ enerji sahəsində böyük potensialı olan Naxçıvan sürətlə "yaşıl enerji"yə keçid edir. Muxtar respublikada fəaliyyət göstərən külək, günəş, su-elektrik stansiyaları buna imkan verir. Eyni zamanda "yaşıl enerji" zonası elan olunan Naxçıvanın bu istiqamətdə gördüyü davamlı işlər prosesi daha da sürətləndirir.**



2024-cü ilin yanvar-oktyabr aylarında Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin istismar sahəsində olan elektrik stansiyalarının texniki-iqtisadi göstəriciləri də bunu deməyə əsas verir. Belə ki, müvafiq dövr ərzində istehsal olunan ümumi elektrik enerjisinin 52 faizi alternativ və bərpaolunan enerji mənbələrinin payına düşüb.

Bu ilin on ayında istehsal olunan ümumi elektrik enerjisinin 48 faizi istilik-elektrik stansiyalarında, 39 faizi su-elektrik stansiyalarında, 13 faizi isə günəş-elektrik stansiyalarında istehsal olunaraq elektrik şəbəkələrinə ötürülüb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə alternativ və bərpaolunan enerji mənbələrində istehsal olunan elektrik enerjisinin payı 18 faiz artıb. Belə ki, bu rəqəm 2023-cü ildə 34 faiz olduğu halda cari ildə 52 faizə yüksəlib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Mədəniyyətlərin qovuşduğu məkan

**Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçirilir. Qlobal iqlim dəyişikliyi ilə bağlı müzakirələrin ən yüksək platforması olan bu mötəbər tədbirə evsahibliyinin Azərbaycana həvalə edilməsi ölkəmizə yüksək etimadın və inamın göstəricisidir.**









İqlim böhranının həlli istiqamətində xüsusi əhəmiyyətə malik olan COP29-dan gözləntilər böyükdür.

İqlim dəyişikliyi ilə mübarizə strategiyalarında mədəniyyətlərin inteqrasiyası da önəmlidir. Planetimizi qoruyan yeni dəyərlərin təşviqi üçün mədəniyyətin gücündən də istifadə edilməsi vacibdir. Bununla bağlı COP29 konfransında iqlim dəyişmələri ilə mübarizə üzrə potensial həll variantlarının təqdim edilməsinə dair müzakirələr, panellər keçirilir və sərgilər təşkil olunur. Tədbir çərçivəsində noyabrın 15-də mədəniyyətə əsaslanan iqlim fəaliyyəti üzrə mədəniyyət nazirlərinin 2-ci yüksəksəviyyəli görüşü keçirilib. Birləşmiş Ərəb Əmirlikləri, Braziliya və Azərbaycanın mədəniyyət nazirliklərinin təşkilatçılığı ilə gerçəkləşən görüşdə rəsmilər, ekspert və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Bu kimi addımlar mədəniyyətin davamlı gələcək üçün güclü bir vasitə olduğunu göstərir. Mədəniyyət Nazirliyi COP29-a hazırlıq çərçivəsində bu il ərzində bir çox tədbirlər təşkil edib. Parisdə, UNESCO qərargahında Mədəniyyət Nazirliyi tərəfindən COP29 çərçivəsində həyata keçiriləcək mədəniyyət məzmunlu tədbirlərə dair təqdimat, "COP29 və mədəniyyət: iqlim dəyişikliyinin mədəni ölçüləri" adlı konfrans, VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda ətraf mühitin mühafizəsi və iqlim dəyişmələrinin mədəni irsə təsirinə dair panel və plenar sessiyalar, Ağdam şəhərində "Minaların və partlamamış hərbi sursatların mədəni mülkiyyətə təsiri" adlı xüsusi konfrans, "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Azərbaycan ekologiyası" adlı biblioqrafiya kitabının təqdimatı və digər tədbirlər təşkil olunub.

COP29-a türk dünyası da böyük dəstək göstərir. Qırğızıstan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə noyabrın 13-14-də qırğız mədəniyyət və incəsənət ustaları Azərbaycan Dövlət Akademik Musiqili Teatrının qonaqları olub, "Adəm" adlı balet-tamaşanı nümayiş etdiriblər. Aktyor-rejissor Zamirbekov Çaqaldak və balet artisti Alina Mambetalievanın quruluşunda təqdim olunan tamaşa Qırğızıstanın "Artist" teatr truppasının təşəbbüs qrupu ilə Abdılas Maldıbayev adına Qırğızıstan Milli Akademik Opera və Balet Teatrının birgə layihəsidir.

Balet-tamaşanın nümayişindən öncə onun haqqında geniş məlumat verilib və qeyd edilib ki, "Qırğızıstan Tələbələri "Yaşıl İqtisadiyyat" Naminə" İctimai Birliyi və ATƏT-in Bişkekdəki proqram ofisinin dəstəyi ilə ərsəyə gələn bu layihənin əsl mahiyyəti dünya əhalisini planetin ekoloji tarazlığının bərpası naminə birgə mübarizəyə çağırışdır. Azərbaycan Respublikasının mədəniyyət nazirinin müavini Murad Hüseynov və Qırğızıstanın təbii sərvətlər, ekologiya və texniki nəzarət naziri Mader Maşiyev səhnəyə dəvət olunublar. Onlar öz çıxışlarında bu layihənin COP29-un keçirildiyi günlərdə məhz Bakıda təqdimatının heç də təsadüf olmadığını bildirib və "yaşıl dünya" naminə bir yumruq kimi birləşməyin, həmrəyliyin vacibliyini qeyd ediblər.

"Adəm"də dünyanın ekoloji tarazlığının bərpası naminə insanların həmrəy olmasının vacibliyi qeyd edilib. "Hər şeyə rəğmən, bəşər övladının əsas amalı "yaşıl planet"in xilası və yenidən bərpası olmalıdır!" - bu, səhnə əsərinin şüarlarından biri olub. Təbiətin harmoniyasının bərpası və "yaşıl dünya"nın qələbəsi ilə bitən tamaşada yaşadığımız və gələcək nəsillərə miras qoyacağımız planetimizin qorunmasında hamının məsuliyyəti olduğu vurğulanıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

COP29 Baku Azerbaijan

# Azərbaycanın nümunəvi evsahibliyi

## "Azərbaycan haqqında günlərlə danışmağa sözüm olacaq"






**COP29-un Azərbaycanda keçirilməsi, ölkəmizin qlobal miqyasda hansı perspektivlərə sahib olduğunun göstəricisidir. Bu möhtəşəm tədbir dövlətini sevən hər bir vətəndaşda qürur hissi yaşadır. Bakıda keçirilən COP29 sammiti ölkəmizin nüfuzunu artırır və Azərbaycana yeni perspektivlər vəd edir. Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan Qərb ilə Şərq, Cənub ilə Şimal arasında çoxfunksiyalı bir körpüdür. Birmənalı olaraq deyə bilərik ki, ölkəmizə cəmləşmiş dünya liderləri gündəmi zəbt edən iqlim dəyişikliyi və davamlı inkişaf məsələləri ətrafında müzakirələr aparmaqla yanaşı, yeni iqtisadi əlaqələr barədə də düşünürlər.**

Qəzetimizin əməkdaşları dünən COP29 sədrliyi tərəfindən təşkil və idarə olunan "yaşıl zona"da konfrans iştirakçılarının fikirləri ilə tanış olublar.

Xatırladaq ki, "yaşıl zona" müxtəlif maraqlı tərəflərin - dövlət və özəl sektor, media işçiləri, alimlər, gənclər, yerli icmalar, QHT-lər, vətəndaş cəmiyyəti və rəsmi "mavi zona" nümayəndələrini də əhatə edən geniş iştirakçı auditoriyasının bir araya gələrək ünsiyyət qura biləcəyi məkandır. Eyni zamanda "yaşıl zona" müxtəlif iştirakçıların öz baxışlarını bölüşə bilmələri üçün dinamik platformadır. Bu zona cari innovasiyaların, eləcə də iqlim dəyişmələri ilə mübarizə üzrə potensial həll variantlarının təqdim edilməsinə dair müzakirələr, panellər və əyani nümayişlər üçün mərkəz funksiyasını yerinə yetirir.

Söhbət etdiyimiz konfrans iştirakçısı Damlami Stinqa Usman Nigeriyadan gəlib. Deyir ki, Bakıya gəlişi, belə möhtəşəm tədbirdə iştirakı hafizəsinə əbədi həkk olundu: "Azərbaycan Qoşulmama Hərəkatına sədrlik etdiyi vaxtdan ölkələrimiz arasında qarşılıqlı əməkdaşlıq münasibətləri daha da genişləndi. Biz hər zaman Azərbaycanın dost və qardaşlıq münasibətini hiss edirik.

COP29-da iştirak etmək üçün Azərbaycana gələcəyim təsdiq olunanda çox sevindim. Özümü doğma evimdəki kimi hiss edirəm. Azərbaycanlılar çox mehriban və qonaqpərvərdirlər.

Vaxtımın əsas hissəsini ölkəm üçün vacib məsələlərin müzakirəsində keçirirəm. COP29 ölkələrimiz arasında yeni əməkdaşlıq imkanları yaradan bir platformadır. Bundan maksimum istifadə edib böyük şirkətlərin nümayəndələri ilə görüşüb yeni əlaqələr qurmağa çalışırıq. Demək olar ki, istədiyimizə çatmışıq.

Boş vaxtlarımı Bakının tarixi yerləri ilə tanışlıqla keçirirəm. Bakı gözəlliyi ilə insanı valeh edən, özünəməxsus arxitekturası olan çox unikal bir şəhərdir. İçərişəhərdə olmuşam. Qız qalasını görmək arzum reallaşdı. Bakı bulvarının gözəlliyi, səliqə-sahmanı məni özünə valeh etdi. Ölkəmə qayıtdıqdan sonra ailə üzvlərimə, dostlarıma, çalışdığım kollektivin əməkdaşlarına Azərbaycan haqqında günlərlə danışmağa sözüm olacaq".

Söhbətimizi yaponiyalı Miri Suruqaya ilə davam etdiririk. O deyir: "Ölkənizin təbii sərvətlərlə zəngin olduğunu bilirdim. Amma adamı təəccübləndirəcək dərəcədə mehriban insanların yaşadığı bu tarixi şəhər barədə məlumatım, demək olar ki, çox az idi. İndi kimsə məndən Azərbaycan haqqında soruşsa ilk verdiyim cavab belə olacaq: "Azərbaycanın təbiəti kimi də gözəl insanları var..."

COP29 barədə danışarkən deyə bilərəm ki, aparılan müzakirələr dünyanı qorumaq üçün vacib məsələləri həll edəcək. Temperaturu normada saxlamaq kifayət qədər böyük problemdir. Hər kəs sənayenin "yaşıl inqilab"ına razı olmalıdır. Temperatura təsir edəcək qərarlar qəbul edilməlidir. Dünyadakı bütün insanlar iqlim dəyişikliyinin təsirini qəbul etməli və bunun qarşısını almaq üçün mühüm addımlar atmalıdırlar. Bakıda keçirilən COP29-da bu problemlərin həlli üçün vacib işlər görüləcəyini düşünürəm.

Bəşəriyyət üçün əhəmiyyətli olan belə bir qlobal məsələnin Bakıda müzakirəsi ölkənizin dünyadakı mövqeyinə verilən yüksək qiymətdir. Ölkənizlə qürur duymaqda tam haqqınız var".

Söhbətləşdiyimiz ingiltərəli Nikolas Mekromes Londonda enerji hasilatı ilə məşğul olan beynəlxalq şirkətdə çalışdığını dedi. O, xüsusi olaraq vurğuladı ki, Azərbaycan qlobal və böyüyən təbii fəlakətlə mübarizədə liderlik nümayiş etdirir: "İqlim dəyişikliyi mahiyyətcə Yerin iqlim sisteminin müxtəlif hissələrində yeni enerji tarazlığına keçiddir. Azərbaycan enerjini və enerji sistemlərini tənzimləməkdə, irimiqyaslı enerji layihələrinin həyata keçirilməsində nümunəvi təcrübəyə, regional və qlobal nəticələrə yönəlmiş uzaqgörən liderlik üslubuna malikdir. Ona görə COP29 kimi möhtəşəm beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi məntiqlidir, təbiidir və bunun böyük fayda verəcəyi heç bir şübhə doğurmur. Onu da qeyd edim ki, Avropanın enerji təhlükəsizliyi sistemində Azərbaycanın rolunu inkar etmək qəti mümkün deyil.

Dünya bizim hamımızın ümumi evidir. İnkişaf etməkdə olan ölkələrin artıq üzləşdiyi iqlim dəyişikliyinin təsirlərinin aradan qaldırılması üçün maliyyə və digər dəstəyə ehtiyacı var. Bu dəstək olmadan inkişaf etməkdə olan ölkələr təmiz enerji mənbələrinə keçid edə, qlobal karbon qazı ifrazını azalda bilməzlər. COP29 konfransı iştirakçı ölkələr üçün yeni öhdəliklər götürmək və iqlim böhranını həll etmək üçün konkret addımlar atmağa bir fürsətdir. Məmnunluqla qeyd edə bilərik ki, COP29-da aparılan müzakirələr bizi problemin həllinə yaxınlaşdırır.

Bir məsələni də qeyd edim ki, fürsətdən istifadə edib Bakının ən gözəl yerlərində olmağa çalışıram. Artıq Ağ Şəhərdə olmuşam. Bu yeni salınmış şəhər çox gözəldir. Avropa heykəltaraşlarının əsərlərini, parklardakı nadir bitkiləri görmək mənə çox xoş oldu. Nizami parkında yaradılan gözəllik isə bambaşqadır. Nobel qardaşlarının evində oldum. Bu tarixi məkanı görmək çoxdankı arzum idi".

Nigeriyalı Aniedi Ene İnyanq deyir ki, Azərbaycana gəlmək çoxdankı arzusu olub: "Xoşbəxtəm ki, bu arzumu COP29-da iştirak etməklə reallaşdıra bildim. İlk növbədə qeyd edim ki, nigeriyalılar üçün Azərbaycan çox doğma ölkədir. 2020-ci ildə ölkənizdə Vətən müharibəsi gedərkən biz də çox həyəcanlı anlar yaşayırdıq. Allaha şükürlər olsun ki, müharibə arzuladığımız kimi yekunlaşdı. Bizə dost, qardaş ölkə olan Azərbaycan haqq etdiyi qələbəyə nail oldu".

Xüsusi olaraq vurğulayım ki, ölkələrimiz arasında yaradılmış bu qardaşlıq körpüsünün müəllifi cənab İlham Əliyevdir. Qoşulmama Hərəkatına sədrlik etdiyi illərdə o, Afrika xalqlarının problemini cəsarətlə ən yüksək tribunalardan səsləndirib, həlli yollarını müzakirəyə çıxarıb. Belə bir möhtəşəm beynəlxalq tədbirin Azərbaycanda keçirilməsini biz həm də Nigeriyanın uğuru hesab edirik.

Bakıda gördüyümüz səmimiyyət, dostluq münasibətləri həyatımda unudulmaz xatirə qoydu".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*





## *Ekspert:* "COP29-da iştirak etməməsi Fransanın beynəlxalq nüfuzuna zərbə vurur"

**"Dünyanı ən çox çirkləndirən ölkələr istixana qazı emissiyaları ilə iqlim dəyişikliyinə ən çox səbəb olan ölkələrdir. Sənayeləri inkişaf etmiş ölkələr kimi önə çıxan bu dövlətlərin bəzisi bu gün Azərbaycanda təşkil edilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) qatılmamağı seçib. Həqiqətən də, Fransanın COP29-a qatılmaması tarixi və müasir ətraf mühit məsuliyyətləri baxımından ciddi ziddiyyət yaradır. Bir tərəfdən, Paris Sazişinə evsahibliyi edərək iqlim problemləri ilə mübarizədə liderlik iddiası ortaya qoyan Fransa, digər tərəfdən, keçmişdə həyata keçirdiyi nüvə sınaqları və dənizaşırı (DOM-TOM) bölgələrdə apardığı neokolonial fəaliyyətlərin yaratdığı ətraf mühit çirklənməsi faktı ilə üzləşməkdən qaçır".**




Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə Siyasi, İqtisadi və Sosial Araşdırmalar Fondunun Afrika bölgəsi üzrə tədqiqatçısı Tunç Demirtaş bildirib.

Fransanın Afrikada və digər keçmiş müstəmləkələrində davam etdirməyə çalışdığı iqtisadi hegemoniyasının iqlim ədaləti ilə açıq ziddiyyət təşkil etdiyini vurğulayan ekspert bildirib ki, qlobal Cənub iqlim dəyişikliyindən ən çox təsirlənən tərəfdir. Bu yükün böyük hissəsi isə tarixən emissiya məsuliyyəti daşıyan Fransa kimi ölkələrə aiddir. "COP29 kimi platformalara qatılmayaraq həm bu həqiqətlərdən qaçmaq, həm də iqtisadi və siyasi hesablarla məsuliyyətlərindən yayınmaq cəhdi Fransanın beynəlxalq iqlim mübarizəsindəki nüfuzuna zərbə vurur. Fransanın bu mövqeyi beynəlxalq cəmiyyətdə ona qarşı ciddi etimad itkisinin yaranmasına səbəb olacaq. Belə ki, qlobal iqlim dəyişikliyi bütün bəşəriyyətin diqqət mərkəzində olan ən mühüm, hətta təhlükəsizlik baxımından ən vacib məsələdir", - deyə ekspert əlavə edib.

"Azərbaycanın belə bir toplantıya evsahibliyi etməsi olduqca mühüm hadisədir. BMT-nin Baş Assambleyasına üzv dövlətlərin yarısından çoxu bu tədbirdə təmsil olunur. Bu cür genişmiqyaslı tədbirin öhdəsindən uğurla gəlməsi isə Azərbaycanın qlobal məsələlərin həllində artan rolunu və beynəlxalq problemlərə töhfə vermək həssaslığını nümayiş etdirir. Azərbaycan bununla həm qlobal səviyyədə iqlim dəyişikliyi ilə mübarizədə həmrəyliyə inamını ifadə edir, həm də regional və qlobal səviyyədə ətraf mühit siyasətinin gücləndirilməsinə, inkişafına imkan yaradır. Təbii ki, burada Türk Dövlətləri Təşkilatının (TDT) mühüm ölkələrindən olan Azərbaycanın COP29 kimi irimiqyaslı tədbirə evsahibliyi etməsinin təşkilat üçün də əhəmiyyətini vurğulamaq lazımdır. Çünki TDT-nin əsas əməkdaşlıq istiqamətlərindən biri də ətraf mühit və ekologiya ilə bağlıdır. Bu baxımdan beynəlxalq əlaqələr qurmaq istəyən türk dövlətləri Azərbaycanın bu nümunəsindən faydalana bilərlər", - deyə o əlavə edib.

## *COP29-un boliviyalı nümayəndəsi:* "İnkişaf etmiş ölkələrin maliyyə dəstəyinə ehtiyacımız var"

**"COP29 inkişaf etməkdə olan ölkələrin iqlim fəaliyyəti ilə bağlı ambisiyalarını artırmaq üçün olduqca vacib platformadır. Həqiqətən, inkişaf etmiş ölkələrdən maliyyə dəstəyinə ehtiyacımız var".**



Bu sözləri AZƏRTAC-a açıqlaması zamanı Boliviya nümayəndə heyətinin rəhbəri Dieqo Paçeko Balanza deyib.

O vurğulayıb ki, uzun illər bu məsələ yerinə yetirilməmiş böyük bir öhdəlikdir.

"İnkişaf etməkdə olan ölkələr ədalətlilik prinsiplərinə uyğun töhfə verməli və iqlim probleminin həlli üçün diferensiallaşdırılmış öhdəlikləri həll etməlidirlər. Biz inkişaf etməkdə olan ölkələrin ehtiyaclarına cavab vermək üçün trilyonlarla dollar tələb olunur. Dünyada pul var. Pulun olmaması doğru deyil. Pul indi müharibələrə xərclənir. Çatışmayan isə inkişaf etməkdə olan ölkələri dövlət maliyyəsi ilə təmin etmək üçün inkişaf etmiş ölkələrin siyasi iradəsi, siyasi istəyidir. İqlim dəyişikliyinə uyğunlaşma prosesində beynəlxalq əməkdaşlığın və maliyyə dəstəyinin əhəmiyyətini nəzərə alaraq, uyğunlaşma iqlim böhranının həllinin əsas elementidir, uyğunlaşma üçün böyük maliyyə boşluğu var", - deyə o qeyd edib.

## *Elcano Kral İnstitutunun əməkdaşı:* "İspaniyanın Aralıq dənizi bölgəsi iqlim dəyişikliyinə daha çox məruz qalır"

**"İspaniya suyun təkrar istifadə prosesini təmin edir. Bu proses həm də su hövzələrinin idarə olunması ilə bağlıdır".**



Bunu AZƏRTAC-a açıqlamasında COP29 çərçivəsində ölkəmizə gələn İspaniyanın Elcano Kral İnstitutunun baş elmi işçisi Elena Lopez deyib. Onun sözlərinə görə, problem zamanı İspaniyanın çıxış yollarından biri su üçün əlində olan mənbələri şaxələndirməkdir.

"İspaniyanın böyük bir hissəsi Aralıq dənizi bölgəsindədir. Bu ərazilər iqlim dəyişikliyinin təsirlərinə daha çox məruz qalır. Xüsusilə cənub hissə daha çox quraqlıq yaşayır. Bəzi ərazilərimiz isə son vaxtlar daşqınlardan ziyan çəkir. Bu problem kənd təsərrüfatı sektoruna ciddi təsir edir. Uyğunlaşma baxımından İspaniya lazım olan tədbirləri görməyə çalışır. Hazırda ölkəmiz üçün risk və zəiflik təhlili yenilənir", - deyə Elena Lopez əlavə edib.








COP29 Baku Azerbaijan

# "Yaşıl həmrəylik" Azərbaycandan başlayır




## Bərpaolunan enerji: bu gündən gələcəyə töhfə

### Üç qardaş ölkənin liderləri bu məsələdə həmrəy oldular

**Azərbaycan, Qazaxıstan və Özbəkistanın hər biri zəngin "yaşıl enerji" mənbələrinə malikdir. Bu, həmin ölkələr qarşısında sanballı bərpaolunan enerji layihələrini reallaşdırmaq imkanı açır və təqdirəlayiq haldır ki, artıq bir sıra nailiyyətlər əldə olunub.**

Daha bir müsbət hal da odur ki, bu üç respublika son vaxtlar "yaşıl enerji"nin ixracı ilə bağlı imkanlarını əlaqələndirməyə başlayıblar. Bu istiqamətdə də işlərin gedişi ürəkaçandır. Belə ki, bir neçə gün əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin üçtərəfli görüşü olub. Sonra dövlət başçıları "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalayıblar. Daha sonra prezidentlər çıxış ediblər.

Dövlətimizin başçısı bu sənədin imzalanmasını tarixi hadisə adlandıraraq deyib: "İmzaladığımız bugünkü saziş Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır. Mahiyyət etibarilə, Mərkəzi Asiya və Qafqaz regionlarında inteqrasiya prosesləri, nəqliyyat, energetika, ticarətlə bağlı proseslər bu gün deməyə imkan verir ki, bu iki region bir çox məsələlərdə, o cümlədən "yaşıl enerji"nin inkişafı sahəsində sinxron fəaliyyət göstərir. Biz Özbəkistanda, Qazaxıstanda və Azərbaycanda bərpaolunan enerji mənbələrinin yaradılması üzrə artıq əldə edilmiş böyük planlar və nəticələr haqqında bilirik. Yəni biz, belə demək mümkünsə, paralel kursla gedirik və Xəzərin dibi ilə elektrik kabelinin çəkilməsi təkcə üç ölkəmiz arasında deyil, həm də daha geniş miqyasda əməkdaşlıqdır. Dünən konfransdakı çıxışımda Azərbaycandan Qara dənizin dibi ilə Avropaya kabel xətti çəkməsi ilə bağlı ölkəmizin artıq həyata keçirilməkdə olan planlarından danışdım. Bu layihənin texniki-iqtisadi əsaslandırılması tamamlanmaq üzrədir və bununla da biz Mərkəzi Asiyanı,



Qafqazı, Avropanı, Xəzər və Qara dənizləri vahid enerji dəhlizi ilə birləşdirəcəyik".

Ölkəmizin "yaşıl gündəliy"i artıq hamıya bəllidir. Bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə 157 giqavat təşkil edir. Ötən il Birləşmiş Ərəb Əmirliklərinin"Masdar" şirkətinin tikdiyi 230 meqavatlıq "Qaradağ" Günəş-Elektrik Stansiyası istifadəyə verildi. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir. COP29 çərçivəsində Birləşmiş Krallığın BP şirkəti ilə 240 meqavatlıq Günəş-Elektrik Stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda təməli qoyuldu.

2030-cu ilə qədər ölkəmizdə təxminən 6 giqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsi planlaşdırılır. Lakin bu, planlarımızın hamısı deyil, çünki 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Rumıniyanın paytaxtı Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanmışdı. Bir neçə ay əvvəl Buxarestdə sazişin icrası məqsədilə 8-ci Nazirlər-Rəhbər Komitənin iclası keçirilmiş və orada bildirilmişdi ki, "Xəzər-Qara dəniz-Avropa "Yaşıl Enerji Dəhlizi" layihəsinin texniki-iqtisadi əsaslandırmasının ilkin nəticələrinin təqdimatının cari ilin noyabrında ölkəmizin evsahibliyi edəcəyi COP29 çərçivəsində olacağı nəzərdə tutulur. Buxarestdəki iclasda iştirak edən energetika naziri Pərviz Şahbazov bunları vurğulayaraq, həmçinin layihənin statusu, digər komponentləri, atılacaq növbəti addımlar, eləcə də Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında qurulacaq "yaşıl enerji" dəhlizinin inkişafı ilə bağlı fikirlərini bölüşmüşdü.

Hadisələr üç qardaş ölkənin - Azərbaycan, Qazaxıstan və Özbəkistanın xeyli vaxtdır üzərində düşündüyü bu dəhlizin tezliklə reallıq olacağını göstərir. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin dediyi kimi: "Strateji tərəfdaşlıq sazişinin imzalanması Mərkəzi Asiya və Cənubi Qafqaz regionlarının inkişafı üzrə üçtərəfli əməkdaşlıqda mühüm mərhələdir. Sənəd dövlətlərimizin enerji sistemlərinin inteqrasiyası, habelə ekoloji cəhətdən təmiz enerjinin Avropaya və digər bazarlara çatdırılması üzrə etibarlı dəhlizlərin yaradılmasında yeni imkanlar açır. Qazaxıstan böyük tranzit ərazi kimi burada son dərəcə mühüm rol oynayır. Bu sazişin praktiki nəticələri Orta dəhlizin iqtisadiyyatlarımızı birləşdirən "yaşıl körpü" qismində inkişafına töhfə verəcək. Bu əsas sahədə sıx əməkdaşlıq üç dövlət arasında təcrübə və qabaqcıl texnologiyalar mübadiləsini gücləndirəcək və enerji təhlükəsizliyimizin gələcəkdə də möhkəmləndirilməsinə kömək edəcək".

Qeyd edək ki, "yaşıl enerji" karbon neytrallığına doğru irəliləyən Qazaxıstan üçün prioritet istiqamətdir. Bu ölkə qazıntı resurslarından asılılığını azaltmaq, texnoloji yenilikləri inkişaf etdirmək və ekoloji davamlılığını dəstəkləyə biləcək infrastruktur yaratmaq üçün fəal işləyir. Qazaxıstan xarici tərəfdaşlarla ümumi gücü 43 giqavat olan "yaşıl layihələr"in həyata keçirilməsinə dair razılaşmalar əldə edib.

Özbəkistanda da bu istiqamətdə genişmiqyaslı işlər aparılır, "yaşıl enerji"nin inkişafı üçün böyük proqram qəbul edilib. Burada 2030-cu ilədək bərpaolunan enerji mənbələrinin payını 40 faizə çatdırmaq, həmçinin 4,2 giqavatlıq enerjisaxlama sistemləri yaratmaq planlaşdırılır. Bundan başqa, ilin sonunadək əlavə olaraq 2,6 giqavat bərpaolunan enerji və 300 meqavat enerjisaxlama sistemlərinin şəbəkəyə birləşdiriləcəyi hədəflənib. Hər il təxminən 2 giqavat günəş və külək enerjisi istehsal etmək gücünü işə salmaq nəzərdə tutulur.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev də üçtərəfli sazişin imzalanmasını tarixi hadisə adlandırmış və demişdir: "Bərpaolunan enerji təkcə iqtisadi məqsəd deyil. Bu, bizim gələcəyə verdiyimiz töhfədir, gələcək nəsillər qarşısında məsuliyyət hissimizin nəticəsidir. Mən bu layihənin ekoloji əhəmiyyətini xüsusilə qeyd etmək istərdim. Nəql ediləcək enerji külək və günəş enerjisidir, iqlimə təsiri azaltmağa kömək edəcək bərpaolunan və təmiz mənbədir".

Bu layihənin həyata keçirilməsinin iqtisadi səmərəsini hər üç dövlət hiss edəcək. Minlərlə iş yeri açılacaq, enerji infrastrukturu inkişaf etdiriləcək, texnoloji və biznes əlaqələri genişlənəcək və bunun əsas nəticəsi olaraq əhalinin həyat səviyyəsi yüksələcək.

Deyilənlərə əlavə etmək yerinə düşər ki, Səudiyyə Ərəbistanı və bu ölkənin "ACWA Power" şirkəti həm Azərbaycanla, həm Qazaxıstanla, həm də Özbəkistanla bərpaolunan enerji sahəsində sıx əməkdaşlıq və tərəfdaşlıq edir. Ona görə də hər üç dövlət başçısının bunu məmnunluqla və minnətdarlıqla qeyd etməsi təsadüfi deyil.

Bu əlaqələr də davam edir. Belə ki, sözügedən üçtərəfli görüşdən sonra Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentlərinin iştirakı ilə Azərbaycan, Qazaxıstan, Özbəkistan, Səudiyyə Ərəbistanı Krallığı arasında "Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində əməkdaşlıq üzrə Azərbaycan Respublikasının, Qazaxıstan Respublikasının, Özbəkistan Respublikasının və Səudiyyə Ərəbistanı Krallığının Energetika nazirlikləri arasında İcra Proqramı"nın imzalanması mərasimi olub.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Gəncə COP29-un iştirakçılarını qarşılamağa hazırlaşır

### Şəhərdəki Heydər Əliyev Park-Kompleksindəki süni göl də bərpa edilir

**Gəncədəki Heydər Əliyev Park-Kompleksində yerləşən süni göldə təmir-bərpa işlərinə başlanılmışdır. İşlər Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyindəki Regional Su Meliorasiya Xidmətinin sifarişi əsasında aparılır.**



Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov bu günlər süni göldə aparılan işlərlə tanış olmuşdur. Şəhər rəhbərinə məlumat verilmişdir ki, ərazidə 380 metr uzunluğunda suötürücü borunun çəkilişi həyata keçirilir və işlər yekunlaşmaq üzrədir. Bununla yanaşı, gölün yamacları beton tavalarla üzlənir. Ətrafının isə dəmir barmaqlıqlarla əhatələnməsi nəzərdə tutulub. Hazırda burada 50-yə yaxın işçi, 10-a yaxın texnika çalışır.



6 hektar əraziyə malik süni gölün dekabr ayında təhvil veriləcəyi gözlənilir. Gələn ayın sonunda gölə suyun, eləcə də müxtəlif balıq növlərinin buraxılması nəzərdə tutulur.

Xatırladaq ki, süni göl ötən ilin yaz aylarında qonşu rayonların ərazisindən gələn sel suları nəticəsində daşaraq ətrafda yerləşən yaşayış sahələri üçün təhlükə yaratmışdı. Dibi lil və palçıqla dolan gölün suyu aidiyyəti qurumlar tərəfindən çəkilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Azərbaycan COP29 missiyasının öhdəsindən uğurla gəlir

**"BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası müzakirə edilən məsələlərin aktuallığı, əhatəliliyi və iştirakçılarının sayı baxımından BMT sistemi daxilində olduqca mühüm əhəmiyyətə malikdir. Əgər BMT-nin 193 üzv dövləti varsa, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına 198 dövlət qoşulub".**

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Rizvan Nəbiyev deyib. O bildirib ki, belə qlobal əhəmiyyətli tədbirin Azərbaycanda keçirilməsi Prezident İlham Əliyevin uğurlu xarici siyasət kursunun təsdiqidir.



Deputat qeyd edib ki, Azərbaycan COP29 çərçivəsində inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında qlobal iqlim dəyişikliyinin təsirləri ilə bağlı bütün məsələlərin hərtərəfli müzakirəsi və hamının mövqeyinin səsləndirilməsi üçün əla platforma təşkil edib: "COP29 Azərbaycanın indiyədək evsahibliyi etdiyi ən irimiqyaslı tədbirdir və onun təşkili üçün ölkəmiz cəmi 10 ay vaxt sərf edib. Sessiyanın gündəliyi Azərbaycanın müəyyən etdiyi prioritetlərlə yanaşı, dünya birliyinin COP29-dan gözləntiləri əsasında formalaşdırılıb. Dünya birliyi dedikdə COP29-da müxtəlif səviyyələrdə təmsil olunan 196 ölkə, çoxsaylı beynəlxalq təşkilat və transmilli şirkətləri təmsil edən 72 min iştirakçı nəzərdə tutulur. Onların təxminən yarısı - 80 dövlət prezident, vitse-prezident, baş nazir səviyyəsində qlobal və milli maraqlar arasında balans əldə edilməsi üçün Bakıdadır".

Sessiyanın əsas hədəfləri barədə danışan deputat bildirib ki, COP29-dan əsas gözlənti iqlim maliyyəsi ilə bağlı ədalətli və ambisiyalı Yeni Kollektiv Kəmiyyət Hədəfinin (NCQG) razılaşdırılmasından ibarətdir. Bu kontekstdə əsas məsələ iqlim dəyişikliyi ilə mübarizə üçün yeni maliyyə hədəfinin müəyyən olunması və iqlim maliyyələşdirilməsi ilə bağlı inkişaf etməkdə olan dövlətlərə ayrılacaq konkret illik məbləğin razılaşdırılmasıdır.

COP29-da digər prioritet məsələnin - Paris Sazişinin 6-cı maddəsinə uyğun olaraq, tənzimlənən karbon bazarlarının formalaşdırılması və tənzimlənməsi ilə bağlı qərarın qəbul edilməsinə diqqət çəkən R.Nəbiyev deyib ki, bu qərar bir çox dövlətlər, xüsusilə də inkişaf etməkdə olan ölkələr üçün vacibdir. Çünki əgər karbon bazarları həqiqətən də tənzimlənən vahid bazara çevrilə bilsə, bu, inkişaf etməkdə olan ölkələrə iqlim maliyyələşməsi ilə bağlı əlavə maliyyə mənbəyinə çıxış imkanı verəcək. Onlar inkişaf etməkdə olan ölkələrin öz iqlim fəaliyyətlərini maliyyələşdirməsi üçün əlavə gəlir mənbəyi ola bilər. Belə ki, tənzimlənən karbon bazarı imkan verəcək ki, dövlətlərin milli iqlim planları həyata keçirilərkən ildə 250 milyard ABŞ dolları məbləğində vəsaitə qənaət olunsun. "2015-ci ildə Paris Sazişinin imzalanmasından uzun müddət keçsə də, çoxsaylı müzakirələrə baxmayaraq, onun 6.4-cü maddəsi üzrə hələ də razılıq əldə etmək mümkün olmayıb. Bakı sessiyasının ilk günündə isə il ərzində aparılan fəaliyyətin nəticəsi olaraq bu razılaşma əldə olundu. Bu da ümumilikdə prinsipial xarakter daşıyan 6-cı maddə üzrə razılaşmanın əldə olunmasına ümidləri artırdı", - deyə deputat əlavə edib.

O, COP29 sədrliyinin iqlim dəyişikliyinə qarşı mübarizəyə yönəlmiş 14 təşəbbüsü arasında Qlobal İqlim Şəffaflığı üzrə Bakı Platformasının (BTP) xüsusi çəkiyə malik olduğunu da diqqətə çatdırdı. Bu il sentyabrın 3-də istifadəyə verilən platformanın Azərbaycanın COP29 sədrliyi çərçivəsindəki çox önəmli təşəbbüslərindən biri olduğunu vurğuladı: "Dövlətlər hər beş ildən bir təqdim etdikləri Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC) sənədləri vasitəsilə iqlimlə bağlı növbəti beş il üçün karbon emissiyalarını azaltmaq, enerji keçidi strategiyalarını hazırlamaq, dəyişən iqlimə uyğunlaşmaq üçün adaptasiya tədbirləri həyata keçirmək kimi ambisiyalarını yeniləyirlər. Bu beşillik planların icrası ilə bağlı dövlətlər tərəfindən hər iki ildən bir hesabatlar, ikiillik şəffaflıq hesabatları təqdim edilməlidir. Hesabatların dövlətlər tərəfindən COP tarixində ilk dəfə bu il təqdim edilməsi planlaşdırılır. Ancaq qeyd olunan irihəcmli hesabatlar hazırlanması həm texniki, həm də substantiv baxımdan olduqca mürəkkəb prosedura malikdir və ciddi təhlil tələb edir. Bakı platformasının yaradılması da məhz dövlətlərə bu cür texniki imkan və ekspertiza dəstəyini təmin edəcək"`.

R.Nəbiyev bildirib ki, maliyyə hədəflərindən biri də COP tarixində ilk dəfə yaradılacaq İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun (IMFF) qalıq yanacağı istehsal edən ölkələrin və şirkətlərin birgə töhfəsi hesabına formalaşdırılmasıdır: "IMFF çərçivəsində Azərbaycanın əsas məqsədi mədən yanacağı istehsal edən ölkələrin və özəl şirkətlərin maliyyə töhfələri hesabına inkişaf etməkdə olan dövlətlərdə "yaşıl enerji"nin inkişafı üçün bir milyard dollar həcmində investisiya cəlb etməkdir. Düşünürəm ki, ölkəmiz bu tədbirin də, onun missiyalarının da öhdəsindən uğurla gəlir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

COP29 Baku Azerbaijan

# Azərbaycandan dünyaya "yaşıl çağırış"lar








## COP29-da ölkəmizdən bir ilk

### "Azchemco" şirkətinin şoran torpaqları yararlı hala gətirən məhsullarına ziyarətçilər böyük maraq göstərirlər

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasındakı (COP29) tədbirlərin böyük əksəriyyəti "yaşıl zona"da keçirilir. "yaşıl zona" müxtəlif maraqlı tərəflərin - dövlət və özəl sektor, media işçiləri, alimlər, gənclər, yerli icmalar, QHT-lər, vətəndaş cəmiyyəti və rəsmi Mavi zona nümayəndələrini də əhatə edən geniş iştirakçı auditoriyasının ünsiyyət qurduğu məkandır.**




Bura həm də iştirakçıların öz fikir, baxış və ideyalarını, eləcə də layihələrini bölüşdükləri dinamik platformadır. "Yaşıl zona" iqlim dəyişmələri ilə mübarizə üçün potensial həll yollarının araşdırılmasına dair müzakirələr, panellər, sessiya və konfranslar, eləcə də əyani nümayişlər üçün mərkəz funksiyasını yerinə yetirir. Maraqlı tərəflər burada iqlim dəyişmələri ilə mübarizə sahəsində özlərinin innovativ layihələrini təqdim edir və prosesdə yaxından iştirak etmək imkanı əldə edirlər. Pavilyonlarda sərgilənən yerli şirkətlər təklif etdikləri məhsulları, ixtiraları ilə COP29-un Azərbaycanda böyük uğura imza atmasında böyük rol oynayırlar.

Bunlardan biri də "Azchemco" şirkətidir. Şirkətin məhsulları sərgilənən pavilyonun ətrafında xeyli ziyarətçinin olması diqqətimizi cəlb etdi. Təmsilçilər ziyarətçiləri maraqlandıran suallara səbr və həvəslə cavab verirdilər. Şirkətin direktoru Ruslan Akçurinlə həmsöhbət olduq. Direktor bildirdi ki, "Azchemco" kənd təsərrüfatı və kimya bazarlarının ehtiyacı olan etibarlı qida təminatı üçün keyfiyyətli, zərərli qatqısız, kənd təsərrüfatı məhsullarını əldəetmə imkanını həyata keçirir. "Yaşıl dünya" naminə kənd təsərrüfatı və iqtisadi mənbələrin daimi istifadəsini təmin etmək və gələcək nəsillərə ekoloji baxımdan təmiz dünya qoyub getmək şirkətin prioritetidir.

Ruslan Akçurin fikirlərinin davamını belə söylədi: "Şirkətimizin cəmi 5 yaşı var. Məlumdur ki, Azərbaycanda və dünyada şoran torpaqlar mövcuddur və onlar kənd təsərrüfatında heç bir rol oynamırlar. Bizim şirkətin istehsal etdiyi məhsullar həmin torpaqların şoranlığını azaldır, onları kənd təsərrüfatı üçün yararlı hala salır. Bəri başdan deyim ki, "Azchemco" bu işlə məşğul olan ilk şirkətdir və onun dünyada analoqu yoxdur. Biz Azərbaycanda ilk maye gübrə istehsal edən şirkətik. Bir müddət əvvəl 16 maye gübrə məhsulunun lisenziyasını almış və cari ilin may ayından satışına başlamışıq. Əlavə olaraq suda həll olunan 2 cür toz gübrəmizin olduğunu da deyə bilərəm. Yaxın zamanlarda daha 3 toz və 5 maye gübrənin lisenziyasını alacağıq. Hələ ilin əvvəlində - aprel ayında "Azchemco" ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında memorandum imzalanmışdır. Sənədə əsasən, müxtəlif rayonlara səfər etmiş, torpaq nümunələri götürmüşük. Qeyd edim ki, ən şoran torpaq Ağdaş rayonunda aşkar olunmuşdur".




Həmsöhbətimizin dediyinə görə, "Azchemco" dünya kənd təsərrüfatı sektorunda innovativ, təşəbbüskar şirkət və istehsal etdiyi məhsulların Azərbaycanın brendinə çevrilməsinə nail olmaq üçün fasiləsiz çalışır. Şirkət dünya kənd təsərrüfatı kimyası sənayesində Azərbaycanı lider ölkə kimi tanıtmaq yolunda irəliləmək məqsədini qarşısına qoyub. Onun missiyası habelə qida təhlükəsizliyinin və keyfiyyətinin artırılması ilə rəqabət qabiliyyətliliyinin və xarici bazarlara ixrac potensialının artırılması, kənd təsərrüfatında istifadə olunan keyfiyyətli aqrokimyəvi maddələrin, bitki mühafizəsi vasitələrinin və preparatlarının istehsalı, eləcə də onlardan düzgün istifadəyə dair maarifləndirmə işlərinin aparılmasından ibarətdir.

"Torpağı kənd təsərrüfatı üçün yararlı vəziyyətə salmaq üçün nə qədər vaxt lazım olur?" sualına direktor cavab verdi ki, bu, şoranlıqdan və sahənin həcmindən asılıdır: "İşin mexanizmi belədir ki, gübrəni su ilə qarışdırıb yeraltı damlama sistemi ilə torpağı suvarırıq. Proses zamanı DPR/369 vasitəsi ilə şoranlıq azalır. Eyni vaxtda həm suyun, həm də gübrənin monitorinqini aparır, işin müsbət nəticə verməsini nəzarətdə saxlayırıq. Sudan bu cür səmərəli istifadə şirin suya qənaət olunmasına təkan verir. "Bir müddət əvvəl Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə yararlı hala gətirdiyimiz torpağa nümunə üçün çiyələk bitkisi əkmişik. Məhsul yetişəndə onu Qida Təhlükəsizliyi Agentliyinə təqdim edəcəyik ki, meyvədə kimyəvi qalığın, nitrat payının olub-olmadığını müəyyənləşdirsin".

Sırf Azərbaycan şirkəti olan "Azchemco"nun pavilyonunda 16 maye gübrə və şoranlığı azaldan məhsullar sərgilənir. Bütün bu məhsullar Azərbaycan istehsalıdır. İşlərini daha da genişləndirmək, dünya miqyasında tanınmaq üçün təcrübə və peşəkarlıq lazım olduğunu bilən şirkətin əməkdaşları dünyanın bir çox ölkələrində keçirilən konfrans və seminarlarda iştirak edirlər. Həmin tədbirlərdə "Azchemco"nun ötən qısa müddətdə Azərbaycanda kənd təsərrüfatına verdiyi töhfə təqdir olunur. "Biz bir Azərbaycan şirkətiyik" deyərək qürurlanan əməkdaşlar xaricilərin bu sahəyə meyil göstərmələrini də diqqətdən qaçırmırlar. Bütün bunlar şirkətin beynəlxalq əməkdaşlığa başlamasına imkan verir. Şirkətin məhsulları hazırda Avropanın bir neçə ölkəsində, ABŞ-də lisenziya alıb. Ruslan Akçurin dedi ki, yaxın gələcəkdə məhsullarının ixrac olunacağına tam əmindir.

Kənd təsərrüfatına böyük fayda verəcək şirkətin gördüyü işlər pavilyonu ziyarət edənlərdə böyük maraq doğurur. Həm yerli, həm də xarici ziyarətçilər buradakı hər xırda detala diqqət ayırır, nəyisə öyrənməyə cəhd edirlər. İki gün öncə Heydər Əliyev Fondunun vitse-prezidenti, "Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq" (IDEA) İctimai Birliyinin təsisçisi və sədri Leyla Əliyeva pavilyonu ziyarət edərkən layihənin 3-cü mərhələsinə start vermişdir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## COP29 könüllüləri konfransın işinə töhfələr verirlər

**Dünyanın ən mötəbər iqlim tədbirinin - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) ölkəmizdə uğurla keçirilməsində burada çalışan könüllülərin də əməyi təqdirəlayiqdir.**




Qeyd edək ki, indiyədək bir çox beynəlxalq tədbirdə könüllülərin böyük fəaliyyəti olub. Onların dünya ictimaiyyətinin diqqət mərkəzində olan COP29-a da yaxşı hazırlaşdıqları göz önündədir.

Bu ilin mayında COP29 Könüllülük Proqramı elan olundu. Sözügedən proqram tədbirin uğurla təşkilinə töhfə vermək istəyən hər kəs üçün açıq idi. Namizədlərin layihəyə qoşulmasının rahat və koordinasiyalı şəkildə təşkili məqsədilə onlayn qeydiyyat platforması istifadəyə verildi.

Proqrama qoşulmaq üçün 16 min nəfərdən çox namizəd müraciət etdi. Onlar bir neçə mərhələdən ibarət olan seçim prosesindən keçdilər. Müraciət edənlərdən 3 min nəfəri COP29 könüllüsü olaraq seçildi. COP29-a hazırlıq mərhələsində səmərəli işlər həyata keçirildi. Ötən aylar ərzində COP29 Könüllülük Proqramının iştirakçılarının hərtərəfli məlumatlandırılması, səriştələrinin artırılması məqsədilə müxtəlif istiqamətlərdə bir sıra intensiv təlimlər təşkil olundu.

Qlobal əhəmiyyətli iqlim tədbirinə könüllülərin yüksək səviyyədə hazırlığını təmin etmək üçün COP29 sədrliyi tərəfindən təsis edilən Könüllülər Mərkəzi bu il iyunun 2-dən fəaliyyətə başladı. Həmin gün BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində könüllülərlə işin səmərəli təşkili məqsədilə yaradılan Könüllülər Mərkəzinin rəsmi açılış mərasimi keçirildi. Açılış mərasimində COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev, COP29 Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova, eləcə də media nümayəndələri və digər qonaqlar iştirak etdilər.






Mərasimdə bildirildi ki, mərkəzdə könüllülərin unikal bacarıqlarının ən səmərəli şəkildə artırılması, əməkdaşlıq mədəniyyətinin təşviqi üçün inklüziv mühit təmin olunacaq.

COP29 Könüllülük Proqramının iştirakçılarının konfransa hazırlıq mərhələsində hərtərəfli məlumatlandırılması və səriştələrinin artırılması üçün fərdi inkişaf, dayanıqlılıq, iqlim dəyişmələri, ətraf mühitin mühafizəsi və COP29 prosesi kimi mühüm mövzuları əhatə edən bir sıra müxtəlif ümumi təlimlər təşkil olundu. Ümumi təlim mərhələsini uğurla başa vuran könüllülər xüsusi rol təlimlərinə cəlb edildilər. COP29 könüllülərinin konfransda iştirakı üçün tələb edilən bilik və bacarıqların təkmilləşdirilməsi istiqamətində mühüm olan rol təlimləri mərhələsi oktyabr ayında uğurla yekunlaşdırıldı.

Xüsusi rol təlimləri könüllülərin konfrans zamanı icra edəcəyi konkret vəzifə və öhdəlikləri əhatə etməklə, COP29 Azərbaycan Əməliyyat Şirkətinin müvafiq aidiyyəti struktur bölmələrinin mütəxəssisləri tərəfindən keçirildi. Həmin mərhələdə könüllülər fəaliyyət göstərəcəkləri struktur bölmələrlə tanış oldular, komanda üzvləri ilə görüşdülər, tədbir ərzində vəzifə öhdəlikləri barədə məlumatlandırıldılar.

Proqramın yekun mərhələsi olan tədbir məkanı - Bakı Olimpiya Stadionunda könüllülərin iştirakı ilə məkan təlimlərinə noyabrın 3-dən başlandı. Könüllülər bu mərhələdə bilavasitə tədbir məkanının infrastrukturu, "mavi" və "yaşıl zona"lar olmaqla müxtəlif sahələr ilə əyani tanış oldular, koordinasiyalı şəkildə çalışma bacarıqları üzərində işlədilər.

COP29 qlobal iqlim konfransına hazırlıq prosesi çərçivəsində COP29 könüllüləri üçün üç ay davam edən geniş təlim proqramının yekun mərhələsi başa çatdı. COP29 Könüllülük Proqramı çərçivəsində "mavi zona"da işə cəlb olunacaq könüllülər məkan təlimləri ilə sonuncu hazırlıq mərhələsinə noyabrın 7-də yekun vuruldu. Məlumat sessiyası, məkan sessiyası və konfrans məkanında gəzinti olmaqla üç hissədən ibarət yekun mərhələyə 1200 COP29 könüllüsü qatıldı. Sonuncu təlim mərhələsi könüllüləri konfrans ərəfəsində tədbir məkanı ilə yaxından tanışlıq, konfrans müddətində onların icra edəcəkləri vəzifələr barədə ətraflı məlumat vermək məqsədilə həyata keçirildi.

Hazırda Əməliyyat Şirkətinin 17 departamentində ümumilikdə 35 istiqamət üzrə 3 min könüllü fəaliyyət göstərir. Bir neçə dil biliyi olan könüllülər COP29-a gələn qonaqlara və media nümayəndələrinə lazımi informasiyalar verir, onları istiqamətləndirirlər. Eyni zamanda yüksək ünsiyyət bacarığı, mehribanlığı, gülərüzlüyü ilə də onların hər biri qlobal tədbir iştirakçılarında xoş ovqat yaradırlar. Öz ölkəsinin gənclərini layiqincə təmsil edən könüllülər BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının işinə töhfələr verirlər.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

COP29 Baku Azerbaijan



# Fərqliliklər Bakıda həmrəyliyə çevrilir







COP29 Baku Azerbaijan

# Şəhidliyin zirvəsində qeyd olunan 50 yaş

## "Azərbaycan" qəzetinin şəhid Elgün İsmayılov adına ənənəvi yaradıcılıq müsabiqəsinin qalibləri mükafatlandırıldı

**Yaşasaydı bu gün 50 yaşı tamam olacaqdı... Oğlu, qızı, bəlkə nəvələri də başına toplaşıb şənlənəcək, şəninə ən xoş sözlər söyləyəcəkdilər...**

O, yaşamayıb Vətəni yaşadanlardan, sevdiyi müqəddəs torpaq üçün canını qurban verənlərdən oldu...

Döyüşə qəhrəman olmaq, tarixdə əbədiləşib yaşamaq üçün getməmişdi. Bircə məqsədi var idi: babalardan miras qalmış Vətən torpağını qorumaq...

Ömrünün 20-ci baharında Murovdağın zirvəsində şəhadətə yüksələn Elgün İsmayılovun unudulmaz xatirəsi yalnız ailəsində, oxuduğu məktəbdə deyil, həm də bir zamanlar çalışdığı "Azərbaycan" qəzeti redaksiyasında daim ehtiramla yad edilir. Hər il şəhidin doğum günündə redaksiya kollektivi onun İkinci Şəhidlər xiyabanındakı müqəddəs məzarını ziyarət edir, üzərinə tər çiçək dəstələri düzürlər.



Şəhid Elgün İsmayılov 1974-cü ildə, noyabrın 16-da Bakıda anadan olub. 1993-cü ildə həqiqi hərbi xidmətə çağrılaraq elə həmin ilin oktyabrında "N" saylı hərbi briqadanın tərkibində cəbhə bölgəsinə - Füzuli rayonuna göndərilir. O, Horadizin düşməndən azad edilməsi uğrunda döyüşlərdə iştirak edir və göstərdiyi şücaətə görə komandanlıq tərəfindən mükafatlandırılır.




1994-cü ilin yanvarında hərbi briqadanın yeri Kəlbəcər bölgəsinə, Murovdağ istiqamətinə dəyişdirilir. Komandanlığın onun barəsində verdiyi arayışda göstərilir ki, Elgün İsmayılov mürəkkəb relyefə malik Murovdağda bölüyün keçirdiyi 20 əməliyyatdan 16-da iştirak edib. 1994-cü il aprelin axırlarında aparılan hərbi əməliyyata görə Elgün İsmayılov komandanlığın fəxri fərmanına layiq görülür. Mayın 25-dən 26-na keçən gecə Murovun Ömər yüksəkliyində düşmən arxasına keçərək vacib məlumatları gətirməyə gedən 4 nəfərlik kəşfiyyat dəstəsinin tərkibində Elgün də olur. Düşmən hücumuna məruz qalan igid kəşfiyyatçı son nəfəsinədək döyüşərək şəhidlik zirvəsinə ucalır.

2003-cü ildən redaksiyada Elgünün döyüş yolunu əks etdirən stend yaradılıb. Elə həmin ildən başlayaraq redaksiya əməkdaşları arasında şəhidin xatirəsinə həsr olunmuş yaradıcılıq müsabiqəsi keçirilir.

Redaksiyada ənənəvi tədbir Vətən uğrunda canlarından keçən şəhidlərin xatirəsi yad edilməklə başladı.

"Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov çıxış edərək bildirdi ki, budəfəki müsabiqə Azərbaycan üçün çox önəmli, tarixi vaxta - COP29 kimi möhtəşəm tədbirin keçirildiyi günlərə təsadüf edir. "Azərbaycan" qəzeti həmişə vətənpərvərlik mövzusunda dərc olunan məqalələri ilə xüsusi fərqlənib. Redaksiya əməkdaşlarının Elgün İsmayılovun xatirəsinə həsr olunmuş yaradıcılıq müsabiqəsinə ardıcıl olaraq 22 il vətənpərvərlik mövzusunda məqalələr təqdim etmələri də bunun əyani təsdiqidir.

Baş redaktor vurğuladı ki, Vətən müharibəsində əldə etdiyimiz şanlı zəfər həm də Birinci Qarabağ savaşında torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ömür yolunun gənclərə əsl örnək olduğunu sübuta yetirdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində qazandığı tarixi Qələbə sayəsində xalqımızın milli qüruru özünə qayıtdı: "Bu gün bizlər ömrünü Vətənə fəda edən igidlərimizə borcluyuq. Qalib xalqın nümayəndələri kimi Elgünün xatirəsinə həsr olunmuş yaradıcılıq müsabiqəsini də artıq dörd ildir ki, zəfər ab-havası ilə qeyd edirik. Döyüş meydanında düşmənin başını əzərək şəhidlərimizin qisasının alınması, bütün ərazilərimizdə dövlətimizin konstitusion əsaslarının bərpa olunması bizə qürur hissi bəxş edir".

Bəxtiyar Sadıqov bildirdi ki, indi xalqımız Qarabağ və Şərqi Zəngəzurda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən böyük quruculuğun təntənəsini yaşayır. Budəfəki müsabiqəyə təqdim olunmuş jurnalist yazılarının hər birinin Vətən müharibəsi qəhrəmanları, işğaldan azad edilmiş ərazilərimizdə icra edilən bərpa-quruculuq işləri ilə bağlı olması da bu baxımdan təsadüfi deyil: "Biz hərbi vətənpərvərlik tərbiyəsinə daim diqqət ayırmalı olduğumuzun məsuliyyətini yaxşı anlayırıq".

Sonra Bəxtiyar Sadıqov müsabiqənin nəticəsini elan etdi. Builki müsabiqənin yekunlarına görə, redaksiyanın əməkdaşları Yasəmən Musayeva, Zöhrə Fərəcova və Rəşad Baxşəliyev vətənpərvərlik mövzusunda dərc olunmuş yazılara görə "Azərbaycan" qəzetinin fəxri diplomu və pul mükafatları ilə təltif olundular.

Tədbirdə çıxış edən Zöhrə Fərəcova qeyd etdi ki, hər birimiz xalqımıza şanlı Zəfəri yaşadan qəhrəman şəhidlərə, qazilərə, vətən üçün canını qurban verməkdən çəkinməyən cəsur oğullara borcluyuq. Onlar öz qanları ilə qəhrəmanlıq tarixi yaratdılar: "Dörd ildir ki, onların göstərdiyi şücaət hesabına qalib xalq qüruru yaşayırıq. "Azərbaycan" qəzetinin hər il ənənəvi müsabiqə keçirməsi şəhidlərin xatirəsinə ehtiramın təzahürüdür. Bu gün qaliblər arasında olmaq həm də məsuliyyətimi artırır".

Müsabiqənin qaliblərindən olan Yasəmən Musayeva isə dedi ki, həm Birinci, həm də İkinci Qarabağ müharibəsində gözlərini belə qırpmadan Vətənimizin bütövlüyü naminə həyatlarını qurban verən igidlərimizin əziz ruhunu şad etmək, onların xatirəsini əbədiləşdirmək üçün bir jurnalist olaraq məsuliyyəti dərk edir: "Bu mənada işğaldan azad olunmuş torpaqlarımızdan reportajlar hazırlamağı, Qarabağ və Şərqi Zəngəzura qayıdan keçmiş məcburi köçkünlər və bizi azadlığa qovuşduran şəhidlər barədə publisistik məqalələr yazmağı mənəvi borc hesab edirəm. Builki müsabiqədə də məhz Vətənimizin qəhrəman oğulları barədə yazdığım məqalələrimlə qalib seçildiyimə görə qürurluyam".

Qəzetin əməkdaşı, 44 günlük Vətən müharibəsinin könüllü iştirakçısı, Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan baş leytenantı Rəşad Baxşəliyev münsiflər heyətinə təşəkkürünü bildirərək qeyd etdi ki, istənilən müsabiqədə qaliblər sırasında olmaq jurnalist üçün fərəhlidir. Amma vətənpərvərlik mövzusu, xüsusən də şəhidlərimiz haqqında yazılar, reportajlar hazırlayıb qalib olanda iftixar hissi keçirirsən: "Torpaqlarımız işğal altında olanda da bu müsabiqədə iştirak edib vətənpərvərliyin təbliğatı istiqamətində maraqlı məqalələr, reportajlar hazırlamışıq. Amma bu mükafatlar bizə qalib olduğumuz üçün deyil, həvəsləndirici kimi təqdim edilib. Çünki həmin zamanlarda torpaqlarımız hələ azad olunmamışdı, şəhidlərimizin ruhları yolumuzu gözləyirdi. Dörd il öncə qazandığımız şanlı zəfər bizi qalibə çevirdi və bu gün şəhid həmkarımız Elgün İsmayılovun da ruhu şaddır. Qırx dördgünlük Vətən müharibəsində qazanılan qələbəmizdə payı olan Azərbaycan Ordusunun zabiti kimi qürurluyam ki, mən həm də "Azərbaycan" qəzetində Elgünün davamçısı oldum və şəhid qardaşımızın qisasını alıb qalib zabit kimi redaksiyamıza qayıtdım".

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Məhəmməd YUNUS: "Azərbaycan mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib"
Avropa Şurasının Baş katibi: "COP29-un qısa müddət ərzində təşkil edilməsini yüksək qiymətləndiririəm"
Özünə güvənənlər
BMT Baş Assambleyasının prezidenti: "Azərbaycan BMT Nizamnaməsinə tam sadiqdir"
Jeraldu ALKMİN: "COP29-da uğurlu təşkilatçılıq var"
Monteneqro Prezidenti: "Azərbaycan çox böyük və nadir inkişaf yolu keçib"
Abdulla əl-ALİMİ: "Azərbaycanın bu uğuru bütün islam dünyasının uğurudur"
Maldiv Azərbaycan vətəndaşları üçün vizasız rejim tətbiq edir
Efiopiya Prezidenti: "İlham Əliyevin çıxışı dolğun və məzmunlu idi"
Şimali Makedoniya Prezidenti: "COP29 yüksək səviyyədə təşkil edilib"
İslam İnkişaf Bankı işğaldan azad edilmiş ərazilərdəki layihələri maliyyələşdirən ilk beynəlxalq maliyyə təşkilatı oldu
Nepal Prezidenti: "Azərbaycanda şahidi olduğum inkişaf məndə dərin təəssürat yaradıb"
COP29 Baku Azerbaijan
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Goranboy "yaşıl diyar"a çevrilir

**Son illər Azərbaycanda təbiətin qorunması və mühafizəsi məsələsinə böyük diqqət yetirilir və irimiqyaslı qabaqlayıcı tədbirlər həyata keçirilir. Bu işdə goranboylular da fəal iştirak edirlər.**

"Yaşıl dünya naminə həmrəylik ili" və COP29 tədbirləri çərçivəsində rayonda müntəzəm olaraq yeni yaşıllıq zolaqları salınır, mövcud olanları genişləndirilir və onlara lazımi aqrotexniki qulluq göstərilir. Təkcə bu il keçirilən kütləvi tədbirlər çərçivəsində Goranboy şəhərində və rayonun bütün yaşayış məntəqələrində ümumilikdə 21 mindən çox müxtəlif növ həmişəyaşıl ağac və qızılgül kolları əkilmiş, yeni yaşıllıq zolaqları salınmışdır. O cümlədən rayonun əsas turizm marşrutları üzrə Bakı-Qazax avtomobil yolunun Goran qəsəbəsi, Borsunlu, Nadirkənd kəndləri və Dəliməmmədli şəhəri ərazilərində, Goran-Naftalan-Tap Qaraqoyunlu-Talış avtomobil yolunun Qızılhacılı qəsəbəsi, Boluslu, Balakürd, Tap Qaraqoyunlu və Tap kəndlərində, ümumilikdə 10,5 min ağac əkilmiş, 10,3 hektarda yeni yaşıllıq zolaqları salınmışdır. Yeni salınmış yaşıllıq zolaqlarına mütəmadi olaraq aqrotexniki qulluğun göstərilməsi təmin edilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Hava əsasən yağmursuz keçəcək

Azərbaycanda noyabrın 16-na gözlənilən hava proqnozu açıqlanıb.



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecəyə doğru bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim cənub-qərb küləyi axşam arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 9-11° isti, gündüz 14-18° isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək. Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam şimal və qərb rayonlarından başlayaraq havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi gündüzdən bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3-8° isti, gündüz 13-18° isti, dağlarda gecə 0-4° şaxta, gündüz 5-10° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Biznes Universitetinin rektoru professor İbad Abbasov və universitetin professor-müəllim heyəti Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Veysəloğlu Şirkətlər Qrupunun təsisçisi və baş icraçı direktoru Aydın Talıbov Bakı Ali Neft Məktəbinin (BANM) rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Əhməd Həsənova qardaşı

**CEYHUN HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əhməd Əhmədzadə meliorasiya və su təsərrüfatının veteranı, Əməkdar mühəndisi, Prezidentin fəxri təqaüdçüsü

**NADİM HÜSEYN OĞLU QAZIBƏYOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Əhməd Əhmədzadə Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev və xidmətin kollektivi Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Kamil Qafarov Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

COP29 Baku Azerbaijan


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4218
Sifariş 2611

Qiyməti 60 qəpik